# Xalq qəzeti

Xalqın qəzeti!

№ 003 (30407) 10 yanvar 2024-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az


**Birləşmiş Ərəb Əmirlikləri ölkəmizin Şərqdə mötəbər tərəfdaşıdır**

Səhifə ⇨ 7



# Azərbaycan – BƏƏ: COP28-dən COP29-a "yaşıl körpü"

## Rəsmi qarşılanma mərasimi





**Azərbaycan Respublikasına rəsmi səfərə gələn Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın yanvarın 9-da rəsmi qarşılanma mərasimi olub.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanı qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə raport verdi.

Prezident Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan Azərbaycan əsgərlərini salamladı.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Birləşmiş Ərəb Əmirliklərinin və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan nümayəndə heyəti Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə, Birləşmiş Ərəb Əmirliklərinin nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

# Tehran İrəvan üçün illüziya yaradır

## *Kənaniyə bəzi xatırlatmalar*




**Məlum olduğu kimi, Türkiyənin nəqliyyat və infrastruktur naziri Əbdülqadir Uraloğlu bildirib ki, ölkəsi Zəngəzur dəhlizi layihəsini 2029-cu ilə qədər başa çatdırmağı nəzərdə tutur. Bilmək olmaz ki, İranın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Nasir Kənaninin söylədikləri birbaşa Ə.Uraloğlunun dediklərinə cavabdır, ya yox, amma hər bir halda, birincinin dilə gətirdikləri bu baxımdan qiymətləndirilməkdədir. Yəni, cavab təsiri bağışlamaqdadır.**

Beləliklə, N.Kənani vurğulayıb ki, İranın Cənubi Qafqazdakı vəziyyət və tranzit dəhlizləri ilə bağlı dəqiq mövqeyi var: "Biz region ölkələrində sülh, sabitlik və təhlükəsizliyin bərqərar olması üçün böyük səylər göstəririk. Biz vurğulayırıq ki, tranzit əməkdaşlığının inkişafı geosiyasi dəyişikliklərə və ölkələrin ərazi bütövlüyünün və milli suverenliyinin pozulmasına əsas ola bilməz".

Aydındır ki, İran XİN-in sözçüsü Ermənistanın ərazi bütövlüyünün və suverenliyinin qorunmasının vacibliyindən danışır. Görəsən, nə üçün regiondakı tranzit əlaqələrinin inkişafı, o cümlədən Zəngəzur dəhlizi ilə bağlı söz düşəndə məsələ məhz Ermənistanın ərazi bütövlüyünün pozulması kontekstində dəyərləndirilir? Əlbəttə, biz Tehran üçün İrəvanın strateji əhəmiyyətini anlayırıq. Onu da bilirik ki, Ermənistan bu məsələni əlində son dərəcə vacib kart kimi saxlamaqdadır.

Ancaq indi fərqli mənzərə var. Təsəvvür edin ki, Tehran geosiyasi dəyişikliklərin baş verməsindən ehtiyatlanır. Ancaq ehtiyatlılıq naminə söykəndiyi Ermənistan onun iradəsindən kənar hərəkət nümayiş etdirir ki, bunun özü də regionda geosiyasi dəyişiklik riskini artırır. Fikrimizin təsdiqi üçün erməni iqtidarının Qərblə yaxınlıq xəttini misal çəkə bilərik. Tam aydındır ki, bu xətt Rusiyanın Cənubi Qafqazdan sıxışdırılmasını hədəf seçib. Amma hesab edək ki, Qərb istəyinə nail oldu. O zaman kimsə təminat verə bilərmi ki, növbə İrana çatmayacaq?

İkinci bir məqama diqqət yetirək. Bəli, Türkiyə Zəngəzur dəhlizinin reallaşmasında maraqlıdır. Ölkə məsələni Türk dünyasının birləşməsi anlamında görür. Əlbəttə, mənəvi tərəfləri ilə yanaşı, məsələnin iqtisadi anlamı da var. Layihə reallaşacağı təqdirdə Türkiyənin tranzit əhəmiyyəti daha da güclənəcək. Ancaq onu da nəzərə alaq ki, bu təşəbbüs prinsip etibarilə Azərbaycana məxsusdur.

*(ardı 3-cü səhifədə)*



# Kiçik ölkənin böyük diplomatiya örnəyi

**İkinci Dünya müharibəsi başa çatandan sonra xəritələrin yenidən cızılması məsələsi ortaya çıxmış və bu zaman mütərəqqi düşüncəli siyasətçilər öncə diplomatik gedişlərə üstünlük verilməsini təqdir etmişdilər. Təbii ki, bu, bəşəri dəyərlərin qorunması baxımından müsbət qiymətləndirilirdi. Ancaq həmin faktdan yüz illər əvvəl yazılmış türk tarixinin möhtəşəm kitabı olan "Oğuznamə"də belə bir deyim var idi: " Dilinlə ( sözlə) görə biləcəyin işi qolunla ( qılıncla) görmə".**

Biz məmnunuq ki, Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra, daha dəqiq desək, 1993-cü ilin yayından etibarən dövlətimiz bütün məsələlərin həllində öncə diplomatiyaya üstünlük vermişdir. Bu düşüncə tərzi həm ulu öndər Heydər Əliyevin dövlət müstəqilliyimizin əbədiləşdirilməsi başda olmaqla çoxsaylı uğurlara imza atmasına, həm də Prezident İlham Əliyevin ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpasına nail olmasına zəmin yaratmışdır. Dövlət başçımız dəfələrlə xatırlatmışdır ki, bizim nailiyyətlərimiz məhz düşünülmüş, tarixin çoxsaylı nümunələrindən dərs alaraq ərsəyə gətirilmiş diplomatiyanın nəticəsidir.

Bir sözlə, 2024-cü ilin ilk iş günlərində mətbuatdan oxuduq ki, otuz illik işğal dövründə İrəvanı tək buraxmaq istəməyən siyasi dairələr indi…geriçəkilmə fazasına keçiblər. Ermənistan Azərbaycanla təkbaşına qaldı. Maraqlıdır, nə üçün? Çünki Azərbaycan Prezidentinin siyasi diplomatik gedişləri Ermənistana himayədarlıq edənlərin bütün addımlarını bloklayır. Nə ABŞ, nə bəzi Avropa ölkələri, nə də Ermənistanın digər havadarları Azərbaycanı öz yolundan döndərmək üçün variant tapa bilmirlər. Hamı görür ki, rəsmi Bakının bütün addımları beynəlxalq hüquq prinsiplərinə tam cavab verir.

*(ardı 3-cü səhifədə)*

# Azərbaycanın beynəlxalq enerji əməkdaşlığında önəmli platforma




Səhifə ⇨ 7

# "Traktorlu etirazçılar "işıqfor" hökumətə qarşı

Səhifə ⇨ 11

# Gənc dirijorların sənət imtahanı

Səhifə ⇨ 10

# Hayların "millətçilik epidemiya"sı




Səhifə ⇨ 9

# Prezidentlərin geniş tərkibdə görüşü







**Yanvarın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə geniş tərkibdə görüşü olub.**

Görüşdə Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin qardaşı, Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş nazirin müavini, Prezident Divanının rəhbəri Şeyx Mansur bin Zayed Əl Nəhyan, Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin qardaşı, xarici işlər naziri Şeyx Abdulla bin Zayed Əl Nəhyan, Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin oğlu Şeyx Həmdan bin Məhəmməd Əl Nəhyan iştirak ediblər.

**Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:**

– Hörmətli cənab Prezident, Əziz Qardaşım.

Hörmətli qonaqlar.

Azərbaycana xoş gəlmisiniz.

Sizin Azərbaycana səfər etməyiniz tarixi hadisədir. Bu, Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. Əminəm ki, bu səfər iki ölkə arasındakı dostluq, qardaşlıq münasibətlərinin inkişafına böyük töhfə verəcək.

Biz Sizinlə dünən rəsmi ziyafət zamanı bir çox məsələləri ətraflı müzakirə etdik və bizim strateji tərəfdaşlığımızı bir daha təsdiqlədik.

Şadam ki, bizim şəxsi görüşlərimiz müntəzəm xarakter alır. Keçən ay biz Sizinlə Əbu-Dabidə görüşmüşdük.

Fürsətdən istifadə edərək, COP28 Konfransının uğurla keçirilməsi münasibətilə Sizi bir daha təbrik edirəm. COP29-un Azərbaycanda keçirilməsi ilə əlaqədar verdiyiniz dəstəyə görə bir daha minnətdarlığımı bildirirəm. Fürsətdən istifadə edərək, BMT Təhlükəsizlik Şurasındakı mövqeyinizə görə, Azərbaycana verdiyiniz dəstəyə görə Sizə bir daha xüsusi minnətdarlığımı bildirmək istəyirəm.

Bu gün bir çox önəmli sənədlər imzalanmışdır, bir azdan sonra sənədlərin mübadiləsi mərasimi keçiriləcək. Əminəm ki, bu sənədlər gələcək əməkdaşlığımız üçün çox güclü zəmin yaradacaq.

Əməkdaşlığımız çoxşaxəlidir, bir çox sahələri əhatə edir və yaxın keçmişdə enerji sahəsində, xüsusilə yaşıl enerji sahəsində çox önəmli addımlar atılmışdır. Keçən ilin oktyabr ayında Azərbaycanda 230 meqavat gücündə günəş elektrik stansiyasının açılışı olmuşdur. Bu stansiyanın yaradılması ölkənizin investisiyaları hesabına mümkün olmuşdur. Bu, sadəcə olaraq, birinci addımdır. İmzalanmış kontraktlar və anlaşma memorandumları əsasında Sizin ölkənizin sərmayələri hesabına Azərbaycanda 10 qiqavat yaşıl enerji istehsalı nəzərdə tutulur.

Keçən ay Bakıda daha iki önəmli sənəd imzalanmışdır. Onlardan biri - Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında imzalanmış sənəd əsasında bir milyard dollarlıq maliyyə imkanı olan Birgə İnvestisiya Fondu yaradıldı. İkinci önəmli sənəd informasiya-kommunikasiya sektoruna aiddir.

Biz bunu çox yüksək qiymətləndiririk, çünki Sizin ölkəniz Sizin rəhbərliyinizlə çox böyük uğurlara imza atıb, dünyanın ən inkişaf etmiş, ən uğurlu ölkələrindən birinə çevrilib. Bilirəm ki, bir çox ölkələr üçün Sizin uğurlu təcrübəniz bir nümunədir.

Əminəm ki, Sizin səfəriniz bizim strateji tərəfdaşlığımızı möhkəmləndirəcək, xalqlarımız arasındakı dostluq, qardaşlıq münasibətlərini daha da gücləndirəcək. Bir daha xoş gəlmisiniz.

*

**Prezident Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan çıxış edərək dedi:**

– Cənab Prezident, Azərbaycana səfər etməkdən çox böyük məmnunluq duyuram, qonaqpərvərliyə və səmimi qəbula görə Sizə minnətdarlığımı bildirirəm. Xüsusən də dünən rəsmi ziyafət zamanı bizim apardığımız danışıqlar və iki ölkə arasında əlaqələrin perspektivinə dair əldə etdiyimiz razılaşmalar sevindiricidir. Cənab Prezident, Sizin dövlətinizə, Sizin xalqınıza uğurlu il arzu edirəm.

Biz iki ölkə arasında bu gün imzalanmış Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumunu qeyd etmək istəyirik. Bu Anlaşma Memorandumu ilə ölkələrimiz arasındakı əlaqələr strateji əhəmiyyət kəsb edir. Ticarət, iqtisadiyyat, sənaye, kənd təsərrüfatı, mədəniyyət və təhsil sahələrində də əlaqələrimizin və əməkdaşlığımızın inkişafı istiqamətində səylərimizi səfərbər edəcəyik.

İki ölkə arasında münasibətlər yüksələn xətt üzrə inkişaf edir və biz müxtəlif sahələrdə daimi tərəqqi və uğurun şahidi oluruq. Biz də Birləşmiş Ərəb Əmirliklərində iki ölkə arasında ölkələrimizin və xalqlarımızın rifahı naminə müxtəlif sahələrdə əməkdaşlığın inkişafına hazırıq.

Qeyd etdiyiniz kimi, münasibətlərimizin inkişafı öz başlanğıcındadır. Biz də öz növbəmizdə ölkələrimiz arasında münasibətlərin daha da gücləndirilməsi və yeni körpülərin yaradılması istiqamətində səylərimizi səfərbər edirik.

Cənab Prezident, bu il Azərbaycanın COP29 tədbirinin keçirilməsi ilə bağlı seçilməsi münasibətilə Sizə bir daha təbriklərimi çatdırmaq istəyirəm. Bu da öz növbəsində bütün dünyanın Azərbaycana etimadının bir təzahürüdür və bu münasibətlə Sizə uğurlar arzulayıram. Keçən dəfə Dubayda görüşdüyümüz zaman qeyd etdiyimiz kimi, əlbəttə, Azərbaycan bu kimi mötəbər tədbirlərin keçirilməsinə qadirdir və hazırdır.

Cənab Prezident, qonaqpərvərliyə, səmimi qəbula və xüsusən də dünən iki saatdan artıq keçirdiyimiz gözəl vaxta görə, - həqiqətən bu iki saat ərzində mən bizim görüşümüzdən çox həzz aldım, - Sizə bir daha minnətdarlığımı bildirmək istəyirəm.

Cənab Prezident, dünən də qeyd etdiyim kimi, Birləşmiş Ərəb Əmirliklərinin bütün təcrübəsi hesab edin ki, Sizin əlinizdədir. Hər bir sahədə biz öz təcrübəmizi Sizinlə bölüşməyə, xüsusən də COP29-un keçirilməsində öz təcrübəmizi Sizinlə paylaşmağa hazırıq.

Bildiyiniz kimi, Birləşmiş Ərəb Əmirliklərinin bir çox sahədə böyük təcrübəsi var. Biz də sizin kimi qardaş ölkələrlə bu təcrübəni paylaşmağa, bölüşməyə hər zaman hazırıq. Amma bəzi məqamlar, bəzi sahələr var ki, o sahələrdə biz də öyrənirik. Çox sağ olun, cənab Prezident.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm.

Sonra səfər çərçivəsində imzalanmış sənədlərin mübadiləsi mərasimi olub.

Qeyd edək ki, səfər çərçivəsində "Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin İqlim Dəyişmələri və Ətraf Mühit Nazirliyi arasında Niyyət Protokolu", "ADA Universiteti ilə Anvar Qarqaş Diplomatik Akademiyası arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Energetika Nazirliyi və Birləşmiş Ərəb Əmirliklərinin İnvestisiya Nazirliyi arasında elektrik enerjisinin ötürülməsi layihələri üzrə İnvestisiya Əməkdaşlığına dair Anlaşma Memorandumu", "Azərbaycanın bərpa olunan və təmiz enerji potensialından istifadənin daha da gücləndirilməsi və Yaşıl Enerjinin İxracı Əməliyyatlarına imkan verən Strateji Əməkdaşlıq üzrə Çərçivə Müqaviləsi", "Azərbaycanda quruda quraşdırılacaq 1 GVt gücündə günəş və külək layihələrinin inşası üçün Tədbirlər Təqvimi", "ADNOC və SOCAR şirkətləri arasında Strateji Əməkdaşlıq Sazişi" imzalanıb.

Daha sonra danışıqlar təkbətək görüş əsnasında davam etdirilib.

# "İlham Əliyev. İnkişaf – məqsədimizdir" – 130-cu kitab

**Çoxcildliyin yeni kitabında toplanmış materiallar 2023-cü ilin iyul-sentyabr aylarını əhatə edir. Kitabda Azərbaycan Prezidenti İlham Əliyevin Macarıstana və Tacikistana səfərlərinə, həmçinin ölkəmizə səfər etmiş Özbəkistan və Türkiyə prezidentləri ilə görüşlərinə dair materiallar toplanıb. Xatırladaq ki, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin 2023-cü ilin avqustunda Azərbaycana dövlət səfəri zamanı iki ölkənin liderləri, həmçinin Füzulidə Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılışında iştirak ediblər, Füzuli şəhərində MİDA yaşayış kompleksində yeni evlərə köçürülmüş sakinlərlə görüşüblər, şəhərin baş planı ilə tanış olublar, habelə Şuşa şəhərinə səfər ediblər. Bütün bunlar haqqında informasiyalarla 130-cu kitabda tanış olmaq mümkündür.**




2023-cü il sentyabrın 25-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi səfəri isə İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması mərasimi ilə əlamətdar olub. Kitaba Azərbaycan və Türkiyə prezidentlərinin bu mərasimdə iştirakına, habelə təkbətək görüşünə, sənədlərin imzalanmasına, qardaş ölkələrin liderlərinin mətbuata bəyanatlarla çıxışlarına, Naxçıvan Bərpa-İstehsalat Hərbi Kompleksinin açılış mərasimində iştirakına dair informasiyalar da daxil edilib.

Ötən ilin sentyabr ayının ən mühüm hadisəsi isə Qarabağda keçirilmiş lokal xarakterli antiterror tədbirləri olub. Antiterror tədbirləri nəticəsində Azərbaycan öz suverenliyini bərpa edib. Prezident İlham Əliyev bu tədbirlərin nəticələri ilə bağlı Azərbaycan xalqına müraciət edib.

Sitat: – Mən ümid etmək istəyirəm ki, bizim atdığımız addımlar və antiterror tədbirlərinin nəticələri imkan verəcək ki, nəhayət sülh danışıqları üçün olan, Ermənistan tərəfindən qoyulan, verilən, təklif olunan, necə adlandırırsınız-adlandırın, maneə aradan qalxa bilər. Bu, Cənubi Qafqazda yeni reallıq yaradacaq, uzunmüddətli sülh yaradacaq. Biz əmin olmalıyıq ki, qarşı tərəf revanşist fikirlərlə yaşamır və onlar da əmin olmalıdırlar ki, bizim onların torpağında gözümüz yoxdur. Biz onların ərazi bütövlüyünü tanıyırıq və bunu bəyan etmişik, bütün ölkələrin ərazi bütövlüyünü tanıyırıq. Biz, sadəcə olaraq, həm onlardan, həm onların arxasında duran və onlar üçün dar məqamda onların yanında olmayan, uzaqda, Avropada yerləşən "erməni cəfakeşlərindən" tələb edirdik - nə qədər uzaq dursalar bizim bölgəmizdən, o qədər də bölgə rahat nəfəs alacaq və biz bunu təklif edirik. Biz təklif edirik ki, Cənubi Qafqaz ölkələrinin gələcəyi sülhə, əmin-amanlığa, inkişafa söykənsin. Biz təklif edirik ki, bölgəmizdən uzaqda yerləşən, ancaq öz siyasi gündəliyini güdən və erməni xalqından bir alət kimi istifadə edən, onları istismar edən və dar gündə onları, necə deyərlər, satan qüvvələr, saxtakarlar, korrupsiyalaşmış siyasətçilər əl çəksinlər bizdən. Dünyanın o başında oturub bizə qarşı əsassız ittihamlar irəli sürənlər əl çəksinlər bizdən, qoysunlar Cənubi Qafqaz rahat nəfəs alsın.

Azərbaycan Prezidentinin bu müraciətinin tam mətni 130-cu kitaba daxil edilib.

Yeni nəşrdə dövlətimizin başçısının Çinin "China Media Group" media korporasiyasına, Şuşada "Euronews" televiziyasına müsahibələrinin mətnləri də verilib.

Dövlətimizin başçısı avqust ayında, həmçinin Qazax, Şəmkir, Samux, Bərdə, Kəlbəcər və Laçında səfərdə olub, "Laçın Şəhəri Günü" bayram şənliklərində iştirak edib. Oxucu bu kitabda həmin səfərlərin materialları ilə də tanış ola bilər.

"Azərnəşr" tərəfindən buraxılan 130-cu kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Səfər başa çatdı

**Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın Azərbaycan Respublikasına rəsmi səfəri yanvarın 9-da başa çatıb.**



Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanı hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev və digər rəsmi şəxslər yola saldılar.

***AZƏRTAC***

# Polisdə xidmətə qəbula sıra baxışı



**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov yanvarın 9-da respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**

Bu barədə Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən bildirilib.

Sıra baxışında nazirliyə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 177 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 21 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

***XQ***

# Kiçik ölkənin böyük diplomatiya örnəyi

(əvvəli 1-ci səhifədə)

Biz son zamanlar "Azərbaycan etibarlı tərəfdaşdır" (İtaliya), "Bakının sınaqlardan çıxmış dostluğunu alqışlayırıq" (Çin) "İlham Əliyev Cənubi Qafqaza sülh gətirilməsi üçün yorulmadan çalışır" (Gürcüstan), "Moskva Azərbaycanın müstəqilliyə sədaqətini həmişə etiraf etmişdir" ( usiya), "Biz Avropanın enerji təhlükəsizliyinin təminatında fəal iştirak edən Azərbaycanla bundan sonra da əməkdaşlığı davam etdirəcəyik" (ABŞ)… kimi bəyanatları tez-tez eşidirik.

Ancaq mən siyasətçi və dövlət xadimlərinin bu qənaətləri ilə yanaşı, xaricdəki sadə insanların Prezidentimiz və dövlətimiz haqqında səsləndirdikləri fikirləri də təqdir edirəm. Onlardan ikisini yada salmaq istəyirəm. Məsələn, ötən ilin son günlərində – dekabrın 30-da Azərbaycan Prezidentinə göndərilən bir məktubda oxudum: "Keçən il ərzində baş verən bir çox əhəmiyyətli hadisələrlə bağlı Sizi təbrik etmək istərdim. Ötən il Siz regionda sülhün bərqərar olması və bölgədəki bütün xalqların təhlükəsiz yaşaması və öz dövlətlərinin uzunmüddətli sabit inkişafına diqqət yetirmələri üçün çox iş görmüsünüz. Bu prosesə rəhbərlik etdiyiniz üçün Sizə səmimi ehtiramımı bildirmək istəyirəm.

Oleq Budanov, Moskva, Rusiya".

İkinci qiymətləndirməni isə ötən ilin noyabrında, Belarusda olarkən ali məktəb müəllimi Konstantin İvaçkodan eşitdim: "Siz inciməyin, Azərbaycan kiçik ölkədir. Amma fəxr edin ki, bu kişik ölkə müstəqillik illərində böyük diplomatiya nümunəsi yaradıb. Elə ona görə də dostlarınız çoxdur".

Bəli, danılmaz faktdır ki, Azərbaycanın son bir neçə ildə qazandığı möhtəşəm uğurların təməlində müdrik siyasət və mükəmməl diplomatiya dayanır. Elə Cənubi Qafqazdakı sülh prosesinin davamı baxımından, yeganə variant kimi Azərbaycan və Ermənistan arasında birbaşa – ikitərəfli təmaslara zərurət yaranması da diplomatiyamızın kəsərinin göstəricisidir.



Dövlət başçımızın da qeyd etdiyi kimi, Azərbaycan regionun yeganə ölkəsidir ki, düşünülmüş və milli maraqlara söykənən xarici siyasəti ilə regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır. Hazırda Azərbaycan dövlətinin həyata keçirdiyi enerji layihələri, regional inteqrasiyaya xidmət edən əməkdaşlıq formatları Cənubi Qafqazda sabitliyin təmin edilməsində mühüm rol oynayır. Bununla yanaşı, Azərbaycan dünyada sülhyaratma prosesində fəal iştirak edir, səmərəli təklif və təşəbbüslərlə çıxış edir, öz praktik fəaliyyəti ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə dəyərli töhfələr verir.

Təbii ki, geridə qalan illər ərzində beynəlxalq təşkilatlar tərəfindən Azərbaycanın haqlı mövqeyini dəstəkləyən sənədlərin qəbul edilməsi dövlət başçısı İlham Əliyevin yürütdüyü ölkəmizin milli maraqlarına söykənən xarici siyasətinin nəticəsi idi. Ekspertlərin fikrincə, Prezident İlham Əliyevin prinsipial mövqeyi və diplomatik fəaliyyəti sayəsində Azərbaycanın İkinci Qarabağ müharibəsində beynəlxalq təşkilatların sənədləri əsas hüquqi baza kimi tarixi Qələbəni şərtləndirən amillərdən biri oldu.

Bu zaman daha bir faktı, həm də xüsusilə vurğulamaq zərurəti var. Belə ki, Azərbaycan Vətən müharibəsinin 44 günü ərzində beynəlxalq hüquq prinsiplərini, xüsusilə BMT Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutmuş, öz ərazilərini azad etmək hüququndan yararlanaraq uğurlu və genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirmişdir. Nəticədə ordumuz oktyabrın 4-də Cəbrayıl şəhərinin, 17-də Füzuli şəhərinin, 20-də Zəngilan şəhərinin, 25-də Qubadlı şəhərinin işğalçılardan azad olunması ilə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan 874 və 884 saylı qətnaməni özü icra etmişdir. Bu isə bizim beynəlxalq hüquqa və beynəlxalq təşkilatların qərar və qətnamələrinə göstərdiyimiz ehtiram kimi qiymətləndirilməlidir.

Xatırlatmaq istədiyimiz başqa bir məqam isə ondan ibarətdir ki, Prezident İlham Əliyev dövlətimizin siyasətini və diplomatiyamızın məqsədlərini daim dünya ictimaiyyətinə çatdırır. O, dəfələrlə təkrar edib ki, bizim siyasətimiz hamı üçün açıqdır və kimdənsə heç nəyi gizlətmirik. Dünya ictimaiyyəti cənab Prezidentin həmin qənaətinin təsdiqini 44 günlük İkinci Qarabağ müharibəsinin gedişində də gördü. Dövlət başçımız Vətən müharibəsi ərəfəsində və gedişində 30-dan çox xarici KİV təmsilçilərinin, xüsusilə "Əl-Cəzirə", "Əl-Ərəbiyə" "TRT Haber", "Pervı Kanal", "CNN Türk", "Euronews", "CNN International", "Sky News", "RBK", "Haber Global", "Haber Türk", "NTV", "France 24", televiziya kanallarına, Rusiyanın TASS, Ria Novosti agentliyinə verdiyi müsahibələrdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, cəbhə zonasında son hərbi əməliyyatlarla bağlı arqumentlər üzərində qurulan aydın, məntiqli fikirləri, bütün suallara konkret faktlarla cavabları Azərbaycanın haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna əhəmiyyət kəsb edirdi.

Bəli, dünya xəritəsinə baxanda Azərbaycan kiçik ölkədir. Ancaq müasir dünya siyasətinə nəzər salanda hamı etiraf edir ki, Azərbaycan həqiqətən mükəmməl diplomatiya nümunəsi yaratmışdır.

***İttifaq MİRZƏBƏYLİ***

# Tehran İrəvan üçün illüziya yaradır

(əvvəli 1-ci səhifədə)

Ölkəmiz, ilk növbədə, digər ərazilərimizin Naxçıvanla quru yoluna sahibliyini düşünür. Əlbəttə, Zəngəzur dəhlizi Orta dəhliz ideyasının tərkib hissəsi kimi də Bakı üçün cəlbedicidir. Yəni ki, hazırda İran Zəngəzur dəhlizi məsələsində qəti görünür.

Ermənistan isə bu qətiyyəti Azərbaycana qarşı siyasi alətə çevirir. Beləliklə, müqavimət qazanır. Müqavimətdən isə Qərbi bölgəyə daxil etmək naminə bəhrələnir. Bu, Tehran üçün sərfəlidirmi? Əlbəttə, yox!

Başqa bir məqamın üzərində dayanaq. Məsələ burasındadır ki, Zəngəzur dəhlizi ideyasını gündəmə gətirən Azərbaycan bu layihəni həm də Ermənistanın müharibə məğlubu kimi üzərinə götürdüyü öhdəliyini yerinə yetirməsinin vacibliyi ilə əsaslandırmaqdadır. Söhbət Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatından gedir. Daha konkret desək, bəyanatın 9-cu bəndinə riayət edilməməsindən. İran yazılmışları pozmağamı girişir? Düşünmürük. Hələ Qərblə yaxınlığı bir yana, İrana Rusiya və Türkiyə ilə dirənən, Azərbaycana qarşı barışmaz mövqe tutan Ermənistan lazımdır? Hər halda, hazırda Tehranın regiondakı maraq və mənafelərinin nəzərə alınması baxımından daha etibarlı platforma təklif edilib. Məsələn, "3+3" platforması. O platforma ki, Ermənistan orada, belə demək mümkünsə, candərdi iştirak edir. O platforma ki, regiona aidiyyatı olmayan aktorların bölgədəki təmsilçiliyinə qarşıdır. Axı, bu cür qoyuluş Tehranı məmnun edir. Yenə də sual olunur: Ermənistanın ərazi bütövlüyü və suverenliyi Tehrana nə üçün lazımdır?

Maraqlıdır, hazırda İran və Qərbin Tehrana qarşı olan qüvvələrinin Ermənistanla bağlı eyni mövqedə dayandığına dair təəssürat var. Hər iki qütb Ermənistanın ərazi bütövlüyü və suverenliyinin toxunulmazlığından söz açır. Sanki, Azərbaycan, Türkiyə və Rusiya təcavüz gerçəkləşdirmək istəyir, onu müdafiə edən Qərbdir, Qərbin jandarmeriyası isə İrandır. Hərçənd, Tehranı bu ampluada təsəvvürə gətirmək çox çətindir. Həm də ona görə çətindir ki, İslam respublikasının prinsipial baxışı var: Region region ölkələri üçündür. Ermənistan bu prinsipə sadiqdirmi? Yuxarıda da ərz etdik ki, İrəvanın sadiq qaldığı məsələlələr tamam başqadır.

Ermənistan öz sadiqliyini göstərmək üçün Qərbin bəzi dairələri tərəfindən ortaya atılmış Ermənistana təcavüz kartından geninə-boluna faydalanır. Zamanı ötürür, daxilini rüspərərəstlərdən təmizləməyə çalışır. Əlbəttə ki, güc də toplayır. Gücü ona görə toplamır ki, özünü xarici təcavüzdən qorusun. O səbəbdən yığır ki, Azərbaycana qarşı avantürist planlarını reallaşdırsın. Bəs bu planlar İranın da marağında olduğu sabitlik üçün təhlükə deyilmi? Məgər Tehranın diplomatik dairələri durumu görmürlər?

*

Görəsən, İranda düşünürlərmi ki, Azərbaycan Zəngəzur dəhlizi ideyasının Ermənistan tərəfindən boykot edilməsindən sonra Naxçıvana asan yolu İran ərazisindən keçirmək niyyətindədir? Buna qarşı ABŞ-dan gələn reaksiyalar Tehran rəsmilərini narahat etmirmi? Məsələyə qayıdacağıq. Hələlik isə onu bildirək ki, Prezident İlham Əliyev hələ 2022-ci ilin əvvəlində İranın şəhərsalma və yollar naziri Rüstəm Qasımini qəbul edərkən, regionda nəqliyyat layihələrinin həyata keçirilməsi məsələsi müzakirə olunmuş və əsasən İran ərazisindən keçməklə, Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiyaların əhəmiyyəti qeyd edilmişdi. Tərəflər onu da bildirmişdilər ki, yeni dəhliz elektrikötürücü xətti də daxil olmaqla, mühüm beynəlxalq nəqliyyat kommunikasiyasına çevriləcək, Şimal-Cənub böyük nəqliyyat dəhlizinin halqalarından biri olacaq. Bundan başqa "Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə 5 aprel 2022-ci il tarixli fərman da olmuşdu. 2023-cü ilin yarıdan çoxu İran və Azərbaycan arasında gərginliklə müşayiət olunsa da, ilin sonlarına doğru münasibətlərdə yumşalma qeydə alınmışdı.Nəhayət, sonda yenidən Naxçıvana gedən yolun İrandan keçməsi məsələsi üzərində dayanılmışdı. Bunu ilk dəfə Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri




şöbəsinin müdiri Hikmət Hacıyev ötən ilin oktyabrında dilə gətirmişdi.

Daha sonra Prezident İlham Əliyev ötən il dekabrın 6-da ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumundakı çıxışında məsələyə tam aydınlıq gətirmişdi. Dövlətimizin başçısı ölkəmizin mövqeyini, kifayət qədər, geniş tərzdə ifadə edərək, Naxçıvana yolun Azərbaycan üçün əhəmiyyətinə ətraflı aydınlıq gətirmişdi. Onun üzərində dayandığı xüsus bundan ibarət idi ki, respublikamız Ermənistanın ərazi bütövlüyü və suverenliyinə hörmətlə yanaşır. Amma Naxçıvana yol "Azərbaycandan Azərbaycana yol" məntiqinə əsaslanmalıdır: "Bizim onların suverenliyi ilə bağlı hər hansı şərtlərimiz yoxdur, lakin Azərbaycanın əsas ərazisindən Naxçıvana asan çıxış olmalıdır. Baş nazir Paşinyana artıq söylədiyim kimi, bu, Azərbaycandan Azərbaycana gediş olacaq və ona görə hər hansı gömrük rüsumları, yoxlamalar, sərhəd yoxlanışı olmalı deyil, çünki gediş əsas ərazidən Naxçıvana həyata keçirilir".

İran rəsmilərinin, o cümlədən ölkəni XİN rəsmisi N.Kənaninin diqqətinə o da çatdırılmalıdır ki, hazırda Tehranın bəyənmədiyi ABŞ cəbhəsində Ermənistanın ərazi bütövlüyünün və suverenliyinin toxunulmazlığı barədə söz açılarkən, bununla paralel şəkildə Naxçıvana yolun İran İslam Respublikasından keçməsinə qarşı da demarş halı yaşanmaqdadır. Yəni, prinsip etibarilə Zəngəzur dəhlizi məntiqinə qarşı çıxan Birləşmiş Ştatlar Tehrana əks münasibət ortaya qoymaqdadır və Azərbaycan Prezidenti haqqında söz açdığımız forumda bu məsələyə də açıq və sərt tərzdə toxunmuşdu: "Əslində, sizə deyə bilərəm ki, Brüsseldə Aİ Prezidenti Mişel tərəfindən təşkil olunmuş görüşdə müzakirə etdiyimiz məsələlərdən biri Rusiya-Kalininqrad dəmir yolu xətti kimi təcrübənin istifadəsi idi. Bir sözlə, hər şey mümkündür, sadəcə, Ermənistan istəmir. Onlar bizi bu qütbdən məhrum etmək istədilər və indi isə başa düşdülər ki, bu, bizə heç lazım deyil! Onda onlar şikayətlənməyə başladılar və hətta biz ABŞ Dövlət Departamentinin rəsmilərindən çox müəmmalı məlum bəyanatı eşitdik ki, Birləşmiş Ştatlar əgər yol Ermənistandan keçməsə, buna imkan verməyəcəklər?! Onda mən nə deyə bilərəm? Sadəcə deyə bilərəm ki, bu nədir? Biz bunu üç ildir ki, Ermənistan vasitəsilə etmək istəyirdik. Əgər siz istəyirsiniz ki, yol Ermənistandan keçsin və onda öz yeni erməni dostlarınıza bunu söyləyin! Axı siz bizim İranla münasibətlərimizə necə müdaxilə edə bilərsiniz? Deyirsiniz ki, siz yolun çəkilməsinə imkan verməyəcəksiniz. Nə edəcəksiniz? Bombardman edəcəksiniz, nə edəcəksiniz?! Əslində, bu cür məsuliyyətsiz bəyanatlar onları söyləyənlərə heç bir fayda gətirmir və əlbəttə ki, regionda sabitliyi və proqnozlaşdırmanı, o cümlədən bağlantı layihələrini ciddi şəkildə sual altına qoyur".

Göründüyü kimi, Prezident İlham Əliyev vəziyyəti tam təfsilatı ilə izah edib. Bütün bunlardan sonra N.Kənaninin açıqlamasına bənzər açıqlamalar Ermənistan üçün illüziya yaradır. Hər halda, İran rəsmilərinin bunu nəzərə almaları şərtdir. Nə edək, ümid bəsləyək ki, belə də olacaq.

***Ə.CAHANGİROĞLU***
***XQ***

Replika

# Yelisey sarayının naqis imicli yeni baş naziri

## *Yaxud 34 yaşlı Qabriel Attalın siyasi olimpə sürətli yüksəlişi*

**Son üç ildə xarici siyasətdə tam uğursuzluq zolağına düşən, ölkə daxilində bitib-tükənməyən sosial kataklizmlərlə üzləşən Fransa hakimiyyətində kiminsə "günah keçisinə" çevriləcəyi labüd idi. Amma reallıq ondan ibarətdir ki, baş nazir Elizabet Bornun istefası ilə hakimiyyət böhranının aradan qalxacağını söyləmək sadəlövhlük olardı. Parisin siyasi isteblişmentində "yarpaq tökümü" mövsümünə start veriləcəyinin anonsu hələ bir il əvvəl verilmişdi.**



"Xanım Elizabet Born bu gün hökumət başçısı postundan istefa verməsi barədə ərizəni Fransa prezidentinə təqdim edib və o, bunu qəbul edib". Dünən Yelisey sarayının saytında yerləşdirilən rəsmi məlumatda belə qeyd olunub. Bəli, xanım baş nazirin istefasını qəbul edən dövlət başçısı ona səmərəli fəaliyyətinə görə təşəkkürünü bildirməyi də unutmayıb.

Prezident Emmanuel Makron Elizabet Bornun baş nazir postundan istefa verməsindən sonra onun varisini yaxın günlərdə elan etməyi planlaşdırır. Yeni hökumətin başçısı qismində hazırkı təhsil və gənclər naziri Qabriel Attalın adı daha çox hallandırılırdı. Bunun siyasi amildən daha çox subyektiv səbəblərə bağlı olduğunu iddia edən politoloqlar az deyil.

### Təyinat "şəxsi keyfiyyətlərə" görədir

Fransanın yeni baş nazirinin kim olacağı barədə AFP agentliyi öz versiyasını irəli sürmüşdü. Nüfuzlu agentliyin açıqlamasında deyilirdi ki, əslində, xanım baş nazir Emmanuel Makron ikinci müddət prezidentliyinin son üç ilinə yeni ideya və təşəbbüslərlə təkan vermək üçün Nazirlər Kabinetində dəyişiklik etməyə hazırlaşdığı məqamda istefa verib. Emmanuel Makronun "pərdəarxası siyasi manevrlərinin" nəticəsi olaraq 34 yaşlı təhsil və gənclər naziri Qabriel Attal xanım Bornun yerinə əsas favorit olaraq ortaya atılmışdı. Düzdür, ondan başqa baş nazir postunu tutmağa ehtimal olunan namizədlər arasında 37 yaşlı müdafiə naziri Sebastyen Lekornü və 43 yaşlı keçmiş kənd təsərrüfatı naziri Jülyen Denormandinin də adları hallanırdı.

Hesab edirik ki, Sebastyan Lekornünün personası üzərində bir qədər dayanmağa ehtiyac var. İrəvana rəsmi səfər etmiş, Ermənistan müdafiə naziri Suren Papikyanla hərbi-texniki əməkdaşlığa dair "bacılar müqaviləsini" imzalamış məhz Lekornü Ermənistana müasir silahların, xüsusən də hava hücumundan müdafiə sistemlərinin verilməsinə dair sazişi rəsmiləşdirib. Rəsmi Parisin bir çox siyasiləri kimi, haylara xüsusi rəğbəti ilə seçilən Lekornü bu "şakərinə" görə heç də Attaldan geri qalmır. "Gənc və perspektivli" yeni baş nazir Qabriel Attal barədə ayrıca söz açmağımız gərəkir.

**EKSKLÜZİV DOSYE:** Yeniyetməlik illərində məşhur müğənni Coys Conatanla "məhrəm münasibətlərdə" olduğu deyilən Qabriel Attar nazir kürsüsündə əyləşmə ərəfəsində isə Avroparlamentin deputatı Stefan Sejurne ilə rəsmi nikahda olması ilə gündəmə gəlmişdi. İctimaiyyət Attarın qeyri-ənənəvi cinsi orientasiyası barədə ilk dəfə 2018-ci ildə onun keçmiş sinif yoldaşı, hazırda siyasi fəal və hüquqşünas Xuan Brabkonun açıqlamasından sonra xəbər tutdu.

"France-Presse" özünün Yelisey sarayındakı mənbəyinə istinadla yazırdı ki, hazırkı gənclər və təhsil naziri Qabriel Attal baş nazirliyə ən optimal namizəddir. Hərçənd onun təyinatı Bornun istefasından dərhal sonra elan olunmasa da, AFP prezidentin yaxın ətrafına istinadla bu missiyanın məhz 34 yaşlı gənclər nazirinə həvalə ediləcəyini bildirmişdi.

Dünən günün ikinci yarısında Fransanın yeni baş nazirinin adı bəlli olub. Verilən proqnozlar özünü doğruldub. Prezident Emmanuel Makron gənclər və təhsil naziri Qabriel Attalın Fransanın Baş naziri təyin edilməsi barədə qərar imzalayıb.

### Attalın boynuna düşən "missiya"

İqtidar komandasına "yeni nəfəs" verməyə çalışan Makrondan narazı sosial təbəqələr arasında pensiyaçılar, miqrantlar, əcnəbi tələbələr, etnik ayrı-seçkiliyə məruz qalanlar və digərləri yer alırlar. Fransa tarixinə ən gənc və evli homoseksual baş nazir kimi düşəcək Qabriel Attalı bunlardan daha ciddi problemlərin həlli gözləyir. Attalın tərcümeyi-halında cinsi azlığa mənsubluğu ilə yanaşı, milli-dini mənşə etibarı ilə maraq doğuran çalarlar var. 1989-cu il martın 16-da Paris yaxınlığındakı Klamar şəhərində dünyaya gələn Attalın atası vəkil İv Attal tunisli yəhudi ailəsində tərbiyə alıb. Pravoslav xristian olan anası Mari de Kurise isə Fransaya Odessadan köçmüş ağ mühacir ailəsinin üzvü olub.

Paris Siyasi Elmlər İnstitutunun məzunu olan Qabriel Attalın siyasi olimpə yolu Sosialist Partiyasının sıralarından başlayıb. O, səkkiz il bundan əvvəl Makronun yaratdığı "Marş-Respublika" hərəkatının iştirakçısına və gələcək dövlət başçısının yaxın silahdaşına çevrilib. Üç il əvvəl isə ona yeni kabinetdə təhsil və gənclər naziri kürsüsü həvalə edilib. Yerli politoloqların proqnozlarına görə, yeni baş nazirin qarşısında duran əsas vəzifə iqtidardakı İntibah Partiyasının Avropa Parlamentinə cari ilin iyununda keçiriləcək seçkilərdə uğurunu təmin etməkdir.

Amma yeni baş nazirin boynuna yuxarıda sadaladıqlarımızdan daha önəmli missiya qoyulub. Bu missiya siyasi reputasiyası ciddi zədələnmiş, daxili və xarici arenada etibardan düşmüş Makron iqtidarının nüfuzunu özünə qaytarmaqda prezidentə yardım etməkdir. Qabriel Attalın bu "tarixi missiya"nın öhdəsindən nə dərəcədə gələ biləcəyini yaxın aylarda görəcəyik. İndidən məlum olan isə budur ki, intibahçılar özlərinin siyasi olimpdən eniş dövrünü yaşamaqdadırlar. İndiki mərhələdə aparılan kadr dəyişiklikləri bir növ can üstə olan xəstəyə "müvəqqəti ağrıkəsici" iynənin vurulmasıdır. Görünür, bunu yaxşı anlayan Makron iqtidarı üçün daha vacib məsələ inyeksiyanı maraqlı oriyentasiyalı "loğman" tərəfindən yeridilməsidir...

***İmran BƏDİRXANLI***
***XQ***

# XXI əsr “intellektual müharibələr” məngənəsində: total savaş növü

## I məqalə

**Dünyanın görünüşü müharibəni daha təhlükəli edir.**

**Klavdian**



### İntellektin inkişafı və qlobal təhlükələr: Kissincerin səhvi

Adətən, insan intellektini “bəşəriyyətin çırağı” adlandırır, tərəqqinin bütün növlərinin qaynağı hesab edirlər. Qədimdən insanın elmi fəaliyyəti, ümumiyyətlə, inkişafla əlaqələndirildiyindən əsrlərlə intellektin (şüurun, təfəkkürün) müsbət rolu aksiomatik, sübut olmadan qəbul edilmişdir. Lakin XX əsrdə iki dünya müharibəsinin olması və ondan sonra daha dağıdıcı silahların meydana gəlməsi ilə intellektə münasibət də dəyişməyə başladı.

Henri Kissincer yazmışdı ki, XXI əsrin üçüncü onilliyində süni intellektin sürətli inkişafına görə bəşəriyyət ciddi təhlükə qarşısındadır. Bunun ilkin əlamətlərindən biri kimi böyük diplomat AlphaZero neyron şəbəkəsinin şahmat üzrə ən yaxşı oyunçu olmasını göstərir (Henry A. Kissinger, Eric Schmidt, and Daniel Huttenlocher The Age of AI: And Our Human Future. Boston: Little, Brown and Company. - 272 pp. ISBN: 978-0-316-27380-0).

Həmin kitabda müəlliflər əsl təhlükənin insan intellektinin ən son nailiyyətlərinin süni intellekt timsalında hərbi sahədə istifadəsindən gəldiyi tezisini irəli sürürlər. Burada başlıca problemin süni intellektin imkanlarından müasir müharibələrdə istifadə ehtimalının yüksək olmasından qaynaqlandığını iddia edirlər. Yaranmış vəziyyətdən çıxış yolu kimi Qərb dünyasının süni intellektin dominantlıq etdiyi tarixi mərhələdə təhlükəsizliyin fəlsəfəsini yaratmasında görürlər. Onlar hələlik dünyanın həmin fəlsəfəni yarada bilmədiyini ifadə edirlər.

Lakin burada bir ziddiyyət var. Çünki süni intellekti yaradan insan intellekti bütün hallarda fəlakətlərin qaynağıdır. Əgər insan intellekti təhlükə yaradan süni intellekt (robotlar, kobotlar, kiborqlar və s.) yaratmasa, süni intellekt təhlükəli olmaz. Deməli, məsələ başayaq qoyulur. Təbii (insan) intellektin əsl niyyətlərini ört-basdır etməklə, onun yaratdığı “məhsulu” günahlandırırlar.

Bu, əslində, Qərbin intellektual təkamül tarixindən gələn psixoloji priyomdur. Qərb təfəkküründə ideya qaynağını gizli saxlamaqla öz maraqlarına uyğun gəlməyən hər bir varlığı (təbii və ya süni) günahlandırmaq vərdişi formalaşmışdır. İndi də süni intellekti inkişaf etdirir, ondan yararlanır və sonra da günahı öz yaratdıqları maşınların, avtomatların və s. üzərinə atırlar. Reallıqda isə daha qorxulu və mürəkkəb bir siyasət yeridilir. Bunu son zamanlar meydana gəlməkdə olan yeni müharibə növləri də təsdiq edir.

### Yeni müharibə növlərinin müəllifləri kimlərdir?

İndi “klassik müharibə” və ya “qeyri-klassik müharibə” terminləri hərbi nəzəriyyələrdə və doktrinalarda köhnəlmiş hesab olunur. Bunların əvəzində “intellektual müharibə”, “nüvə müharibəsi”, “kosmik müharibə”, “ulduz müharibələri”, “dron müharibələri”, “robot müharibələri”, “hibrid müharibə”, “hipermüharibə”, “informasiya müharibəsi”, “gizli müharibə”, “kibernetik müharibə”, “strateji müharibə” və s. kimi terminlər dəbdədir.

Biz “dəb” sözünü təsadüfən işlətmirik. Bunun əsas mənası müharibənin dəhşətli, kütləvi dağıdıcı və insan varlığının kökünə belə mənfi təsiri olan növlərini sanki adi terminlər kimi işlədirlər. Və hətta yarışa girib müqayisə edirlər – hansı daha güclüdür!

Əcəba, nəyin müqayisəsini aparırlar? Bir tərəfdən, humanizmdən, insanlıqdan, demokratiyadan, liberalizmdən danışırlar, digər tərəfdən isə kim daha dağıdıcı, vurucu, yıxıcı, yandırıcı müharibə növü icad etdiyinin rəqabətini aparırlar. Özü də bunları dünyanın böyük gücləri sayılan qüvvələr – ABŞ, Çin, Avropa dövlətləri və Rusiya edirlər! BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvü də həmin dövlətlərdir – ABŞ, Çin, Böyük Britaniya (Avropa), Fransa (Avropa) və Rusiya! Paradoks deyildirmi? Bunlar həm dünyada sülhü təmin edəcək, həm də yeni silah və müharibə növləri icad etməklə bütün dünyanı qorxu altında saxlayacaqlarmış!

Buyurun, həmin dövlətlər yeni silahlarını sınaqdan çıxarmaqla öyünürlər. Başqalarını hədələyirlər. Onların dairəsinə daxil olmayanlar yeni silah sınaqdan keçirəndə təhdid edir, onları təhlükəli adlandırır və başlayırlar “dünya təhlükədədir” – bağırmağa. Bəli, dünya təhlükədədir, ancaq bu təhlükə məhz məlum “5-liyin” silah yarışından qaynaqlanır. Digərləri özlərini qorumaq üçün çapalayırlar!

İndi sadalanan dövlətlərə yeni təhlükələr əlavə olunur – Şimali Koreya, İran, Hindistan! Dairə genişlənir və genişləndikcə yeni təhdidlər meydana gəlir. Marsa süni intellekt göndərən ABŞ və Çinlə yanaşı, Ayın o biri üzünə aparat çıxaran Hindistan təcavüzkar Ermənistana da silah satır. ABŞ və Fransa min cür bəhanə ilə aqressorun yanında durur. Eyni zamanda, sülhdən, tərəqqidən, demokratiyadan əməkdaşlıqdan dəm vururlar.

Bütün bunları robotlar icad etmişdir? Bu ikili, üçlü standartları süni intellektlər yaratmışdır? İnsan vicdanının haqqını və ədalətini robotlar sıradan çıxarmışlar? H.Kissincerin ehtiyat etdiyi süni intellekti də süni intellekt yaratmışdır? Bunlar robotlarınmı konsepsiyalarıdır?

Fərz etsək ki, hansısa mərhələdə insanın yaratdığı robot (süni intellekt) özü yeni robot yaradacaq. Lakin bu da insan layihəsidir, onun proqramı və planlarıdır. Çünki bütün hallarda prosesin əsasını təbii intellekt – insan şüuru qoymuşdur!

Belə sadəlövh görünən suallar, əslində, müasir insan intellektinin çox təhlükəli və hiyləgər bir aspektindən xəbər verir. İnsan özü yaradır və sonra başqasını günahlandırırsa, ədalətin sonu deməkdir. Bunun bədəlini bütün insanlıq və bəşəriyyət ödəməkdədir.

### Sülh və humanitarlıq növləri

İnsafən, düşünək, son 30-40 ildə inkişaf etmiş ölkələr qarşılıqlı əməkdaşlıq, barış, sülh, humanitarlıq sahələrində çox termin icad etmişlər, yoxsa yeni savaş növləri ilə bağlı yeni terminlər daha çoxdur? Məsələn, yardımlaşmanın neçə növü vardır və onlar hansı terminlərlə ifadə olunur? Sülhü neçə növə bölmək olar? Və yaxud humanitarlaşmanın yeni növləri hansılardır?

Bir sıra araşdırmaçılar siyasətdə humanitarlığı təhlil edirlər, lakin onun praktikası çox kasaddır. Bu, özünü pandemiya mərhələsində daha qabarıq göstərdi. Hətta, böyük dövlətlər kasıblara qarşı ədalətsiz davrandılar və bununla humanitarlaşma və qarşılıqlı paylaşma prakitiki olaraq minimum səviyyəyə endi.

Yalnız Azərbaycan Prezidentinin ciddi təşəbbüsü ilə məsələni BMT-də müzakirə etdilər. Lakin yenə də həmin dövlətlər praktiki addım atmadılar. Əvəzində Ukraynada və Fələstində yeni savaş növlərini “uğurla sınaqdan keçirirlər”. Bunlardan öncə, Rusiya Prezidenti açıq ifadə etmişdi k, Suriyada yeni silahlarını uğurla sınaqdan keçirirlər. ABŞ gündə bir yerdə eyni hərəkətləri edir. Və bundan sonra da yeni dünya nizamı, dünyanın yeni təhlükəsizlik arxitekturası və davamlı sülhdən danışırlar!

### Bilderberq klubu: “Dünya hökuməti”

Və bütün bunlar “dünya hökuməti” kimi də adlandırılan Bilderberq klubunun hər il keçirilən toplantısından sonra yeni çalarlar alır. Biz burada birbaşa əlaqəni gördüyümüzdən bəhs etmirik. Sadəcə, maraqlıdır: Əgər bu, dünyanın dərdini çəkən klubdursa, hansı səbəblərdən müharibə, savaş, rəqabət, qarşıdurma halları artır, lakin sülh, barış, əməkdaşlığın yeni üsulları tapılmır? Əksinə, yeni əməkdaşlıq formatları təşəbbüsü ilə çıxış edənlərin yolunu kəsməyə çalışır. Bəlkə fransız sosioloq Alen Turenin ifadə etdiyi mənada bir “informasiya əlçatmazlığı” halı vardır? Buradan bizlər sanki “sui-qəsd nəzəriyyələri”nə meyillənirik. Ancaq reallıq göz qabağındadır: Hələlik Bilderberq klubu da daxil olmaqla, ümumdünya sülh və barışına real xidmət edən təklif və ya plan yoxdur!

Nə nəticə alınır? Hər şeydən öncə, insan intellekti inkişafının elə mərhələsindədir ki, özü-özünə tor hörməklə məşğuldur. Dünyanı, bəşəriyyəti yeni inkişaf səviyyəsinə çıxarmaq əvəzinə, bir qrup dövlət, bütövlükdə, dünyanı tora salmağı hədəfləmişdir. Onlar Kosmosa da bu məqsədlə çıxırlar. Çünki Yerə ən uzaqdan baxıb, ən yaxın dağıdıcı qərarlar qəbul etsinlər. Bunların mümkün mənfi nəticələrini isə süni intellektin boynuna atırlar.

### Hansı intellekt dayandıracaq?

Bu prosesi dayandırmaq çox çətindir. Çünki söhbət insan intellektinin çox sürətli yaradıcılıq dinamikasından gedir. İnsan zəkasının yaradıcı potensialı çox böyükdür və möhtəşəmdir. Onun təbiəti elədir ki, yaradanda yaşayır. Fəaliyyətdə olmayanda ölür, bitir, zəka kimi yox olur! Buna görə də vurğuladığımız təhlükəli tendensiyaları zəka dayandıra bilməz. Burada başqa faktorlar olmalıdır. O faktorlar insanın mənəvi, mədəni, əxlaqi, psixoloji aləmi ilə bağlıdır. Qısa desək, insan nəinki vicdanlı, həm də “fəzilət sahibi olmalıdır. Bununla da kifayətlənmək olmaz. Çünki insan həm də “intellektual fəzilətə” malik olmalıdır.

İntellektin fəzilətli olması ayrıca dərin problemdir. Onun qısaca və lakonik mənası insan intellektinin xeyirxah olması ilə əlaqəlidir. İnsan intellekti necə xeyirxah ola bilər? Bu da ayrıca araşdırma mövzusudur və burada onu etmək imkanı yoxdur.

Ancaq reallıq bundan ibarətdir ki, insan intellekti getdikcə daha kütləvi fəsadlar verə bilən müharibə növləri kəşf edir. Praktiki baxımdan məsələnin əsas tərəfi bundan ibarətdir. O cümlədən, “intellektual müharibə” anlayışı son zamanlar daha çox işlənməyə başlanmışdır. Bunu Pentaqonun Çinlə bağlı 2021-ci ildə hazırladığı bir hesabatın məzmunundan da aydın görə bilərik (bax: Annual Report to Congress: Military and Security Developments Involving the People’s Republic of China, 2021 // https://media. defense. gov/ 2021/ Nov/03/ 2002885874/-1/-1/0/2021-CMPR-FINAL. PDF).

### Çinin “böyük modernləşməsi”: intellektual müharibəyə doğru?

Məruzədə Çin Xalq Respublikasının gizli surətdə “intellektual müharibə”yə hazırlaşdığı iddiası irəli sürülür. Bəs “intellektual müharibə” nədir? Onu belə izah edirlər: intellektual müharibə hipermüharibədir ki, üzücüdür, görünməyən hərbi əməliyyatlarda reallaşır və intellektin nəzarətini təmin edən əməliyyatlarla xarakterizə olunur.

Burada kifayət qədər yeniliyə rast gəlinir. Pentaqonun təxmininə görə, Çin məhz bu tip savaşa doğru gedir. Bu baxımdan Çinin həmin prosesi 2035-ci ildə yekunlaşdıracağı ilə bağlı edilən proqnoz çox düşündürücüdür. Məruzəyə görə, rəsmi Pekin bir neçə mərhələli modernləşmə müəyyən etmişdir. Onun yekunlaşmasına 5 mərhələ qalır. Bu prosesə Çində “böyük modernləşmə” deyirlər.

Nədir bu “böyük modernləşmə”?

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

# Fərarinin “vətən eşqi”

## *44 günlük müharibədə cəbhədən qaçan Karamyan indi Qarabağ ermənilərinə göz yaşı tökür*

**Ermənistan və Azərbaycan arasında 35 ilədək davam edən münaqişənin başa çatmasına, sülh sazişinin imzalanması üçün danışıqların aparılmasına, gərginliyin əsas mənbəyi olan Qarabağ məsələsinin gündəmdən tamamilə çıxarılmasına baxmayaraq, hələ də İrəvandan ölkəmizlə bağlı əsassız ittihamlar, böhtanlar eşitməkdəyik. Əgər bunu hansısa qisas hissi ilə yaşayanlar, o cümlədən Qarabağ klanına daxil olanlar, müxalifətçilər, siyasi partiya rəhbərləri, ekspertlər, politoloqlar etsəydilər, əhəmiyyət verməyə bilərdik. Əfsuslar olsun ki, ittiham və böhtanları səsləndirənlər bir sıra hallarda rəsmi şəxslər olurlar. Belələrindən biri Ermənistan istintaq komitəsinin sədri Arqişti Karamyandır.**



Vətən müharibəsi dövründə Ermənistan milli təhlükəsizlik xidmətinin rəhbəri kimi Şuşaya gələn, ölkəmizə qarşı hərbi əməliyyatlarda iştirak edən, ancaq müzəffər Azərbaycan Ordusunun yaxınlaşdığını görərək, “asta qaçan namərddir” deyib dabanına tüpürüb aradan çıxan, işğalçı ordunun 11 min fərarisindən biri olan, buna rəğmən 2021-ci ildə keçmiş qondarma “dqr” rejiminin “qlavar”ı tərəfindən “İgidliyə görə” medalı ilə təltif olunan Karamyan bugünlərdə lokal xarakterli antiterror tədbirləri barədə həqiqətə uyğun gəlməyən fikirlər səsləndirib. Ölkəsinin “İctimai” televiziyasına müsahibə verən istintaq komitəsinin sədri sentyabrın 19-20-də çox sayda erməninin həyatını itirdiyini iddia edib.

Müsahibə zamanı ilk cümlədə ölkəmizin suverenliyinin tam bərpasını “Azərbaycanın Dağlıq Qarabağa hərbi təcavüzü” kimi təqdim etməyə çalışan bir şəxsin sonrakı cümlələrinin nə olacağını təxmin etmək çətin deyildi. Amma hər halda yalanın da bir həddi olmalıdır, axı. Yalan doğruya azacıq da olsa, bənzəməlidir ki, başqalarına sırıya biləsən. Karamyan isə ağ yalan danışıb. Deyib ki, sentyabrın 19-20-də 223 nəfər həlak olub, onlardan 25-i mülki şəxs, o cümlədən azyaşlılardır (?). Yalanlarını davam etdirən Karamyan 244 nəfərin yaralandığını, onlardan 76-sının mülki şəxs, o cümlədən 10 nəfərin azyaşlı (?) olduğunu bildirib. Guya, 20 nəfər itkin düşmüş hesab edilir, onlardan 5-i mülki şəxsdir.

Baş istintaqçı Hayastan xoruna qoşularaq erməni əhalinin Qarabağdan könüllü köçünü “məcburi köçürülmə” adlandırıb. Onun sözlərinə görə, həm səfər zamanı, həm də Ermənistana gəldikdən sonra ölüm halları qeydə alınıb ki, bu da Azərbaycan Silahlı Qüvvələrinin göstərdiyi “böyük psixoloji təzyiqlə” bağlıdır. Karamyan, ümumilikdə, 70-ə yaxın ölüm halının qeydə alındığını iddia edib. Qeyd edib ki, bütün bu hallar “Azərbaycanın Dağlıq Qarabağda etnik təmizləmə aparması” ilə bağlı cinayət işi çərçivəsində araşdırılır. Karamyanın, Azərbaycan hərbçiləri tərəfindən, guya, 20-yə yaxın cəsədə qarşı təhqiramiz hərəkətlər edildiyi ittihamı isə yalanların zirvəsidir.

Ermənistan rəsmisinin söylədiyi yalanların hər bir epizodunu ayrıca hamıya məlum tutarlı faktlarla ifşa etmək mümkündür. Ancaq biz bir yazıda ona cavab verməyə çalışacağıq. Əvvəla, Azərbaycan heç bir bölgəyə hücum, yaxud Karamyanın dediyi kimi “hərbi təcavüz” etməyib. Azərbaycan sentyabr ayında özünün Qarabağ iqtisadi rayonunun separatçı xunta rejiminin əsarəti altında qalan hissəsində antiterror tədbirləri keçirmək məcburiyyətində qalıb. Bununla da ölkəmizin ərazi bütövlüyü tam bərpa edilib, dövlət suverenliyimiz bərqərar olub. Antiterror tədbirləri keçirməyin zərurətdən irəli gəldiyini Ermənistanda prosesləri izləyənlər aydın dərk edirlər. Sadəcə, bunu deməyə cəsarət edə bilmirlər.

Rəsmi İrəvan 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatla ordusunu Qarabağdan çıxarmaq öhdəliyi götürsə də, 2023-cü ilin sentyabrınadək həmin öhdəliyi icra etmədi. Antiterror tədbirlərinin keçirildiyi günlərdə Qarabağda Ermənistan ordusunun 15 min nəfərlik şəxsi heyəti qalmaqda idi. Edilən çoxsaylı çağırışlara baxmayaraq, separatçılar silahı yerə qoymadılar və müqavimət göstərməkdə israr etdilər. Təbii olaraq, onlara özlərinin başa düşdüyü dildə cavab verildi. Bu mənada əgər tədbirlər zamanı ermənilərdən ölənlər olubsa, qarşı tərəf, necə deyərlər, bizdən inciməməli, özündən küsməlidir. Yeri gəlmişkən, qeyd edək ki, başlanmasına xunta rejiminin təhrik etdiyi antiterror tədbirləri zamanı Azərbaycan Silahlı Qüvvələrinin 192 hərbi qulluqçusu və 1 mülki şəxs şəhid olub, 511 hərbi qulluqçu və 1 mülki şəxs yaralanıb. Şəhid olan hərbçilərdən 180 nəfər Müdafiə Nazirliyinin, 12 nəfər isə Daxili İşlər Nazirliyinin hərbi qulluqçularıdır.

Qarabağdakı mülki şəxslərin həyatlarını itirməsi iddiası isə tamamilə yalandır. Azərbaycan istər Vətən müharibəsini, istərsə də lokal antiterror tədbirlərini beynəlxalq hüquqa, o cümlədən beynəlxalq humanitar hüquqa tam uyğun aparıb. Bu fikir Azərbaycanda ən mötəbər şəkildə dəfələrlə bəyan edilib. Sonuncu dəfə dekabrın 31-də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində Prezident İlham Əliyev deyib: “2023-cü ilin aprel ayında isə biz ərazi bütövlüyümüzü tam bərpa etmişdik. Azərbaycan-Ermənistan sərhədinin Laçın istiqamətində sərhəd-buraxılış məntəqəsi qurulmuş və o gündən bəri Azərbaycanın ərazi bütövlüyü tam bərpa edilmişdir. Azərbaycan xalqı yaxşı xatırlayır ki, dünyada, xüsusilə Qərb ölkələrində Ermənistanın arxasında dayanan, onlara daim dəstək göstərən ölkələrdə nə qədər hay-küy qaldırılmışdı, bizə qarşı əsassız ittihamlar irəli sürülmüşdü. Heç bir ittiham, heç bir təzyiq bizim iradəmizə təsir edə bilmədi. Mən o vaxt da demişdim ki, heç kim bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq, öz sərhədimizi özümüz nəzarətə götürmüşük və heç kimə imkan verməmik ki, bizim torpağımızda at oynatsın. Bu, bizim torpağımızdır, bu torpağın sahibi bizik, nə lazım biliriksə, onu da edəcəyik, beynəlxalq hüquq çərçivəsində, o cümlədən beynəlxalq humanitar hüquq çərçivəsində. O da dərs olmadı işğalçılara, o da dərs olmadı onların arxasında dayanan anti-Azərbaycan qüvvələrə. Ona görə sentyabr ayında keçirilmiş antiterror əməliyyatı labüd idi və biz bunu keçirdik, bununla da fəxr edirik, qürur hissi keçiririk…”

Yeri gəlmişkən qeyd edək ki, xunta rejimi, necə deyərlər, canını tapşırdığı son günlərədək öz xislətinə sadiq qaldı. Onlar son anda da terrorçulara xas üsullarla davranaraq, əslində, mahiyyətlərini bir daha sübut etdilər. Belə ki, separatçılar antiterror tədbirləri zamanı legitim hədəf hesab olunan hərbi qurğuları qəsdən mülki infrastruktur obyektlərinin, yaşayış binalarının düz yaxınlığında yerləşdirirdilər. Həmin hədəflərə zərbə endirilərkən zərbələrin birinin təsadüfən yaşayış binasının yaxınlığına düşməsi onlar üçün göydəndüşmə fürsət idi. Bununla ölkəmizə gələcəkdə beynəlxalq instansiyalarda böhtan atmağı düşünürdülər. Amma onların “miatsum” və digər məkrli planları kimi bu arzuları da puç oldu.

Bugünlərdə Almaniyanın “Berliner Zeitung” qəzetinə müsahibə verən Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev də bu istiqamətdə maraqlı fikirlər səsləndirib. H.Hacıyev deyib: “Azərbaycan qürur hissi ilə qeyd edir ki, BMT-nin üç missiyası və Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən öz təsdiqini tapdığı kimi ildırımsürətli antiterror tədbirləri zamanı və ondan sonrakı dövrdə mülki şəxslərə qarşı zorakılıq halları qeydə alınmayıb. Azərbaycan hərbi əməliyyatların dinc əhaliyə zərər vurulmadan necə aparılmalı olduğunu bütün dünyaya nümayiş etdirib. Başqa sözlə desək, dinc əhalinin olduğu yerdə qalması üçün hər cür şərait yaradılmışdı. Buna baxmayaraq, erməni sakinlərin əksəriyyəti Qarabağı tərk etmək qərarına gəldi”.

Prezidentin köməkçisi bildirib ki, sadəcə olaraq, onlar Azərbaycan Bayrağı və vətəndaşlığı altında yaşamaq istəmirlər və bu, onların bölgəni tərk etmək barədə qərar verməlvarinə səbəb olub, əsasən, azərbaycanlılara qarşı etnik nifrətə görə: “Yeri gəlmişkən, iyirmi il əvvəl Ermənistanın sabiq prezidenti Robert Koçaryan sizin istinad etdiyiniz Avropa Şurası Parlament Assambleyasındakı bəyanatında “ermənilərlə azərbaycanlılar arasında etnik uyğunsuzluqdan” danışmışdı. AŞPA rəsmiləri bəyan ediblər ki, “Avropa Şurası yarandığı gündən indiyədək heç vaxt “etnik uyğunsuzluq” ifadəsini eşitməyib.

Erməni sakinlərinin əksəriyyəti qorxurdular ki, Azərbaycan Birinci Qarabağ müharibəsi zamanı ermənilərin törətdiklərinin qisasını ala bilər, lakin bizim niyyətimiz bu deyildi. Azərbaycan heç vaxt mülki əhalini hədəfə almır. Beləliklə, Azərbaycan Laçın yolu vasitəsilə Ermənistana təhlükəsiz keçid təmin etdi. Erməni sakinlərin çox kiçik bir hissəsi Qarabağda qalmaq qərarına gəlib və hazırda onların ehtiyacları ödənilir. Reinteqrasiya portalı fəaliyyətini davam etdirir”.

Ermənilər Qarabağdan gedərkən onlara qarşı zorakılıq edilmədiyini artıq həllini tapmış münaqişə üzrə ixtisaslaşmış Karnegi Fondunun baş eksperti Tomas de Vaal da təsdiqləyib. “Azadlıq” radiosunun erməni xidmətinin (“Azatutyan”) saytında yanvarın 8-də yerləşdirilmiş müsahibəsində Tomas de Vaal deyib: “Ermənilərin Qarabağdan köçü dinc xarakter daşıyıb. Əlbəttə, yolda ölənlər ola bilər, amma Azərbaycan tərəfindən zorakılıq olmayıb”.

Onu da bildirək ki, Karamyanın və onun kimi düşünənlərin mövqeyi, əslində, həm də gələcəyə hesablanıb. Bu gün ermənilər və onların Qərbdəki havadarları 2023-cü ilin sentyabrın sonunda Qarabağdan baş verən könüllü köçü 1915-ci il hadisələri ilə əlaqələndirirlər. 1915-ci il hadisələrini “soyqırımı”, 2023-cü ildə yaşadıqlarını isə “etnik təmizləmə” adlandırırlar. Dünyanın hər yerində “qədim erməni izini” axtaranlar indi də iki hadisə arasında paralellər tapmağa çalışırlar. Ancaq onlar unudurlar ki, indi 1915-ci il deyil. Qarabağdan könüllü köçlə bağlı bütün xüsusatlar sənədləşdirilib. İnternetdə köçün zorakılıq nəticəsində olmadığı haqda çoxlu material var. “YouTube” videohostinqi Azərbaycan sərhədçilərinin və polisinin gedən ermənilərə su, şirniyyat verməsi ilə bağlı videolarla dolub-daşır. Eyni zamanda, ermənilərin özlərinin onlara qarşı zorakılıq olmadığına dair etirafları da kifayət qədərdir. Bu baxımdan, xəbis niyyətli ermənilər, nəhayət, anlamalıdırlar ki, yalan ayaq tutar, yeriməz.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi



**Yeganə HACIYEVA, politoloq**

**– Ermənistan Azərbaycanla bağlı məsələləri hüquqi müstəviyə təqdim etməyə çalışır. Arqişti Karamyanın indiyədək tirajlanan dezinformasiyaları, guya, fakt kimi təqdim etməyə çalışması da bunun göstəricisidir. Çox güman ki, onlar Qarabağdakı itkilərini beynəlxalq hüquqi müstəviyə daşımaqla təzminat tələb etməyə çalışacaqlar.**

**Əslində isə onun təqdim etdiyi məlumatlar başdan-ayağa yalanlardan ibarətdir. Çünki əgər bircə nəfərin burnu qanamış olsaydı, Ermənistan media orqanları onları çəkib görüntülərini yayar, bundan Azərbaycana qarşı istifadə edərdilər. Ən əsası BMT-nin üç missiyası mülki şəxslərin zorakılığa məruz qalmasını qeydə almayıb.**

**Qarabağdakı Ermənistan ordusunun hərbçilərinin həlak olmalarına gəldikdə isə bunu heç kim inkar etmir. Bu zaman sual yaranır: Erməni hərbçilərin Azərbaycan ərazisində nə işi var idi? Əgər bir ölkənin hərbçiləri digər ölkənin ərazisinə daxil olarlarsa, deməli, legitim hərbi hədəfə çevrilirlər. Azərbaycanın özünümüdafiə hüququ çərçivəsində atmalı olduğu addımlar var idi və həmin addımlar atıldı. İndi onları mülki şəxslər qismində qələmə vermək Ermənistanın yalan və dezinformasiyalarının növbəti mərhələsidir. Zənnimcə, bu proseslər Ermənistan hakimiyyətindən qaynaqlanır. “İctimai” televiziya birbaşa Anna Akopyanın nəzarəti altındadır. Orada səslənən fikirlər Ermənistan baş nazirinin mövqeyi kimi qəbul olunmalıdır.**

# Prezidentin köməkçisi yanğın yerinə və zəhərlənənlərə baş çəkib





**Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərov, səhiyyə naziri Teymur Musayev və Baş prokuror Kamran Əliyev Xətai rayonu, Yusif Səfərov küçəsində yerləşən Respublika Perinatal Mərkəzində baş vermiş yanğınla əlaqədar hadisə yerində olublar. Rəsmi şəxslərə yanğının başvermə səbəbləri və nəticələri barədə məlumat verilib.**



Sonra Anar Ələkbərov, Teymur Musayev və Kamran Əliyev yanğın zamanı tüstüdən zəhərlənərək Kliniki Tibbi Mərkəzə yerləşdirilənlərə baş çəkiblər.

## Baş Prokurorluq, Fövqəladə Hallar Nazirliyi və TƏBİB-in birgə məlumatı

Respublika Perinatal Mərkəzində baş vermiş yanğınla bağlı cinayət işi başlanıb.

Bu barədə Baş Prokurorluq, Fövqəladə Hallar Nazirliyi və "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin yaydığı birgə məlumatda deyilir.



Bildirilib ki, Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov küçəsində yerləşən Respublika Perinatal Mərkəzində baş vermiş yanğın Fövqəladə Hallar və Daxili İşlər nazirliklərinin qüvvələri tərəfindən qısa müddətdə söndürülüb, aidiyyəti dövlət orqanlarının əlaqəli və operativ fəaliyyəti nəticəsində Mərkəzdə olan şəxslər təxliyə olunub.

Baş Prokurorluğun rəhbər vəzifəli şəxslərinin iştirakı ilə hadisə yerinin müayinəsi aparılıb, eləcə də zəruri və təxirəsalınmaz istintaq hərəkətləri həyata keçirilib.



İlkin araşdırmalar zamanı müəyyən edilib ki, 3 nəfər tüstüdən zəhərlənmə səbəbilə Kliniki Tibbi Mərkəzin toksikologiya şöbəsinə hospitalizasiya olunub. Onlara zəruri tibbi xidmətlər göstərilib, vəziyyətləri stabildir, ambulator müalicə üçün evə buraxılmaları nəzərdə tutulub.

Dərin təəssüf hissi ilə qeyd edirik ki, Mərkəzin yenidoğulmuşların intensiv terapiya şöbəsində müalicə alan 4 uşağın meyiti aşkar olunub.

Fakta görə, Baş Prokurorluğun İstintaq İdarəsində Cinayət Məcəlləsinin 225.3 (yanğın təhlükəsizliyi qaydalarını pozma ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) və 314.3-cü (səhlənkarlıq iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddələri ilə cinayət işi başlanıb.

Hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.

"İstintaqın gedişatı və nəticələri barədə ictimaiyyətə mütəmadi olaraq məlumatın verilməsi təmin ediləcək.

Hadisə ilə əlaqədar vəfat edənlərin ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə sağalmasını arzulayırıq", - birgə məlumatda qeyd edilib.

## Kamran Əliyev: İstintaq ölkə rəhbərliyinin nəzarətindədir

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın tapşırığı ilə hadisə yerindəyik. Respublika Perinatal Mərkəzində baş verən yanğın hadisəsinin istintaqı ölkə rəhbərliyinin nəzarətindədir.

Bunu baş prokuror Kamran Əliyev jurnalistlərə açıqlamasında bildirib.

"Faktla bağlı yanğın təhlükəsizliyi qaydalarının pozulması, səhlənkarlıq, iki və daha çox şəxsin ölümünə səbəb olma maddələri ilə cinayət işi başlanılıb.

Təqsirli şəxsləri məsuliyyətə cəlb edilməsi tərəfimizdən təmin ediləcək", - deyə K.Əliyev bildirib.

## FHN: Yanğın qısa müddətdə söndürülüb

Respublika Perinatal Mərkəzində baş vermiş yanğının söndürülməsinə 20 texnika və 90 nəfər cəlb edilib və baş vermiş yanğın Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğından Mühafizə Xidmətinin qüvvələri tərəfindən qısa müddətdə söndürülüb.

FHN-dən bildirilib ki, hadisə yerinə cəlb olunmuş nazirliyin Dövlət Yanğından Mühafizə Xidməti, Xüsusi Riskli Xilasetmə Xidməti və Bakı Regional Mərkəzinin qüvvələri tərəfindən təxliyə işləri həyata keçirilib.

## DİN: Polis hadisə yerinə səfərbər edilib

Respublika Perinatal Mərkəzində baş verən yanğınla bağlı polis əməkdaşları dərhal hadisə yerinə səfərbər edilməklə təhlükəsizlik tədbirləri görülüb.

DİN-in mətbuat xidmətindən bildirilib ki, ərazi tam mühafizəyə götürülməklə polis əməkdaşları təxliyə-xilasetmə tədbirlərində fəal iştirak ediblər.

Hazırda polis əməkdaşları tərəfindən hadisə yeri mühafizə edilir.

## 60 uşaq 6 tibb müəssisəsinə köçürülüb




Respublika Perinatal Mərkəzində baş vermiş yanğın hadisəsi ilə bağlı TƏBİB tərəfindən xəstələrin dərhal təxliyəsinə başlanılıb. 60 uşaq TƏBİB-in tabeliyində olan 6 tibb müəssisəsinə təxliyə olunub. Həmin uşaqların yanıq xəsarəti və ya tüstüdən boğulma diaqnozları yoxdur.

Bunu TƏBİB-in icraçı direktorunun müavini Anar İsrafilov jurnalistlərə açıqlamasında deyib.

"Respublika Perinatal Mərkəzi üçüncü səviyyəli doğum tibb müəssisəsidir. Buradakı uşaqlar ya vaxtından əvvəl doğulanlardır, ya da öncədən yanaşı gedən patologiyaları olan uşaqlardır. Təxliyə ilə bağlı hansısa ağırlaşma faktı baş verməyib. Hazırda vəziyyətləri stabildir... Xəstələrin vəziyyəti tam nəzarətdədir. İstər dərman preparatları, istər avadanlıq, istərsə də onların qidalanması baxımından heç bir problemimiz yoxdur və müalicələri davam edir".

*XQ*

# Paytaxtda daha 2 məhəllə "Bizim həyət"ə çevrildi

**Paytaxtın Nəsimi rayonu, Bakıxanov küçəsi 42 və Sabunçu rayonu, Bakıxanov qəsəbəsi Sakit Qocayev 25, 25a, 25b, 27 və 27c ünvanlarında 4 min 600-dən çox sakinin yaşadığı çoxmərtəbəli binaları əhatə edən həyətlər abadlaşdırılaraq sakinlərin istifadəsinə verilib.**





Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətlərin açılışında, o cümlədən tədbir çərçivəsində keçirilən kütləvi ağacəkmə aksiyasında iştirak edib. Bayram tədbiri zamanı abadlaşdırılan həyətin azyaşlı sakinləri üçün xüsusi bayram şənliyi təşkil olunub, onlara bayram hədiyyələri təqdim edilib. Musiqili əyləncə proqramları ilə zəngin şənlik uşaqlarda xoş bayram əhval-ruhiyyəsi yaradıb, sevinc dolu anlar bəxş edib.

"Bizim həyət" layihəsinin əsas məqsədi paytaxt ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad olması, yaşıllıqların bərpası, mənalı istirahət mühitinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan həyətlərdə sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli təşkili və onlarda idmanla məşğul olmaq həvəsinin yaradılması məqsədilə ərazidə süni örtüklü futbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaq üçün oyun meydançaları salınıb. Eyni zamanda, həyətyanı sahələrdə 16 söhbətgah, çoxsaylı oturacaqlar, quş yuvaları və pişik evləri quraşdırılıb. Bundan əlavə, həyətlərdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub, asfalt və dam örtüyü yenilənib, elektrik xətləri yenidən çəkilib.

Həyətlərin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, 650 ədəd müxtəlif növ ağaclar, 19 min 100 ədəd kol əkilib, 3542 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Bununla yanaşı, həyətin ətrafında sıx bitən və havanın çirklənməsinin qarşısını almaq məqsədilə adi daşsarmaşığı və digər sarmaşan bitkilər əkilərək "yaşıl sədlər" yaradılıb.

Məlumat üçün bildirək ki, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə 2017-ci ildən etibarən icra olunan "Bizim həyət" layihəsi çərçivəsində bu günədək 149 ümumi yaşayış sahəsi abadlaşdırılaraq sakinlərin istifadəsinə verilmişdir.

Xüsusi olaraq qeyd edək ki, IDEA İctimai Birliyi həyətlərin abadlaşdırılması və yenidənqurma işlərinin aparılması istiqamətində sakinlərin təklif və müraciətlərini İctimai Birliyə təqdim etməyə çağırır. Müraciətlərinizi IDEA İctimai Birliyinin qaynar xətti 1113 və ya e-mail ünvanına (info@ideacampaign.org) göndərməyiniz xahiş olunur.

*XQ*

# Polis və seçkilər mövzusunda təlimlər



**Fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin yüksək səviyyədə təşkili, azad və ədalətli keçirilməsi, eləcə də müxtəlif statuslu seçki subyektlərinin maarifləndirilməsi məqsədilə ardıcıl və sistemli şəkildə genişmiqyaslı tədbirlər gerçəkləşdirilməkdədir.**

Mərkəzi Seçki Komissiyası Daxili İşlər Nazirliyi ilə birgə layihə çərçivəsində yanvarın 9-dan etibarən regional seminar-müşavirələrə başlayıb.

Prezident seçkilərində polisin əməkdaşlarının xidməti fəaliyyətinin daha da təkmilləşdirilməsinə həsr edilən tədbirlərdə dairə seçki komissiyalarının sədrləri və polis orqanlarının nümayəndələri iştirak edirlər.

Seminar-müşavirələrdə Mərkəzi Seçki Komissiyasının üzvləri, Komissiya Katibliyinin əməkdaşları və Daxili İşlər Nazirliyinin müvafiq qurumlarının nümayəndələrinin prezident seçkilərinin hazırlanıb keçirilməsi proseslərində polis əməkdaşlarının qanunvericiliklə müəyyənləşdirilmiş rol və vəzifələri barədə müxtəlif mövzularda çıxışları dinləniləcək, təqdimatlar və müzakirələr aparılacaq.

İlk seminar-müşavirə yanvarın 9-da Bakıda keçirilib.

Bakı Şəhər Baş Polis İdarəsində keçirilən seminar-müşavirənin açılışında Mərkəzi Seçki Komissiyasının üzvü Ramiz İbrahimov seçki qanunvericiliyi, seçki komissiyalarının sistemi, seçki prosesi, onun mərhələləri və müddətləri, seçki komissiyaları və polis orqanlarının birgə fəaliyyətinin əsasları, Azərbaycan Respublikası Prezidenti seçkilərinin yüksək səviyyədə təşkili ilə bağlı görülən işlərdən danışıb.

DİN-in Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini Eldəniz Məmmədov deyib ki, fevralın 7-nə təyin edilmiş növbədənkənar prezident seçkilərinin ölkə qanunvericiliyinin tələblərinə uyğun təhlükəsiz və demokratik şəraitdə keçirilməsi, seçki günü vətəndaşların öz iradəsini sərbəst və azad ifadə etməsi məqsədilə Daxili İşlər Nazirliyində müvafiq Tədbirlər Planı təsdiqlənib və icrası xüsusi nəzarətə götürülüb.

Növbədənkənar prezident seçkiləri zamanı asayişin mühafizəsi, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmini sahəsində Bakı Şəhər Baş Polis İdarəsi və rayon polis idarələri tərəfindən təhlükəsizlik tədbirləri yüksək səviyyədə təşkil olunacaq.

Baş İctimai Təhlükəsizlik İdarəsinin profilaktiki işin təşkili idarəsinin rəisi, polis polkovnik-leytenantı Sənan Əliyev və həmin idarənin Milli-dini işlər üzrə şöbəsinin rəisi, polis polkovniki Oqtay Tağıyev seçki kampaniyası dövründə və seçkilərin keçirildiyi gün ictimai qaydanın təmin edilməsi, seçkidən sonrakı dövrdə seçki bülletenlərinin və digər seçki sənədlərinin dairə və MSK-ya gətirilərkən təhlükəsizlik tədbirlərinin görülməsindən söz açıblar.

Qeyd edək ki, maarifləndirmə tədbirləri növbəti mərhələdə yanvarın 12-də Gəncədə, yanvarın 14-də Şəkidə, yanvarın 16-da Şirvanda və yanvarın 18-də Naxçıvanda keçiriləcək.

Sonda seminar-müşavirə iştirakçılarının sualları cavablandırılıb, müzakirələr aparılıb.

*XQ*

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası



**Məzahir Pənahovun sədrliyi ilə yanvarın 9-da Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib. Əvvəlcə komissiyanın yanvarın 6-da keçirilmiş iclasının protokolu təsdiq olunub.**

Sonra fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası tərəfindən irəli sürülmüş Qüdrət Müzəffər oğlu Həsənquliyevin, namizədliyi Böyük Quruluş Partiyası tərəfindən irəli sürülmüş Fazil Qəzənfər oğlu Mustafanın, namizədliyi Böyük Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş Elşad Nəbi oğlu Musayevin və namizədliyi özü tərəfindən irəli sürülmüş Fuad Ağası oğlu Əliyevin namizədliyinin qeydə alınması məsələsinə baxılıb. Proseslərin gedişi barədə ətraflı məlumat verilərək bildirilib ki, sözügedən namizədlərin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri və onlara əlavə edilməli olan sənədlər səlahiyyətli nümayəndələri tərəfindən Mərkəzi Seçki Komissiyasına təqdim edildikdən sonra seçki qanunvericiliyində nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparılıb, namizədlərin qeydə alınması üçün əsasların olması müəyyən edilib.

Komissiya geniş müzakirələrdən sonra namizədliyi Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası tərəfindən irəli sürülmüş Qüdrət Müzəffər oğlu Həsənquliyevin, namizədliyi Böyük Quruluş Partiyası tərəfindən irəli sürülmüş Fazil Qəzənfər oğlu Mustafanın, namizədliyi Böyük Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş Elşad Nəbi oğlu Musayevin və namizədliyi özü tərəfindən irəli sürülmüş Fuad Ağası oğlu Əliyevin fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizəd kimi qeydə alınmasına qərar verib.

İclasda fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar ölkə hüdudlarından kənarda səs verən seçicilərin seçici siyahılarına alınması məqsədilə seçki dairələrinin siyahısının təsdiq edilməsi məsələsinə də baxılıb və müvafiq seçki dairələri müəyyən edilib.

Komissiyanın iclasında, habelə Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən mətbuat qrupunun tərkibində dəyişiklik olunub.

Beynəlxalq müşahidə missiyası təmsilçisi, prezidentliyə namizədin və namizədi qeydə alınmış siyasi partiyaların səlahiyyətli nümayəndələri, məşvərətçi səs hüquqlu komissiya üzvü, xüsusi icazə almış müşahidəçi və media qurumları nümayəndələrinin iştirak etdiyi iclasda, həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər olunub və cari məsələlərə baxılıb.

***XQ***

# Prezident seçkilərinə hazırlıq

## İşğaldan azad edilmiş ərazilərdə ilk seçki

Müstəqillik tariximizdə ilk dəfə olaraq prezident seçkiləri ölkəmizin bütün ərazilərini əhatə edəcək. Bu il fevralın 7-nə təyin edilmiş növbədənkənar prezident seçkilərində prezidentliyə namizədlər işğaldan azad edilmiş ərazilərdə də təşviqat apara biləcəklər. Artıq həmin ərazilərdə seçki məntəqələri yaradılmış və seçicilərlə görüş üçün yer ayrılmışdır.

MSK-nın məlumatınaa görə, prezidentliyə namizədlər Zəngilan rayonunun Ağalı kəndində, Şuşa və Laçın şəhərində, həmçinin Laçın rayonunun Zabux kəndində seçicilərlə görüşə biləcəklər. Namizədlər Şuşa şəhər 1 saylı tam orta məktəbdə, Zəngilan rayonunun Ağalı kəndindəki Fəvvarələr meydanında, Ağalı kənd tam orta məktəbində, Laçın şəhəri bulvar ərazisində və Lasinema Kino Mərkəzində, həmçinin rayonun Zabux kənd tam orta məktəbində seçicilərlə görüşəcəklər.

Xatırladaq ki, bu il fevralın 7-nə təyin edilmiş növbədənkənar prezident seçkiləri işğaldan azad edilmiş ərazilərdə ilk dəfə keçiriləcək.

## Seçki maarifləndirməsi tədbirləri davam etdirilir

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar prezidenti seçkilərinin yüksək səviyyədə təşkili, azad və ədalətli keçirilməsi, eləcə də müxtəlif statuslu seçki subyektlərinin maarifləndirilməsi məqsədilə ardıcıl və sistemli şəkildə genişmiqyaslı tədbirlər gerçəkləşdirilməkdədir.

Mərkəzi Seçki Komissiyası Daxili İşlər Nazirliyi ilə birgə layihə çərçivəsində yanvarın 9-dan etibarən regional seminar-müşavirələrə başlayıb. Prezident seçkilərində polis əməkdaşlarının xidməti fəaliyyətinin daha da təkmilləşdirilməsinə həsr edilən tədbirlərdə dairə seçki komissiyalarının sədrləri və polis orqanları nümayəndələrinin iştirakı nəzərdə tutulur.

Seminar-müşavirələrdə Mərkəzi Seçki Komissiyasının üzvləri, Komissiya Katibliyinin əməkdaşları və Daxili İşlər Nazirliyinin müvafiq qurumlarının nümayəndələrinin prezident seçkilərinin hazırlanıb keçirilməsi proseslərində polis əməkdaşlarının qanunvericiliklə müəyyənləşdirilmiş rol və vəzifələri barədə müxtəlif mövzularda çıxışları dinləniləcək, təqdimatlar və müzakirələr aparılacaq.



İlk seminar-müşavirə yanvarın 9-da Bakıda keçirilib. Maarifləndirmə tədbirləri növbəti mərhələdə yanvar ayı ərzində Gəncədə, Şəkidə, Şirvanda və Naxçıvanda keçiriləcək.

Xatırladaq ki, seçkilərdə polisin xidməti fəaliyyətinin daha da təkmilləşdirilməsi və məlumatlılıq səviyyəsinin yüksəldilməsi məqsədilə Mərkəzi Seçki Komissiyası Daxili İşlər Nazirliyi ilə birgə "Polis əməkdaşları üçün yaddaş kitabçası" da hazırlayıb. Kitabça aidiyyəti üzrə lazımi yerlərə çatdırılıb.

***Əliqismət BƏDƏLOV***
***XQ***

# 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində ölkə hüdudlarından kənarda yaşayan seçicilərin seçici siyahılarına daxil edilməsi üçün seçki dairələrinin siyahısının təsdiq edilməsinə dair

***Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı***

Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 29.2-ci və 47.4-cü maddələrinə görə Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan seçicilər seçki dairələri üzrə siyahıya alınırlar. Azərbaycan Respublikasının hüdudlarından kənarda daimi yaşayan yaxud uzunmüddətli xarici ezamiyyətdə olan və Azərbaycan Respublikasının müvafiq diplomatik nümayəndəliklərində və ya konsul idarələrində qeydə alınmış seçicilərin sayı haqqında məlumatları Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi təqdim edir. Mərkəzi Seçki Komissiyası həmin məlumatlar əsasında prezident seçkiləri zamanı göstərilən seçicilərin siyahıya alınması üçün müvafiq seçki dairələrinin siyahısını təsdiq edir.

Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan və ya uzunmüddətli xarici ezamiyyətdə olan Azərbaycan Respublikası vətəndaşlarının seçici siyahılarına daxil edilməsi üçün onların Azərbaycan Respublikasının hüdudlarından kənarda daimi yaşaması faktı, habelə uzunmüddətli xarici ezamiyyətlərdə olması faktı əsas götürülür.

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar olaraq Azərbaycan Respublikasının hüdudlarından kənarda daimi yaşayan və uzunmüddətli xarici ezamiyyətdə olan və Azərbaycan Respublikasının müvafiq diplomatik nümayəndəliklərində və konsul idarələrində qeydə alınmış seçicilərin sayı haqqında məlumatlar Xarici İşlər Nazirliyi tərəfindən Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası həmin məlumatlar əsasında seçicilərin seçicilər siyahısına salınması üçün müvafiq seçki dairələrinin siyahısını təsdiq etməlidir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 29.2-ci, 35.6-cı və 47.4-cü maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləridə Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan seçicilərin seçici siyahılarına daxil edilməsi üçün seçki dairələrinin siyahısı təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

# Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən mətbuat qrupunun tərkibində dəyişiklik edilməsi barədə

***Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı***

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 74.5-ci və 88.8-ci maddələrinə əsasən **qərara alır:**

"Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində mətbuat qrupunun yeni tərkibdə formalaşdırılması barədə" Mərkəzi Seçki Komissiyasının 2008-ci il 4 sentyabr tarixli 17/85 saylı Qərarında aşağıdakı dəyişiklik edilsin:

1. 1-ci hissədə "Lider" sözü "ARB 24" sözü ilə əvəz edilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

# Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə

***Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı***

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

Rafiq Nəbi oğlu Nuriyev 27 saylı Sabunçu ikinci, Cavanşir İsmayıl oğlu Qasımov 58 saylı Xaçmaz kənd seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

# Mərkəzi Seçki Komissiyasının 2024-cü il 6 yanvar tarixli iclas protokolunun təsdiq edilməsi barədə

***Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı***

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 6 yanvar tarixli iclasının protokolu təsdiq edilsin.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

# 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası tərəfindən irəli sürülmüş Qüdrət Müzəffər oğlu Həsənquliyevin namizəd kimi qeydə alınması haqqında

***Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı***

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası tərəfindən irəli sürülmüş Qüdrət Müzəffər oğlu Həsənquliyevin namizədliyinin irəli sürülməsi Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra – Mərkəzi Seçki Komissiyası) 2023-cü il 21 dekabr tarixli 10/31 saylı Qərarı ilə təsdiq edilmişdir.

Namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri və onlara əlavə edilməli olan sənədlər 2024-cü il yanvarın 2-də partiyanın səlahiyyətli nümayəndəsi tərəfindən namizədin qeydə alınması üçün Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra – Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, namizədin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 54-cü, 58-ci, 59-cu, 60-cı, 181-ci və 182-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası tərəfindən irəli sürülmüş Qüdrət Müzəffər oğlu Həsənquliyev namizəd kimi qeydə alınsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

# 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Böyük Quruluş Partiyası tərəfindən irəli sürülmüş Fazil Qəzənfər oğlu Mustafanın namizəd kimi qeydə alınması haqqında

***Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı***

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Böyük Quruluş Partiyası tərəfindən irəli sürülmüş Fazil Qəzənfər oğlu Mustafanın namizədliyinin irəli sürülməsi Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra – Mərkəzi Seçki Komissiyası) 2023-cü il 21 dekabr tarixli 10/28 saylı Qərarı ilə təsdiq edilmişdir.

Namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri və onlara əlavə edilməli olan sənədlər 2024-cü il yanvarın 2-də partiyanın səlahiyyətli nümayəndəsi tərəfindən namizədin qeydə alınması üçün Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra – Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, namizədin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 54-cü, 58-ci, 59-cu, 60-cı, 181-ci və 182-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Böyük Quruluş Partiyası tərəfindən irəli sürülmüş Fazil Qəzənfər oğlu Mustafa namizəd kimi qeydə alınsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

# 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Böyük Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş Elşad Nəbi oğlu Musayevin namizəd kimi qeydə alınması haqqında

***Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı***

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Böyük Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş Elşad Nəbi oğlu Musayevin namizədliyinin irəli sürülməsi Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra – Mərkəzi Seçki Komissiyası) 2023-cü il 21 dekabr tarixli 10/30 saylı Qərarı ilə təsdiq edilmişdir.

Namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri və onlara əlavə edilməli olan sənədlər 2024-cü il yanvarın 3-də partiyanın səlahiyyətli nümayəndəsi tərəfindən namizədin qeydə alınması üçün Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra – Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, namizədin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 54-cü, 58-ci, 59-cu, 60-cı, 181-ci və 182-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Böyük Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş Elşad Nəbi oğlu Musayev namizəd kimi qeydə alınsın. 2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

# 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Fuad Ağası oğlu Əliyevin namizəd kimi qeydə alınması haqqında

***Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı***

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Fuad Ağası oğlu Əliyevin namizədliyinin irəli sürülməsi Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra – Mərkəzi Seçki Komissiyası) 2023-cü il 21 dekabr tarixli 10/29 saylı Qərarı ilə təsdiq edilmişdir.

Namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri və onlara əlavə edilməli olan sənədlər 2024-cü il yanvarın 3-də namizədin səlahiyyətli nümayəndəsi tərəfindən namizədin qeydə alınması üçün Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra – Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, namizədin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 53-cü, 58-ci, 59-cu, 60-cı, 181-ci və 182-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Fuad Ağası oğlu Əliyev namizəd kimi qeydə alınsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

# Birləşmiş Ərəb Əmirlikləri ölkəmizin Şərqdə mötəbər tərəfdaşıdır

## Son illərdə münasibətlər daha da genişlənir, əlaqələr möhkəmlənir

**Azərbaycanın Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) ilə əlaqələrinin möhkəmlənməsində önəmli rol oynayan məqamlara nəzər salanda ilk diqqəti çəkən 1991-ci il dekabrın 26-da bu dövlətin ölkəmizin müstəqilliyini tanıması və 1992-ci il sentyabrın 1-də tərəflər arasında diplomatik əlaqələrin yaradılmasdır.**

Ötən dövr ərzində ökələrimiz arasında siyasi sahədə olduğu kimi, iqtisadi əlaqələr də yüksək səviyyədə inkişaf edib. Azərbaycanın BƏƏ ilə iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə birgə fəaliyyəti səmərəliliyi ilə diqqət çəkib. Hər iki ölkənin birgə hökumət komissiyasının indiyədək keçirilən iclaslarında qəbul edilən qərarların icrası nəticəsində tərəflər arasında investisiya, ticarət, "yaşıl enerji", kənd təsərrüfatı, qida təh-



lükəsizliyi, innovasiya, logistika sahələrində əməkdaşlıq yeni inkişaf mərhələsinə daxil olub, habelə biznes strukturları arasnda tərəfdaşlıq genişlənib və qarşılıqlı investisiya qoyuluşu sürətlənib.

Yeri gəlmişkən, 2017-ci ildə Dubayda ölkəmizin Ticarət nümayəndəliyi fəaliyyətə başlayıb. Bundan iki il sonra isə bu şəhərdə yerli məhsulların BƏƏ və Körfəz ölkələrində satışını təşkil etmək və "Made in Azerbaijan" brendini bazarlarda daha çox tanıtmaq üçün "Azərbaycan ticarət evi" açılıb.

Xatırladaq ki, 2021-ci il aprelin 6-da Energetika Nazirliyi, "AzərEnerji" ASC və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında investisiya, enerji alqı-satqısı və ötürücü şəbəkəyə qoşulma ilə bağlı müqavilələr imzalanıb. Bu müqavilələr əsasında qurulan əməkdaşlıq çərçivəsində 2022-ci il martın 15-də "Gülüstan" sarayında Prezident İlham Əliyevin iştirakı ilə Xəzər regionunda və MDB məkanında ən böyük günəş elektrik stansiyasının–Qaradağ Günəş Elektrik Stansiyasının təməli qoyulub.

Ötən ilin oktyabrında istifadəyə verilən həmin stansiyanın açılış mərasimində çıxışı zamanı dost Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycanın əlaqələrinin yüksək səviyyəsini bir daha vurğulayan dövlətimizin başçısı deyib: "Bizim ikitərəfli münasibətlərimiz çox yüksək səviyyədədir. Həm siyasi, həm iqtisadi, həm də digər sahələrdə uğurla əməkdaşlıq edirik. Ticarət əlaqələrimiz artır, turizm sahəsində çox böyük imkanlar var və şadam ki, bu sahədə də artım göz qabağındadır. Bir sözlə, Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında əlaqələrin böyük perspektivi var".

Hazırda iki ölkə arasında işgüzar əlaqələr genişləndirilir, KOB-lar arasında tərəfdaşlığın genişləndirilməsi istiqamətində işlər sürətlə davam etdirilir. Azərbaycan ilə BƏƏ arasında ticarət dövriyyəsi həcminin davamlı artımı müşahidə olunur. Respublikamızda sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti, ticarət və xidmət xarakterli 350-dən çox BƏƏ investisiyalı kommersiya qurum fəaliyyət göstərir.

Enerji sektoru ilə bağlı məsələyə gəldikdə isə vurğulayaq ki, 2021-ci ilin aprel ayında Energetika Nazirliyi və "Azərenerji" ASC ilə BƏƏ-nin "Masdar" şirkəti arasında 230 MVt gücündə günəş elektrik stansiyası layihəsi üzrə müvafiq müqavilələr imzalanaraq, həmin sənədlərin icrasının həyata keçirilməsinə başlanılıb. Xatırladaq ki, ilkin hesablamalara əsasən, sözügedən stansiyada il ərzində 500 milyon kVt/st elektrik enerjisinin istehsal olunacağı proqnozlaşdırılıb. Belə bir proqnozun gerçəkləşəcəyi təqdirdə isə ildə 110 milyon kubmet təbii qaza qənaət ediləcəyi, 200 min tondan artıq karbon emissiyasının atmosferə atılmasının qarşısını alınacağı və 110 min evin elektrik enerjisi ilə təmin olunacağı nəzərdə tutulub. Beləliklə, ümumi dəyəri, təqribən, 200 milyon dollar təşkil edən layihənin tam olaraq xarici investisiya hesabına icrası planlaşdırılıb.

***Vaqif BAYRAMOV***
***XQ***

### Ekspert rəyi

**Emin BAĞIROV,**
**ETN-nin Riyaziyyat və Mexanika İnstitutunun böyük elmi işçisi, mexanika üzrə fəlsəfə doktoru**



Birləşmiş Ərəb Əmirlikləri respublikamızla birgə elektrik enerjisi layihəsinin reallaşdırılmasına mühüm önəm verir. 2021-ci ilin aprel ayında Energetika Nazirliyi və "Azərenerji" ASC ilə bu ölkənin BƏƏ-nin "Masdar" şirkəti arasında 230 MVt gücündə günəş elektrik stansiyası layihəsi üzrə "İnvestisiya müqaviləsi", "Enerji alqı-satqı müqaviləsi" və "Ötürücü şəbəkəyə qoşulma müqaviləsi"nin imzalanması da bunun bariz ifadəsidir. Xatırladım ki, ilkin hesablamalara əsasən, stansiya tərəfindən illik 500 milyon kVt/st elektrik enerjisi istehsal olunacağı nəzərdə tutulur.

Azərbaycanın əzəli-əbədi ərazisi olan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları işğaldan azad edildikdən sonra bu torpaqlardakı yaşayış sahələrində genişmiqyaslı bərpa və quruculuq işləri aparılmasında dost BƏƏ şirkətlərinin də iştirakı dəstəklənib. Ələt Azad İqtisadi Zonasında həyata keçiriliəcək layihələrin icrası da bu ölkənin biznes dairələrinin diqqətini çəkib.

Yeri gəlmişkən, BƏƏ-nin "Dar əl-Bir" Xeyriyyə Cəmiyyəti, Zayed bin Sultan Əl Nəhyan Xeyriyyə Təşkilatı kimi humanitar qurumları tərəfindən 30 ilə yaxın müddətdə məcburi köçkün soydaşlarımıza müntəzəm olaraq humanitar yardımlar göstərilib.

Yeri gəlmişkən, İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Sumqayıt Kimya Sənaye Parkında BƏƏ-nin "SENSEMI DMCC" şirkəti qeydiyyata alınıb. BƏƏ kapitallı bu şirkətin Azərbaycandakı nümayəndəliyi tərəfindən adıçəkilən parkın 1 hektar ərazisində elektrik avtomat və sayğac istehsalını həyata keçirəcək müəssisənin inşası nəzərdə tutulub. İnvestisiya dəyəri 26 milyon manatdan çox olan zavodda 83 nəfərin daimi işlə təmin ediləcəyi, burada buraxılan məhsulların daxili bazara satılması ilə yanaşı, ixracı da planlaşdırılıb.

Prezident İlham Əliyevin 2016-cı il fevral ayında BƏƏ-yə reallaşan səfəri zamanı "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında dəniz nəqliyyatı üzrə institusional əməkdaşlığa dair Saziş", "Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Telekommunikasiya Sektorunun Tənzimlənməsi üzrə Baş Departamenti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanıb. Ötən müddətdə bu məsələlərlə əlaqədar önəmli layihələr həyata keçirilib.

Yanvarın 9-da Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın respublikamıza rəsmi səfəri zamanı Azərbaycan və BƏƏ arasında enerji tərəfdaşlığını gücləndirən sənədlərin imzalanması ilə tərəflərin münasibərlərində yeni mərhələ başlanıb. "Birləşmiş Ərəb Əmirliklərinin İnvestisiya Nazirliyi və Azərbaycan Respublikasının Energetika Nazirliyi arasında elektrik enerjisinin ötürülməsi layihələri üzrə İnvestisiya Əməkdaşlığına dair Anlaşma Memorandumu", "Azərbaycanın bərpa olunan və təmiz enerji potensialından istifadənin daha da gücləndirilməsi və Yaşıl Enerjinin İxracı Əməliyyatlarına imkan verən Strateji Əməkdaşlıq üzrə Çərçivə Müqaviləsi", "Azərbaycanda quruda quraşdırılacaq 1 qiqavat gücündə günəş və külək layihələrinin inşası üçün Tədbirlər Təqvimi (Yol Xəritəsi)", həmçinin SOCAR və ADNOC arasında Strateji Əməkdaşlıq Sazişi enerji tərəfdaşlığını daha da gücləndirmək üçün əlverişli zəmin yaradıb.

Xatırladım ki, adıçəkilən Anlaşma Memorandumu enerji sektorunda, xüsusilə elektrik enerjisinin ötürülməsi layihələrində investisiya əməkdaşlığı üzrə çərçivənin yaradılmasını, şəbəkənin inkişafını, texniki bilik və təcrübə mübadiləsini nəzərdə tutur. Strateji əməkdaşlıq sənədi isə quruda 2 qiqavat günəş, 2 qiqavat külək, dənizdə 6 qiqavat külək enerjisi layihələri ilə yanaşı, damüstü günəş enerjisi layihələri, "yaşıl hidrogen", "yaşıl ammonyak," sintetik metan, dayanıqlı aviasiya yanacağı istehsalı və "yaşıl enerji"-nin ixracı kimi yeni istiqamətlər üzrə əməkdaşlığı, investisiya imkanlarının öyrənilməsini əhatə edir. "Azərbaycanda quruda quraşdırılacaq 1 qiqavat gücündə günəş və külək layihələrinin inşası üçün Tədbirlər Təqvimi (Yol Xəritəsi)" 2 günəş və 1 külək enerjisi layihələrinin 2024-2027-ci illər üzrə icra tədbirlərini əks etdirir.

**Bu il martın 1-də Bakıda Cənub Qaz Dəhlizi (SGC) Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu toplantısı və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclası keçiriləcək.**

# Azərbaycanın beynəlxalq enerji əməkdaşlığında önəmli platforma

## Cənub Qaz Dəhlizi Məşvərət Şurası 10-cu dəfə Bakıda toplaşacaq

Bu barədə Energetika Nazirliyindən məlumat verilib. Energetika nazirinin müşaviri Zəminə Əliyevanın bildirdiyinə görə, hazırda iclaslarda iştirak edəcək mötəbər qonaqların siyahısı dəqiqləşdirilir. Bununla belə, əvvəlki illərdə olduğu kimi, budəfəki tədbirdə də bir sıra tanınmış beynəlxalq enerji şirkətlərinin və maliyyə qurumlarının nümayəndələrinin iştirakı gözlənilir.

Qeyd edək ki, artıq ənənəvi xarakter almış Cənub Qaz Dəhlizi Məşvərət Şurasının ötən iclasları müzakirə olunan məsələlər, aparılan diskussiyalar baxımından xeyli maraqlı və yaddaqalan olub. Elə iştirakçıların say tərkibinin ildən-ilə genişlənməsi, tədbirə bir sıra yeni ölkələrin dövlət və hökumət nümayəndələrinin qatılması da tədbirə olan beynəlxalq maraqdan irəli gəlir.



Avropanın enerji xəritəsinin zənginləşdirilməsinə mühüm töhfələr verən Azərbaycan müstəqil iqtisadi siyasət yürüdən bir ölkə kimi qlobal enerji və nəqliyyat layihələrinin təşəbbüskarı və fəal iştirakçısı rolunda çıxış edir. Enerji sahəsində Avropa İttifaqı ilə uğurlu əməkdaşlıq isə ölkəmizə olan inam və etibarı getdikcə artırır. Elə son illər bir sıra Avropa ölkələrinin Azərbaycandan daha çox qaz almağa can atması, eləcə də yeni alıcıların meydana çıxması da məhz bu inamdan irəli gəlir. Bunun üçün isə fəal danışıqlara, fikir mübadiləsi aparmağa daha çox ehtiyac duyulur. Bu baxımdan artıq ənənəvi xarakter almış Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin iclası xüsusi əhəmiyyət kəsb edir. Enerji sahəsində beynəlxalq əməkdaşlığın Bakı platforması kimi dəyərləndirilən bu tədbir Azərbaycanın imkanlarının nümayişi ilə yanaşı, ötən illərdə qazanılan uğurlar, ölkəmizin Avropanın enerji xəritəsinin zənginləşdirilməsinə verdiyi mühüm töhfələr haqqında da aydın təsəvvür yaradır.

Yeri gəlmişkən, artıq onuncu dəfə təşkil olunan Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin iclasının keçirilməsi, eləcə də Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasının baş tutması Azərbaycanın Avropanın enerji təminatında getdikcə artmaqda olan rolununun bariz nümunəsidir. İqtisadiyyatını getdikcə şaxələndirərək inkişaf etdirən Azərbaycan Avropanın enerji təhlükəsizliyini təkcə neft-qaz potensialı ilə də deyil, həm də alternativ enerji mənbələri hesabına təmin etməsi işində əhəmiyyətli addım atıb.

Bu baxımdan martın 1-də Bakıda keçiriləcək Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu toplantısından gözləntilər daha çoxdur. Bir sıra ölkələrin nazirlərinin, beynəlxalq enerji şirkətlərinin nümayəndələrinin və digər qonaqların iştirakı ilə keçiriləcək budəfəki iclasda Avropa bazarına daha çox qaz nəql edilməsi ilə bağlı imkanların nəzərdən keçiriləcəyini, bununla bağlı geniş fikir mübadiləsinin aparılacağını təxmin etmək olar.

Yeri gəlmişkən, Cənub Qaz Dəhlizi layihəsinə "Şahdəniz" yatağının ikinci işlənmə mərhələsi, Bakı–Gürcüstan–Türkiyə sərhədi Cənubi Qafqaz boru kəməri magistralının genişləndirilməsi, Türkiyənin şərq sərhədindən qərb sərhədinə qədər Trans-Anadolu Qaz Kəmərinin (TANAP) və Yunanıstan, Albaniya və İtaliyanın cənubunu birləşdirən Trans-Adriatik Qaz Kəmərinin (TAP) tikintisi daxildir. Layihənin ümumi dəyəri 33 milyard ABŞ dolları təşkil edir.

Azərbaycan qazının Avropaya ixracına 2020-ci il dekabrın 31-də başlanılıb. 2021-ci ildə Avropaya ixrac 8,1 milyard kubmetr, 2022-ci ildə 11,4 milyard kubmetr, 2023-cü ildə isə təxminən 12 milyard kubmetr təşkil edib. Hazırda Avropada Azərbaycan qazının alıcıları İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya və Macarıstandır. 2024-cü ildə isə Serbiyaya qaz ixracına başlanılacaq.

Xatırladaq ki, Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin ilk toplantısı 2015-ci il fevralın 12-də, ikinci toplantı 2016-cı il fevralın 29-da, üçüncü toplantı 2017-ci il fevralın 23-də, dördüncü toplantı 2018-ci il fevralın 15-də, beşinci toplantı 2019-cu il fevralın 20-də, altıncı toplantı 2020-ci il fevralın 28-də, yeddinci toplantı 2021-ci il fevralın 11-də, səkkizinci toplantı 2022-ci ilin fevralın 4-də, doqquzuncu toplantı isə 2023-cü ilin fevralın 3-də keçirilib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

### Ekspert rəyi

**İlham ŞABAN,**
**Neft Araşdırmaları Mərkəzinin rəhbəri**



Azərbaycanda bu il də Cənub Qaz Dəhlizi Məşvərət Şurasının iclası keçiriləcək. Bu, sayca 10-cu, yəni yubiley tədbiridir. Soruşula bilər ki, bu toplantı niyə keçirilir, ümumiyyətlə, nəyə görə ənənəvi xarakter alıb? Axı, Cənub Qaz Dəhlizi 3 ildən artıqdır ki, istismardadır. Məsələ burasındadır ki, Xəzər regionu ilə Avropa qitəsi arasında enerji körpüsü rolu oynayan bu dəhliz genişləndirilməlidir. Məlum olduğu kimi, artıq bu işin mərhələli şəkildə həyata keçirilməsinə start verilib.

Bundan əlavə, əgər Cənub Qaz Dəhlizi 2018-ci il iyunun 30-da işə başlayanda onun resurs bazası rolunda yalnız "Şahdəniz" qazı çıxış edirdi. Yəni bu dəhlizlə ancaq bir yatağımızdan hasil edilən qaz ixrac olunurdu. Yaxın 3 il ərzində genişləndirilməsi nəzərdə tutulan Cənub Qaz Dəhlizi ilə Azərbaycanın digər yataqlarının ehtiyatlarından da resurs kimi istifadə olunacaq. Məhz Avropanın enerji xəritəsinin zənginləşdirilməsinə xidmət edən bu nəhəng qaz ixracı marşrutunun genişləndirilməsi Azərbaycanın digər qaz yataqlarının da yeni işlənmə mərhələsinə qədəm qoymasına imkan yaradacaq.

Bu baxımdan "Abşeron" yatağını misal çəkmək olar. Məlum olduğu kimi, ötən il buradan ilk qaz hasil edildi. Cari ildə isə yatağın tammiqyaslı işlənməsi ilə bağlı yekun investisiya qərarı verilməlidir. Bundan sonra isə işlərə başlanmalıdır ku, Cənub Qaz Dəhlizi genişləndirildikdən sonra "Abşeron"un daha iri qaz həcmlərini Avropa bazarlarına çıxarmaq mümkün olsun.

Bundan əlavə, bu il ölkəmiz COP29 konfransına ev sahibliyi edəcək. bu da təsadüfi deyil. Çünki Avropanın bir sıra ölkələrinin enerji təhlükəsizliyinin təminatında yaxından iştirak edən Azərbaycan, həm də "yaşıl keçid" platformasının da fəal iştirakçısına çevrilib. Artıq ölkəmizdə "yaşıl enerji" layihələri ilə bağlı mühüm layihələr də həyata keçirilir.

Məlum olduğu kimi, martın ilk günündə start götürən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu toplantısı ilə yanaşı, Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclası da keçiriləcək. Bu baxımdan enerji məsələlərinə həsr olunmuş mötəbər beynəlxalq görüşdən gözləntilər çoxdur. Düşünürəm ki, budəfəki toplantı müzakirə mövzuları baxımından daha səmərəli, daha rəngarəng olacaq...



# Avtomobil istehsalı 6 dəfə artıb

**Azərbaycanın sənaye zonalarında fəaliyyət göstərən avtomobil istehsalı müəssisələrində müsbət dinamika müşahidə edilir. Bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki hesabında paylaşım edib.**

"Sənaye zonalarında ilk avtomobil istehsalına 2018-ci ildə başlanılıb. Həmin il 712 ədəd avtomobil istehsal edilmişdisə, 2023-cü ildə bu rəqəm 4 min 233 təşkil edib. Bu, ötən illə müqayisədə, təqribən, 109 faiz artım deməkdir", – deyə nazir bildirib.

***XQ***

# Qarabağ ölkənin "polad magistral" şəbəkəsinə qoşulur

**Bərdə–Ağdam dəmir yolunun tikintisi sona yaxınlaşır. Artıq yolun Ağdam şəhərinin mərkəzinə qədər olan hissəsinin tikintisi başa çatdırılıb. Ümumilikdə isə, layihə üzrə işlərin 90 faizi tamamlanıb.**

"Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) mətbuat katibliyi şöbəsinin müdiri Sənubər Nəzərovanın bildirdiyinə görə, yola saldığımız 2023-cü il Qarabağda dəmir yolu infrastrukturunun qurulması baxımından əlamətdar olub. İşğaldan azad olunmuş ərazilərdə dəmir yolu infrastrukturunun yenidən qurulmasına 2020-ci ildən başlanıldığını xatırladan şöbə müdiri Bərdə, Təzəkənd və Köçərli stansiyalarının tikintisi üzrə işlərin tamamlanmaq ərəfəsində olduğunu diqqətə çatdırıb. O deyib ki, 47,1 kilometr uzunluğunda olan dəmir yolu xəttinin inşası tədricən sona yaxınlaşır. Ümumilikdə isə, təsərrüfat obyektləri, yeni yardımçı infrastruktur tamamlandıqdan sonra layihə tam hazır olacaq.



Bu il ərzində dəmir yolu və avtovağzal kompleksinin yeni vahid nəqliyyat qovşağı şəklində tikintisinə start veriləcəyini vurğulayan S.Nəzərova, həmçinin qeyd edib ki, hazırda Bakı–Böyük Kəsik dəmir yolu xəttinin Qarabağ qolu hesab olunan Yevlax–Bərdə yolunun layihələndirilməsi aparılır. Onun sözlərinə görə, bütün bu işlərin görülməsində əsas məqsəd ölkə boyu dəmir yolu infrastrukturunun, xüsusilə də işğaldan azad edilmiş ərazilərdə yenidən qurulmasına və sağlamlaşdırılmasına mərhələli şəkildə nail olunmasından ibarətdir.

***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 491 Bakı şəhəri, 30 dekabr 2023-cü il

***"İnformasiya resurslarının dövlət satınalmalarının vahid internet portalına inteqrasiya olunması hədləri"nin təsdiq edilməsi haqqında***

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.18-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "İnformasiya resurslarının dövlət satınalmalarının vahid internet portalına inteqrasiya olunması hədləri" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş hədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə dövlət satınalmalarının vahid internet portalına uyğun olaraq real vaxt rejimində satınalan təşkilata və dövlət satınalmalarının vahid internet portalının operatoruna ötürülməsi üçün zəruri tədbirlər görsün.

**3.** Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 492 Bakı şəhəri, 30 dekabr 2023-cü il

***"Satınalan təşkilatların, satınalma müqavilələrinin və etibarsız təchizatçıların reyestrlərinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında***

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Satınalan təşkilatların, satınalma müqavilələrinin və etibarsız təchizatçıların reyestrlərinin aparılması Qaydaları" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 493 Bakı şəhəri, 30 dekabr 2023-cü il

***"Dövlət satınalmalarının vahid internet portalı haqqında Əsasnamə"nin və elektron satınalmanın keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında***

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.6-cı yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Dövlət satınalmalarının vahid internet portalı haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

**2.** "Elektron satınalmanın keçirilməsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).

**3.** Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 494 Bakı şəhəri, 30 dekabr 2023-cü il

***"Açıq tender, ikimərhələli tender, qapalı tender və kotirovka sorğusu metodları üzrə təchizatçıların satınalma müqaviləsinin icrası üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, maliyyə imkanlarının və ödəmə qabiliyyətinin olması tələblərinə uyğunluğunun qiymətləndirilməsi meyarları"nın təsdiq edilməsi haqqında***

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.12-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Açıq tender, ikimərhələli tender, qapalı tender və kotirovka sorğusu metodları üzrə təchizatçıların satınalma müqaviləsinin icrası üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, maliyyə imkanlarının və ödəmə qabiliyyətinin olması tələblərinə uyğunluğunun qiymətləndirilməsi meyarları" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 495 Bakı şəhəri, 30 dekabr 2023-cü il

***"Satınalma güzəştinin tətbiqi Qaydası"nın təsdiq edilməsi və "Güzəştlərin tətbiqi Qaydasının və bölünən hissələrin məbləğinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 28 oktyabr tarixli 165 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.13-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Satınalma güzəştinin tətbiqi Qaydası" təsdiq edilsin (əlavə olunur).

**2.** "Güzəştlərin tətbiqi Qaydasının və bölünən hissələrin məbləğinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 28 oktyabr tarixli 165 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 648; 2016, № 7, maddə 1364; 2019, № 4, maddə 746, № 7, maddə 1334; 2020, № 9, maddə 1202; 2023, № 8 (II kitab), maddə 1265) 1-ci hissəsi ləğv edilsin.

**3.** Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 497 Bakı şəhəri, 30 dekabr 2023-cü il

***Çərçivə sazişinin, təklif sorğusunun və sadə satınalma müqaviləsinin nümunəvi formasının təsdiq edilməsi haqqında***

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.17-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Çərçivə sazişinin nümunəvi forması" təsdiq edilsin (1 nömrəli əlavə).

**2.** "Təklif sorğusunun nümunəvi forması" təsdiq edilsin (2 nömrəli əlavə).

**3.** "Sadə satınalma müqaviləsinin nümunəvi forması" təsdiq edilsin (3 nömrəli əlavə).

**4.** Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

***Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 496 Bakı şəhəri, 30 dekabr 2023-cü il

***"Dövlət satınalmalarının vahid internet portalından istifadə üçün ödənilən istifadə haqqının və təklifləri təqdim etmək üçün ödənilən iştirak haqqının məbləğləri, onların ödənilməsi, geri qaytarılması və ödənilmiş vəsaitlərin bölgüsü və onlardan istifadə Qaydaları"nın təsdiq edilməsi və "Açıq tender və ya kotirovka sorğusu üsulunu tətbiq etməklə elektron satınalma vasitəsilə keçirilən satınalmalarda iştirak haqqının məbləğinin, ödənilməsi və onlardan istifadə Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 20 dekabr tarixli 396 nömrəli Qərarının ləğv edilməsi barədə***

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.11-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Dövlət satınalmalarının vahid internet portalından istifadə üçün ödənilən istifadə haqqının və təklifləri təqdim etmək üçün ödənilən iştirak haqqının məbləğləri, onların ödənilməsi, geri qaytarılması və ödənilmiş vəsaitlərin bölgüsü və onlardan istifadə Qaydaları" təsdiq edilsin (əlavə olunur).

**2.** "Açıq tender və ya kotirovka sorğusu üsulunu tətbiq etməklə elektron satınalma vasitəsilə keçirilən satınalmalarda iştirak haqqının məbləğinin, ödənilməsi və onlardan istifadə Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 20 dekabr tarixli 396 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1520) ləğv edilsin.

**3.** Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 498 Bakı şəhəri, 30 dekabr 2023-cü il

***Uyğunluğa dair sənədlər toplusunun və uyğunluq göstəricilərinin qiymətləndirilməsi haqqında qərarın formasının təsdiq edilməsi barədə***

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.9-cu yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Uyğunluğa dair sənədlər toplusu" təsdiq edilsin (1 nömrəli əlavə).

**2.** "Uyğunluq göstəricilərinin qiymətləndirilməsi haqqında qərarın forması" təsdiq edilsin (2 nömrəli əlavə).

**3.** Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 499 Bakı şəhəri, 30 dekabr 2023-cü il

***"Satınalma metoduna uyğun olaraq satınalmanın nəticələri haqqında yekun protokolun Forması"nın təsdiq edilməsi və "Tenderin nəticələri haqqında tender komissiyasının yekun protokolunun nümunəsinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 2 avqust tarixli 124 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.14-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Satınalma metoduna uyğun olaraq satınalmanın nəticələri haqqında yekun protokolun forması" təsdiq edilsin (əlavə olunur).

**2.** "Tenderin nəticələri haqqında tender komissiyasının yekun protokolunun nümunəsinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 2 avqust tarixli 124 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 535; 2016, № 4, maddə 831; 2019, № 4, maddə 746; 2021, № 10, maddə 1162; 2023, № 8 (II kitab), maddə 1265) 1-ci hissəsi ləğv edilsin.

**3.** Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 500 Bakı şəhəri, 30 dekabr 2023-cü il

***"Satınalma planının formasının, habelə satınalma planında, uyğunluğa dair sənədlər toplusunda, şərtlər toplusunda və təkliflərin cəlb edilməsi barədə elanda (dəvətdə) satınalma predmetinin qeyd olunması üçün təsnifat kodlarının və onlardan istifadə Qaydası"nın təsdiq edilməsi haqqında***

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.7-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Satınalma planının forması" təsdiq edilsin (əlavə olunur).

**2.** "Satınalma planında, uyğunluğa dair sənədlər toplusunda, şərtlər toplusunda və təkliflərin cəlb edilməsi barədə elanda (dəvətdə) satınalma predmetinin qeyd olunması üçün təsnifat kodları və onlardan istifadə Qaydası" təsdiq edilsin (əlavə olunur).

**3.** Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 501 Bakı şəhəri, 30 dekabr 2023-cü il

***"Ehtimal olunan qiymətin hesablanması Qaydası"nın təsdiq edilməsi haqqında***

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.8-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Ehtimal olunan qiymətin hesablanması Qaydası" təsdiq edilsin (əlavə olunur).

**2.** "Malların (işlərin və xidmətlərin) ehtimal olunan qiymətlərinin hesablanması üsulları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 18 mart tarixli 106 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 540) ləğv edilsin.

**3.** Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

***Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 502 Bakı şəhəri, 30 dekabr 2023-cü il

***"Satınalma predmeti üzrə satınalma müqaviləsinin nümunəvi forması"nın təsdiq edilməsi və "Mallar (işlər və xidmətlər) üzrə satınalma müqaviləsinin nümunəsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 28 fevral tarixli 34 nömrəli Qərarının ləğv edilməsi barədə***

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.15-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Mallar üzrə satınalma müqaviləsinin nümunəvi forması" təsdiq edilsin (əlavə olunur).

**2.** "Xidmətlər üzrə satınalma müqaviləsinin nümunəvi forması" təsdiq edilsin (əlavə olunur).

**3.** "İşlər üzrə satınalma müqaviləsinin nümunəvi forması" təsdiq edilsin (əlavə olunur).

**4.** "Mallar (işlər və xidmətlər) üzrə satınalma müqaviləsinin nümunəsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 28 fevral tarixli 34 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 2, maddə 149; 2019, № 4, maddə 746; 2021, № 5, maddə 520, № 10, maddə 1162) ləğv edilsin.

**5.** Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 503 Bakı şəhəri, 30 dekabr 2023-cü il

***"Şərtlər toplusunun nümunəvi forması"nın təsdiq edilməsi haqqında***

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.10-cu yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "İşlərin açıq tender metodu ilə satın alınması üçün şərtlər toplusunun nümunəvi forması" təsdiq edilsin (1 nömrəli əlavə).

**2.** "Malların açıq tender metodu ilə satın alınması üçün şərtlər toplusunun nümunəvi forması" təsdiq edilsin (2 nömrəli əlavə).

**3.** "Xidmətlərin açıq tender metodu ilə satın alınması üçün şərtlər toplusunun nümunəvi forması" təsdiq edilsin (3 nömrəli əlavə).

**4.** "Satınalma predmetinin ikimərhələli tender metodu ilə satın alınması üçün şərtlər toplusunun nümunəvi forması" təsdiq edilsin (4 nömrəli əlavə).

**5.** "İşlərin qapalı tender metodu ilə satın alınması üçün şərtlər toplusunun nümunəvi forması" təsdiq edilsin (5 nömrəli əlavə).

**6.** "Malların qapalı tender metodu ilə satın alınması üçün şərtlər toplusunun nümunəvi forması" təsdiq edilsin (6 nömrəli əlavə).

**7.** "Xidmətlərin qapalı tender metodu ilə satın alınması üçün şərtlər toplusunun nümunəvi forması" təsdiq edilsin (7 nömrəli əlavə).

**8.** "İşlərin kotirovka sorğusu metodu ilə satın alınması üçün şərtlər toplusunun nümunəvi forması" təsdiq edilsin (8 nömrəli əlavə).

**9.** "Malların kotirovka sorğusu metodu ilə satın alınması üçün şərtlər toplusunun nümunəvi forması" təsdiq edilsin (9 nömrəli əlavə).

**10.** "Xidmətlərin kotirovka sorğusu metodu ilə satın alınması üçün şərtlər toplusunun nümunəvi forması" təsdiq edilsin (10 nömrəli əlavə).

**11.** "Satınalma predmetinin bir mənbədən satın alınması üçün şərtlər toplusunun nümunəvi forması" təsdiq edilsin (11 nömrəli əlavə).

**12.** Bu Qərar 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Ermənistanın xalqımızın mədəni irsini məhv etməsi beynəlxalq cinayətdir

**Ermənistanın Qərbi Azərbaycanda əsrlər boyu ata-baba torpaqlarında yaşamış soydaşlarımızın son nəsillərini soyqırımına və zorakı deportasiyaya məruz qoyması XX əsrin son dövrünün bəşəri cinayətlərindən biri kimi tarixə yazılıb. Bunun ardınca təcavüzkar dövlətin ölkəmizin 20 faiz ərazisini işğal edib yerli əhalini öz yurdunda məcburi köçkünə çevirməsi, şəhər və kəndlərimizi xarabazara döndərməsi isə tarixdə törədilmiş vandallıqların misilsiz nümunəsidir.**

Hazırda urbisid, ekosid, mədəni irsi məhvetmə əməlləri transmilli cinayət hüququnun əsas mənbəyindən biri kimi tanınan Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunda, eləcə də milli cinayət qanunvericiliyimizdə qismən müharibə cinayətlərinin (CM-nin 116-cı maddəsi üzrə) tərkibləri kimi əksini tapıb. Ermənistanın Qərbi Azərbaycanda və ölkəmizə qarşı 35 il davam etdirdiyi cinayətlər dinc əhalinin məhv edilməsi, soyqırımı, deportasiya, etnik təmizləmə və s. beynəlxalq cinayətlərin törədilməsi ilə yanaşı, mədəni irsi məhvetmə kimi vandallığın baş verməsinə də səbəb olub.



Ermənistanın xalqımızın öz yurdunda yaşamaq hüququna təcavüzü bir milyona yaxın mülki əhalinin həyat, sağlamlıq, öz doğma evlərində yaşamaq və s. haqlarına qəsd edərək mədəni sərvətlərin məhv edilməsinə və talanmasına da səbəb olmuşdur. Ümumiyyətlə, azərbaycanlılar son 2 əsrdə ermənilər və onların havadarları tərəfindən deportasiyaya, soyqırımına məruz qalıb, nəticədə, indiki Ermənistan adlanan ərazidəki öz ata-baba yurdlarından didərgin düşüblər. XX əsrdə azərbaycanlılar 4 dəfə – 1905–1906, 1918–1920, 1948–1953, 1988–1991-ci illərdə tarixi-etnik torpaqlarından deportasiya olunublar. Bu zaman soydaşlarımız soyqırımına, işgəncələrə, qırğınlara məruz qalıblar, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni məhv edilib.

Tarixçilərimizin araşdırmalarına görə, Qərbi Azərbaycanda vaxtilə azərbaycanlıların yaşadıqları 499 kənd zorla boşaldılıb və bu gün xaraba vəziyyətdədir. Azərbaycanlılara məxsus 702 toponim erməniləşdirilib. Təkcə Qərbi Zəngəzurda azərbaycanlılar 70-dən artıq kənddə yığcam şəkildə yaşayırdılar. Göyçə gölü hövzəsində də azərbaycanlılar əksəriyyət təşkil edirdilər. Qərbi Azərbaycanda soydaşlarımızın vaxtilə yaşadıqları 734 kənddə indi ermənilər məskunlaşıb.Vaxtilə Ermənistanın 170 kəndində ancaq azərbaycanlılar məskunlaşmışdılar. 90-a yaxın kənddə isə onlar çoxluq təşkil edirdilər. Qərbi azərbaycanlılar, ümumilikdə, 300-dən çox şəhər və kənddə yaşayırdılar. 1988-ci ildə onların hamısı Ermənistandan zorla qovuldular. Çox sayda dinc insan öldürüldü, işgəncələrə məruz qaldı. Son deportasiyaya isə 1991-ci ilin avqustunda Nüvədi kəndinin sakinləri məruz qaldılar.

Qərbi Azərbaycandan çıxarılmağımız və Qarabağın işğalı ümummilli faciəmizə çevrildi. Bütün bunlar barəsində xarici aləm məlumatlı olsa da, dünyaya hökm edən siyasi-dini mərkəzlərinin işarəsi ilə beynəlxalq qurumlar özlərinin yaratdıqları qaydaların açıq-aşkar tapdalanmasına göz yumdu. Ermənilərin mədəni irsin kimliyinin itirilməsi məqsədilə azərbaycanlılara məxsus tarixi sərvətləri məhv etməsi və ya erməniləşdirməsi Qərbi Azərbaycanda hələ XX əsrin əvvələrindən başlayıb və Qarabağın, eləcə də ətraf rayonların işğalı dövründə vəhşicəsinə davam etdirilib.

Millətçi və təcavüzkar Ermənistanın xalqımızın mədəni irsini məhv etməsi və ətraf mühitə sağalmaz yaralar vurması Cenevrə konvensiyalarının 1977-ci il I Əlavə protokolu ilə qadağan edilən "yandırılmış torpaq" müharibə taktikasından istifadə etməsi, ilk növbədə, onu göstərir ki, zəbt edilən həmin ərazilər heç vaxt onlara məxsus olmayıb. Qərbi Azərbaycanda, Qarabağ və ətraf rayonların işğal altında olan ərazilərində xalqımıza məxsus qədim mədəni irsin vəhşi bir ardıcıllıqla illər boyu məhv etməsi kimi bəşəriyyət əleyhinə cinayətlər bugünədək cəzasını almayıb.

Qarabağ bölgəsi və ətraf rayonların işğalı nəticəsində Azərbaycanın 23 muzeyinin 86 min 307 eksponatı, 4 şəkil qalereyasının 371 rəsm əsəri, 927 kitabxananın 4,6 milyon nüsxə kitabı, 13 arxivin 260 min sənədi, 5 min 300 memarlıq və arxeologiya abidəsi, 50 min tarixi əhəmiyyətli şəxsi kolleksiya sərvəti Ermənistan tərəfindən talanıb və ya məhv edilib. Onlarca kurqanın, qədim insan məskənlərinin, qəbristanlıqların, inanc yerlərinin, müsəlman dini abidələrinin və digər arxeoloji abidələrin tamamilə məhv edilməsi Azərbaycan tarixinə və mədəniyyətinə ciddi zərbə vurub. İlkin hesablamalara görə, bu zərərin ümumi məbləği 177 milyard ABŞ dolları təşkil edir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən açılmış cinayət işinin materiallarında qeyd olunur ki, "Xocalı, Ağdam, Füzuli ərazisindəki kurqanlar və digər tarixi mədəniyyət abidələri, eləcə də arxeoloji qazıntılar zamanı aşkarlanmış ümumdünya əhəmiyyətli 100 mindən artıq qiymətli və nadir eksponat məhv edilib və talanıb. Beynəlxalq təşkilatlar arasında ilkin olaraq Ermənistanın Azərbaycana qarşı təcavüzünü tanıyan İslam Əməkdaşlıq Təşkilatı işğal olunmuş torpaqlarımızda dini və mədəniyyət abidələrinin məhv edilməsi haqqında bir neçə qətnamə qəbul edib.

BMT-nin "Mədəniyyət sərvətlərinin qanunsuz olaraq gətirilməsinin, çıxarılmasının və onların üzərində mülkiyyət hüququnun başqasına verilməsinin qadağan edilməsinə və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında" 14 noyabr 1970-ci il tarixli Konvensiyasına əsasən, hər bir dövlətin arxeologiya, qədim dövr, tarix, ədəbiyyat, incəsənət və elm üçün əhəmiyyətli hesab etdiyi dini və ya dünyəvi dəyərli irs mədəni sərvətləri sayılır (maddə 1). Bundan əlavə, bu konvensiyada qeyd edilir ki, hər bir xalqın mədəni irsi üçün böyük əhəmiyyət kəsb edən memarlıq ansamblları (dini abidələr), incəsənət əsərləri, bədii, tarixi və ya arxeoloji əhəmiyyətli əlyazmalar, kitablar və digər əşyalar, həmçinin elmi kolleksiyalar, kitab və arxiv materialları, onların saxlandığı və ya sərgiləndiyi muzeylər, kitabxanalar və s. binalar mədəni sərvətlər sayılır.

Bundan başqa, mədəni sərvətlərin beynəlxalq-hüquqi müdafiəsi ilə bağlı "Silahlı münaqişələr zamanı mədəni sərvətlərin qorunmasına dair" 1954-cü il tarixli Konvensiya, UNESCO-nun "Dünya mədəni və təbii irsinin qorunmasına dair" 1972 il tarixli Konvensiya, "Arxeoloji irsin qorunmasına dair" 1992-ci il tarixli Avropa Konvensiyası, UNESCO-nun "Mədəni mülkiyyətin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz şəkildə başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəlmiş tədbirlər haqqında" 1970-ci il tarixli Konvensiya və s. beynəlxalq aktlarla tənzimlənir.

Azərbaycan tarixinin istər keçmiş, istərsə də son 30 illik reallığı sübut edir ki, mədəni irsin məhv edilməsi yalnız silahlı münaqişə zamanı yox, sülh zamanı da məqsədli şəkildə törədildiyi üçün bu əməl beynəlxalq cinayətlərin müstəqil bir növü olaraq "mədəni irsi məhv etmə" kimi kriminallaşdırılmalıdır. Hər halda, bizim Ermənistan tərəfindən məqsədli şəkildə geniş miqyasda mədəni sərvətlərimizin məhv edilməsi, talanması və saxtakarlıqla "özününküləşdirilməsi" danılmazdır və real faktlarla sübut olunur.



Bizim təklif etdiyimiz "mədəni irsi məhvetmə" anlayışı "mədəni soyqırımı" terminindən daha dəqiq və genişdir. Bu ifadə nəinki Qarabağ və ətraf rayonların işğal olunan ərazilərində məhv edilən, talanan və erməniləşdirilən mədəni sərvətləri, eləcə də Qərbi Azərbaycanda – tarixi türk torpaqlarında yaradılan indiki Ermənistanda məhv edilən mədəni sərvətləri də əhatə edir. Bu xüsusda nəzərə almaq lazımdır ki, Ermənistan və onların havadarları yüz ildən artıq "erməni soyqırımı" təşviqatına son vaxtlar fəal şəkildə "kultorisid" yalanını da əlavə edərək bütün dünyaya əsassız haray salırlar.

II Qarabağ müharibəsində Azərbaycanın parlaq qələbəsini həzm edə bilməyən Avropa Parlament Assambleyası 10 mart 2022-ci il tarixdə qərəzli, həqiqətin tam əksini ifadə edən "qətnamə" qəbul edib. Bu qərəzli sənəd ikili standartların parlaq nümünəsi olaraq Ermənistan tərəfindən Qərbi Azərbaycanda, Qarabağda və ətraf rayonlarda "yandırılmış torpaq" taktikasından istifadə edərək yerli əhali olan azərbaycanlıların yaşayış məntəqələrinin, tarixi abidələrinin və islam dini məbədlərinin, qəbiristanlıqların və s. maddi-mədəni, təbii sərvətlərin məhv edilməsini görməzliyə vurub. Onlar anti-Azərbaycan və antimüsəlman isteriyası ilə 44 günlük II Qarabağ müharibəsində, guya, "məhv edilən erməni mədəni irs"inə yalandan göz yaşı tökürlər.

30 illik işğal dövründə zəngin və qədim tarixi olan Azərbaycan xalqının mədəni irsinin məhv edilməsi təkzibedilməz faktlarla dönə-dönə sübuta yetirilib. Beynəlxalq təşkilatların və xarici ölkələrin nümayəndələri işğaldan azad olunan ərazilərdə bu bəşəri cinayətləri şəxsən seyr ediblər. Bütün bunlar IV Cenevrə Konvensiyasının, "Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında" 1954-cü il tarixli Haaqa Konvensiyasının, Avropa Şurasının "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il tarixli Konvensiyasının, UNESCO-nun "Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında" 1972-ci il tarixli Konvensiyasının müddəalarının pozulması kimi qiymətləndirilməli və bu cinayətlərin təşkilatçıları və icraçıları beynəlxalq hüquqi və mülki məsuliyyətə cəlb edilməlidirlər.

Ermənistanın işğalçılıq siyasəti, insan həyatına qarşı qəddarlığı, vandalizmi Qərbi Azərbaycanın mili-mədəni sərvətlərinin, tarixi abidələrinin tamamilə məhv edilməsinə və ya özününküləşdirilməsinə səbəb olub. Qərbi Azərbaycan bizim tarixi torpağımızdır. Bunu çoxsaylı tarixi sənədlər, xəritələr, bu icmanın yaddaşı və mövcudluğu qəti təsdiqləyir..

Bütün bunlar bir daha göstərir ki, Qərbi azərbaycanlıların hüquqları Cənubi qafqazda yaranmış reallıqlar müstəvisində bərpa olunmalı və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar. Prezident İlham Əliyev bu məsələni qarşıya ümummilli vəzifə olaraq qoyub. Dövlətimizin başçısı soydaşlarımızın ata-baba yurdlarına qayıtmasını dinc, sülh yolu ilə həllinə çalışır.

***Şəhla SƏMƏDOVA,***
***BDU-nun kafedra müdiri, professor, Qərbi Azərbaycan İcması hüquq şöbəsinin üzvü***

# Hayların "millətçilik epidemiya"sı

## "Yat bala, türk gəlib səni öldürər!"

**1983-cü ilin avqust ayı... Vedibasarın Arazdəyən kənd bağçasında tərbiyəçi işləyirdim. Qrupumda erməni uşaqlar da var idi. Onlardan biri də şəkildə gördüyünüz Karine idi. 3 yaşı yenicə tamam olmuşdu. Bütün uşaqlar kimi Karinenin də sevgisi saf idi. Elə özü kimi böyüməkdə olan nifrəti də.**

Həmin avqust səhəri Karine elə bir üzgün halda bağçaya gəlmişdi ki, düşünmüşdüm: yəqin, evdə onu incidiblər. Həmişəki kimi, onu qucağıma alıb başımın üzərinə qaldıraraq fırlatmağa başladım. Karine hönkürərək qollarını boynuma doladı və hıçqırıqdan boğula-boğula "Əsli bacı, sən türk olma" sözlərini təkrar etməyə başladı. Toppuş əlləri ilə məni elə qucaqlamışdı ki. Sanki, buraxsa, həmin an "türk" olacaqdım. Karinenin mənə olan bağlılığı göz yaşlarına qarışıb toppuş yanaqlarından süzülürdü. Qollarım süstal-



dı. Dönüb anası Larisaya baxdım. O, qınayıcı baxışımı anlayıb dedi: "Karine, bu gecə sizin türk olmağınızı bilib və bütün gecəni ağlayıb".

Karinenin hələ 3 yaşı vardı. Onun mənə olan sevgisinin yerini nifrət tutmağa hazır idi. Mənim türk olmağımdan bütün gecə ağlamışdı. Bundan sonra bəzən Karine mənim türk olmağımı unudurdu. Amma xatırlayan kimi uzaqlaşırdı. Onun bu haldan nə qədər üzüldüyünü indi də xatırlayıram. Gözlərini mənə dikir, baxır, sonra üzünü çevirirdi. Karine o gündən sonra heç vaxt mənə əvvəlki kimi sarılmadı.

Aradan artıq 40 il zaman keçib. Amma hələ də Karinedə türkə qarşı oyadılmış nifrəti və mənə olan əvvəlki sevgisindən doğan "Əsli bacı, sən türk olma" hıçqırtısını və anasının "Karine bu gecə sizin türk olmağınızı bilib və bütün gecəni ağlayıb" cavabını unuda bilmirəm. İllərdir ki, hər dəfə bu hadisəni xatırlayanda, sanki, yenidən yaşamış kimi sarsılıram. Amma heç vaxt Karineni qınamadım. Bütün bunlarda 3 yaşlı qızcığazın günahı yox idi. Onu bu hala salan nifrətə köklənmiş zəhərli erməni millətçiliyinin kiçicik bir damlası idi. Erməni cəmiyyətini psixoloji aşınmaya, qanlı düşmənçiliyə aparan saxta ideologiya. Bunun özülündə türkə qarşı beşikdən körüklənən nifrət dayanırdı.

Yenə də Arazdəyən kənd bağçası. Qrupun dayəsi yaşlı erməni qadını idi. "Marquş doda" (xala) deyərdik. O, uşaqları yatırarkən söyləyirdi: "Yat, yoxsa türk gəlib qarnını xəncərlə yırtacaq", "Yat, yoxsa türk gəlib qanını içəcək". Deyirdim: Marquş xala, nədən elə deyirsiniz, düz etmirsiniz axı? Cavabı belə olurdu: "Qorxuduram ki, tez yatsınlar, qulağımız dincəlsin". Erməni cəmiyyətində türk obrazı ilə uşaqları qorxutmaq adi bir hal idi... Hələ "xalqlar dostluğu"nu bayrağa çevirmiş sovet dönəmində də!

Qonşumuz Lusik xala da nəvələrini türklərlə qorxudurdu. "Ay uşaq gəl evə, yoxsa türk gəlib indi sənin ciyərini çıxardacaq" və s. Əminəm ki, Qərbi Azərbaycanda yaşamış soydaşlarım bu ölümsaçan gerçəyin davamlı mənzərəsi ilə dönə-dönə rastlaşıblar. Bəs mən niyə bunları yenidən xatırlamalı oldum?

Bugünlərdə Avropa Parlamentinin kürsüsündən Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın və digərlərinin Azərbaycanda ermənilərə qarşı törədilən "soyqırımla" bağlı hay-küyləri və 1988-ci ildən bəri lal, kar, kor olan həmin Avropadan "möhtəşəm dəstək" almaları haqqında Ermənistan telekanallarında aşıb-daşan açıqlamalara baxarkən karinelərin körpə beyinlərinə yeridilən nifrət zəhərinin yaratdığı mənzərəni yada salmaya bilmədim. Belə yerdə deyiblər ki, adımı sənə qoyum...

Guya, Ararat Mirzoyan bilmir ki, erməni gəncliyi beşikdən, bağcadan, məktəbdən başlayaraq türkə nifrət ruhunda yetişdirilib? Azərbaycanda ermənilərə nifrətdən danışan Ararat Mirzoyan, yoxsa erməni həyatının bütün sferalarındakı türkə nifrət ruhundan xəbərsizdir? Erməni incəsənəti, ədəbiyyatı, kinosu, musiqisi, demək olar ki, türkə nifrət üzərində köklənib: Türk barbardır! Türk vəhşidir! Türk qaniçəndir! Türk qadın, qoca, uşaq bilmədən hər kəsi qanına qəltan edir! Bir sözlə, türk canidir! Şübhəsiz, Ararat Mirzoyanı da ermənilərin bu nifrət himninin sədaları altında böyüyüb belə qatı antitürk




diplomata səviyyəsinə yüksəlib. Nə yazıq ki, illərdir aparılan bu ideoloji təbliğat artıq erməni cəmiyyətinin iliyinə işləyib. İliyə çatan virus isə sağalmaz olur. Əslində, ermənilərin heç sağalmaq niyyətləri də yoxdur. Bu, ondan irəli gəlir ki, türk düşmənçiliyi, rəsmi və qeyri-rəsmi olsun, fərqi yixdur, həmişə açıqca təbliğ olunub.

Ermənistanın dövlət televiziyasında yayımlanan "Mer gyuğı" ("Bizim kənd") filminin 8-ci seriyasının 20-ci dəqiqəsində həbs edilmiş ərini müdafiə edən qadının "Mənim Vacom, həyatında türkdən başqa bir can öldürməmişdir. Mənim ərim indi cinayətkardır?"– deməsi erməni gəncliyinə nə aşılayır? Elə həmin filmin 1-ci seriyasının 35-ci dəqiqəsində tualetin "türk səfirliyi" kimi təqdim olunması "mədəniyyət"inə, görəsən, Ararat Mirzoyan Avropa Parlamentində necə izahat verər?

Və yaxud, 2002-ci ildə Atom Eqoyanın rejissorluğu ilə Kanada və Fransanın müştərək çəkdiyi "Ararat" filminin 99-cu dəqiqəsində "vəhşi türk" zabitinin hamilə erməni qadınını insanların, habelə 3–4 yaşlı övladının gözü qarşısında zorlaması (yenə: adımı sənə qoyum... həyasızlığı) səhnəsini, görəsən, Ararat Mirzoyan, bunu bapbalaca karinelərin, erməni cəmiyyətinin zəhərlənməsi kimi izah etməyə cürəti çatarmı?

Və yaxud bir neçə il əvvəl Ermənistanın İctimai televiziyasında yayımlanan, sabiq prezident Serj Sarkisyanın və xanımının da iştirak etdiyi rəsmi bir konsertdə müğənninin mahnıdakı "Qılıncı əlimə alıb, türkün başını sağa-sola kəsərəm" misrasını ifa edərkən gurultulu alqışlarla qarşılanmasına necə haqq qazandırıla bilər?

Gətirdiyim misallar "ermənilərin türk nifrəti dəryası"ndan bir damladır. Türkə nifrətə köklənmiş daşnak fəlsəfəsi... Nə yazıq ki, erməni cəmiyyəti onlara yalnız qan-qada miras qoyan daşnak ideologiyasından hələ də qurtula bilmir. Daşnak partiyasını xarakterizə edən erməni tarixçisi Leo (Arkel Babaxanyan) açıqca yazırdı: "Bu o partiyadır ki, qan axıtmaq siyasətindən əl çəkmir!".

Bu sözlər yüz il əvvəl yazılıb. Mənimsə bu qaniçən partiya ilə ilk tanışlığım heç özüm də anlamadan 1970-ci illərə təsadüf edir. Matil nənə adlı qonşumuz var idi. Demək olar ki, hər axşam bizə gələrdi. Qəribə bir şivə ilə bizimlə Azərbaycan dilində danışardı. Bibim Tovuzla söhbətində deyərdi: "Onların kökü kəsilsin, fidailərin. Hər 100 ildən bir erməniləri qan içində boğurlar". Matil nənə İstanbul ermənisi idi və təbii ki, o zaman bu söhbətin məğzini anlamırdım. O, türk qonşularından, İstanbulda çox yaxşı yaşamasından elə ağızdolusu danışardı ki...

İndi öz-özümə sual verirəm. Türkləri düşmən obrazında, aldıqları hava ilə belə, erməni cəmiyyətinə sırıyan daşnak ideologiyasından fərqli olaraq, gerçəkləri öz gözü ilə görmüş İstanbul ermənisi olan Matil nənə türklərdən bir pislik, bir vəhşilik görmüş olsaydı, bizimlə bu qədər yaxın olardımı? Onlardan həsrətlə bəhs edərdimi? Biz qapıbir qonşu idik. Və mən də Matil nənəgilə tez-tez gedərdim. Matil nənə, nədənsə, qapını gec açardı. Və gələn qonağın mən olduğunu gördükdə ürəklənib radionun səsini azaldardı. Türk musiqisi səslənirdi.

O həmişə türk şərqilərini dinləyirdi. Birdən qapı döyüləndə yenə dərhal radionu söndürürdü. Nəvələri Ofiq və Hraç gələndə də müsiqini dayandırırdı. Bilirdi nəvələrinin də qanlarını zəhərləyiblər. Daşnak ideologiyasının xofu 70–75 yaşlı İstanbul ermənisinin gözünün odunu elə almışdı ki, nəvələrinin yanında türk musiqisini dinləməyə belə qorxurdu. Hələ sovet dönəmi idi...

Bir dəfə erməni rəfiqəm Rima ilə İrəvana gedirdik. Ermənicə danışırdıq. Avtobusa başında kəlağayı olan bir yaşlı azərbaycanlı qadın mindi. Şidli kəndindən idi. Mən dərhal qalxıb ona yer verdim. Arxadan səsləndilər: "Nədən o türkə yer verirsən?". Geri dönüb "Mən də türkəm" – dedim. Və yenə sovet dönəmi idi...

Nədən bunları yazmaq istədim. Yuxarıda da qeyd etiyim kimi, bugünlərdə Avropa tribunalarında "Azərbaycanda ermənilərə qarşı soyqırımı tüğyan edir" – deyə car çəkən erməni rəsmilərinə, hələ sovet dönəmində belə, Ermənistanda bizlərə qarşı aparılan iyrənc daşnak siyasətini xatırlatmaq istədim. O zaman Azərbaycanda əsla belə şeylərə rast gəlinməzdi... Ermənilər Azərbaycanda milli fərqi sezmədən yaşayırdılar... Köçüb gedən ermənilərin bir çoxu da bunu təsdiq edir.

Və daşnak ideologiyasının nəticəsi olaraq yaranmış Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanı tərk edən ermənilərin çox böyük bir qismi Ermənistana getmədi. Çünki onlara türkləşmiş ermənilər deyib xor baxılırdı. Necə ki, indi Ermənistan parlamentindən tutmuş ən müxtəlif səviyyələrə qədər həqarət anlamında "turk" ifadəsi işlədilir. Uşaqlıqdan hər an zərrə-zərrə erməni körpəsinin qanına hopdurulan türkfobiya və onun da sonucu olaraq türkə nifrət erməni cəmiyyətinin sağalmaz xəstəliyi deyilmi, cənab Ararat Mirzoyan?

Yüz illərdir türklərə qarşı nifrət siyasəti yürüdənlərin, bugünlərdə Azərbaycanda ermənilərə qarşı nifrətin olmasından söz açmaları o qədər iyrənc görünür ki... Təbii ki, Xocalı fələkzadələrinin yaddaşına cızdağını çıxarmış o yerüstü cəhənnəm mənzərəsini kimsə silə bilməz. Azərbaycan torpaqlarının işğalı və xarabalığa çevrilməsindən, on minlərlə insanın günahsız qurban getməsindən sonra Azərbaycanda da nifrətin yaranması anlaşılandır. Lakin kimsə ölkəmizdə erməni xalqına qarşı nifrəti milli ideologiya bəndinə çevirmək barədə düşünmür də. Sadəcə, xalqımıza qarşı misilsiz cinayətlər törədənlər var və onlar cəzalarını almalıdırlar. "Erməni soyqırımı" uydurması dünən olduğu kimi, bu gün də türkə nifrət püskürən bir maşın rolu oynayır.

***Əsli XƏLİLQIZI,***
***XQ-nin Türkiyə müxbiri***

**Ramiz Əskər – 70**

**Azərbaycanın tanınmış ədəbiyyatşünası və publisisti, BDU-nun professoru, Əməkdar jurnalist Ramiz Əskərin bu gün 70 yaşı tamam olur. Bu ad ölkəmizin və türkdilli xalqların elmi, əbəbi-bədii və ictimai fikrinə uzun illərdir ki, ortaq ədəbi-mədəni dəyərlərin cəfakeş tədqiqatçısı və təbliğçisi kimi yaxşı tanışdır. 40 ildən çoxdur ki, yurdsevər ziyalı, jurnalistika və türkologiya sahəsində seçilən qələm sahibi olaraq yaxından ünsiyyətdə olduğum Ramiz Əskərin çoxşaxəli yaradıcılığı bir-biri ilə sıx bağlı olan 3 əsas fəaliyyəti əhatə edir: jurnalist, alim, tərcüməçi.**

# Tanınmış jurnalist, fədakar türkoloq, məhsuldar tərcüməçi



Ordan başlayaq ki, ümummilli liderimiz Heydər Əliyev ötən əsrin 70-ci illərindən etibarən minlərlə gənci Azərbaycandan kənarda ali təhsil almağa göndərir, onların yüksək ixtisaslı kadrlar kimi yetişməsi, sonra qayıdıb ölkəmizin inkişafına daha yaxşı kömək etməsinə çalışırdı. Ramiz də onlardan biri idi. 1954-cü il yanvarın 10-da Qərbi Azərbaycanın Gümrü mahalının (Amasiya rayonu) Qaraçanta kəndində anadan olmuş, orta məktəbi qızıl medalla bitirmiş gənc soydaşımız 1973-cü ildə xüsusi qaydada imtahan verərək Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinə qəbul olunmuşdu. Burada da əla qiymətlərlə oxuyan Ramiz üçüncü kursdan keçmiş SSRİ-nin ən yüksək, dünyanı nisə tanınmış ali məktəblərindən olan Moskva Dövlət Universitetinin jurnalistika fakültəsinə göndərilmişdi. O, 1978-ci ildə təhsilini başa vuraraq Bakıya qayıtmışdı.

Ramiz Əskər ilk illərdə Azərbaycan Radiosunun xarici verilişlər redaksiyasında, müxtəlif mətbuat orqanlarında işləyib. Bu dövrdə o, istedadlı və çalışqan jurnalist olduğunu Azərbaycan türk, ərəb, fars, ingilis, fransız və alman dillərində nəşr olunan “Azərbaycan bu gün” jurnalının, kiril, latın və ərəb əlifbaları ilə çıxan “Odlar yurdu” qəzetinin buraxılışına rəhbərliyi yüksək səviyyədə gerçəkləşdirməklə sübut edib. Az vaxtda vətənpərvərlik tribunasına çevrilmiş bu nəşr sovet epoxasının son illərində milli azadlıq hərəkatının genişlənməsində, milli şüurun oyanmasında söz məşəlinə çevrilmişdi. Onun səhifələrində Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları, parlamenti, dövlət atributları, gerbi, bayrağı, himni, pulu və s. haqqında o vaxtadək xalqdan gizli saxlanmış silsilə yazılar verilmişdi.

Yetkin jurnalist fəaliyyəti ilə Dünya azərbaycanlıları və türk xalqları arasında imzasını tanıda bilmiş Ramiz Əskər sonrakı illərdə “Hürriyet” qəzetinin (İstanbul) və Uluslararası Xəbər Ajansının (Ankara) Azərbaycan üzrə xüsusi müxbiri olub. “XXI əsr” və “Meydan” qəzetlərində işləyib, “Xalq qəzeti”ndə redaktor müavini vəzifəsində çalışıb, Azərbaycan Jurnalistlər Birliyinin katibi seçilib.

2003-cü ildən Ramiz Əskər media fəaliyyətini dayandırmadan elm və ali təhsil sahəsinə keçib, Bakı Dövlət Universitetinin türkologiya kafedrasında işləyib. O, ilk illərdə Azərbaycan və rus dillərində “Türk mədəniyyət tarixi”, “Türkologiyanın əsasları”, “Divanü lüğat-it-türk”, “Kitabi-Dədə Qorqud”, “Qutadğu bilig”, “Manas” mövzu və mənbələri üzrə xüsusi kurslar aparıb, elmi iş üzərində çalışıb. Ramiz müəllim 2007–2012-ci illərdə BDU filologiya fakültəsi bədii tərcümə elmi-tədqiqat laboratoriyasının müdiri olub. 2012-ci ildə türk xalqları ədəbiyyatı, 2017-ci ildə türkologiya kafedeeralarının müdiri seçilib. 2023-cü ildən türkoloji araşdırmalar elmi-tədqiqat laboratoriyasının müdiridir. Filologiya elmləri doktoru, BDU-nun professorudur.

BDU-da çalışdığı dövrdə Ramiz Əskər 28 orijinal kitab, monoqrafiya, tədris vəsaiti və proqram yazıb, 300-dən artıq elmi məqalə qələmə alıb. Bu nəşrlər arasında “Mahmud Kaşğari və onun “Divanü lüğat-it-türk” əsəri”, “Dahi türk dilçisi Mahmud Kaşğari”, “Qutadğu bilig”, “Orxon abidələri”, “Türk xalqları ədəbiyyatı”, “Kitabi-Dədə Qorqud”un üçüncü əlyazması”, “Əlişir Nəvayi: şəxsiyyəti və sənəti”, “Əlişir Nəvayinin lirikası” monoqrafiyaları xüsusi dəyər kəsb edir. Onun 2 monoqrafiyası (“Özbək ədəbiyyatı tədqiqatları”, “Əlişir Nəvayi və onun xəmsəsi”) özbək dilində Daşkənddə nəşr edilib. Bişkekdə alimin “Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı” kitabı qırğız dilində çapa hazırlanıb.

Burada maraqlı bir cəhəti də qeyd etmək lazımdır ki, Ramizin qələmindən çıxan hər bir kitab və elmi əsər həmin mövzuda “ilk” sayılır. O, türkologiyanın ulu qaynaqları və guşə daşları sayılan “Qutadğu bilig” əsəri üzrə ilk namizədlik, Divanü lüğat-it-türk”dən isə ilk doktorluq dissertasiyalarını yazan alim kimi də tanınır.

Ramiz Əskərin elmi fəaliyyətində tərcümə işi də önəmli yer tutur. O, türk, özbək, qazax, qırğız, türkmən, uyğur, tatar, başqırd, qaqauz, rus və alman dillərindən milli ədəbiyyatımızı və mədəniyyətimizi zənginləşdirən 66 kitabı ana dilimizə çevirib. Bu tərcümələrin başında türkologiyanın ən böyük, ən qədim və zəngin məxəzi olan Mahmud Kaşğarinin “Divanü lüğat-it-türk” əsəri (4 cild) durur. Ulu öndər Heydər Əliyevin əziz xatirəsinə həsr olunan bu tərcümə 2006-cı ildə işıq üzü görüb.

Bundan başqa, böyük şair və mütəfəkkir Yusif Balasağunlunun “Qutadğu bilik” poemasını, Əlişir Nəvayinin xəmsəsini (5 cild) və risalələrini (2 cild), Faruq Sümərin “Oğuzlar”, Bahəddin Ögəlin “Türk mifologiyası”, Zəhirəddin Məhəmməd Baburun “Baburnamə” kitablarını, Mehri Xatunun və Sultan Hüseyn Bayqaranın divanlarını, Nurməhəmməd Əndəlibin, Azadinin, Məxdumqulu Fəraqinin, Molla Nəfəsin, Abdulla Tukayın, Toktoqulun, Bəkir Çobanzadənin, Mağcan Cumabayın, Robert Minullinin, Todur Zanetin seçilmiş əsərlərini, “Monqolların gizli tarixi”ni, “Türk ədəbiyyatı tarixi”ni (2 cild), özbək və türkmən poeziyası antologiyaları bütöv bir silsilə təşkil edir.

Prezident İlham Əliyevin Daşkəndə son səfəri zamanı Özbəkistan Prezidenti Şavqat Mirziyoyev alimin Əlişir Nəvayi ilə bağlı tərcümələri haqqında xoş sözlər söyləyib. Ramiz Əskərin tərcüməsində Qurbanqulu Berdiməhəmmədovun “Axaltəkə atı”, Rəcəb Albayrağın “Türklərin İranı” (2 cild), İbrahim Qəfəsoğlunun “Türk milli mədəniyyəti”, Osman Turanın “Türk cahan hakimiyyəti məfkurəsi tarixi”, nəhayət, N.Ozerovun “İlham Əliyev: Mən Azərbaycanıma inanıram” kitablarını da ölkəmizin ədəbi və elmi ictimaiyyəti böyük maraq və rəğbətlə qarşılayıb.

Türk xalqları arasında elmi, mədəni, ədəbi əlaqələrin daha da genişlənməsi və inkişafı üçün var qüvvəsi ilə çalışan alim müxtəlif ölkələrdə təşkil olunan 80-dən çox konfrans və simpoziumda iştirak edib, maraq doğuran məruzələr oxuyub. Ramiz müəllimin BDU-da türk xalqları ədəbiyyatı üzrə apardığı mühazirələr və seminarlar öz elmi-pedaqoji dərinliyi və milli ruhu ilə fərqlənir, onun dərslərinə başqa kurslardan da tələbələr gəlir.

Media sahəsində xidmətlərinə görə Ramiz Əskər nüfuzlu yerli və xarici yaradıcılıq təltifləri olan “Qızıl qələm” (2 dəfə), “Həsən bəy Zərdabi”, “Humay”, “Yeni Orhun” (Türkiyə) və “İslama xidmət” (Küveyt) mükafatlarına layiq görülüb. Milli jurnalistikamızın inkişafında səmərəli fəaliyyətinə görə 2010-cu ildə ona “Azərbaycanın Əməkdar jurnalisti” fəxri adı verilib. O, Azərbaycan Jurnalistlər və Yazıçılar birliklərinin, Beynəlxalq Mətbuat İnstitutunun (Vyana), Avrasiya Yazarlar (Ankara) və Özbəkistan Yazıçılar birliklərinin üzvüdür.

Ramiz Əskər sanballı tədqiqatlarına və yüksək səviyyəli tərcümələrinə görə Türkiyənin “Türk dünyasına xidmət” və “Qızıl alma”, Özbəkistanın “Babur”, Ukraynanın “Bəkir Çobanzadə”, Türkmənistanın “Altın əsr” mükafatlarına, Beynəlxalq Türk Akademiyasının “Vilhelm Tomsen” və “Əlişir Nəvayi” qızıl medallarına, TürkSOY-un, Qazaxıstanın, Özbəkistanın, Qırğızıstanın, Türkmənistanın, Tatarıstanın və Rusiyanın medallarına və ədəbi mükafatlarına layiq görülüb. O, 2021-ci ildə “Turan” Elmlər Akademiyasının akademiki, Babur adına Əndican Dövlət Universitetinin fəxri professoru, Nəvayi şəhərinin fəxri vətəndaşı seçilib.

Ramiz Əskərin elmi-pedaqoji və yaradıcılıq fəaliyyətini dövlətimiz də yüksək qiymətləndirilib. O, 2014-cü ildə səmərəli elmi və ədəbi-publisistik fəaliyyətinə görə “Şöhrət” ordeninə layiq görülüb. 2022-ci ildə isə Özbəkistan Respublikasının “Dostluq” ordeni ilə təltif edilib.

Tanınmış ədəbiyyatşünas, türkoloq, yazıçı, jurnalist Ramiz Əskəri 70 yaşının tamam olması münasibətilə səmimi təbrik edir, türk xalqları arasında mədəni əlaqələrin inkişafına mühüm töhfələr verən həmkarımıza ömrünün 8-ci onilliyində sağlam həyat və yeni yaradıcılıq uğurları arzulayırıq.

***Nizami CƏFƏROV,***
***Milli Məclisin deputatı,***
***akademik***

# Gənc dirijorların sənət imtahanı

**Yekun dövlət imtahanı sessiyasında iştirak etdiyimiz Azərbaycan Milli Konservatoriyasının orkestr heyəti bizə əsgərlərin nizami sıra düzülüşünü xatırlatdı. Musiqi məbədinin kollektivi bir daha sənətə son dərəcə ciddi münasibətini sərgiləyirdi.**



Yekun dövlət imtahanı verən, magistratura pilləsinin son kursunda təhsil alan gənc dirijorları müxtəlif musiqi alətləri ilə 65 nəfərlik orkestr heyəti müşayiət edirdi. Hər bir tələbə-dirijor orkestrin müşayiəti ilə 6 nəfərlik komissiya və qonaqlar qarşısında öz məharətini göstərə bildi. Onların hazırlığı, səriştəliliyi adamı valeh edirdi. Dinlədikcə, sözün əsl mənasında, musiqinin varlığını hiss edir, ruhunu duyurduq.

Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti Siyavuş Kərimi dedi ki, konservatoriyada imtahanlar daha çox praktiki keçirilir. Açıq format, şəffaflıq təmin edilir. Konservatoriyanın professor-müəllim heyətinin də tərkibi xalq çalğı alətləri üzrə peşəkar musiqiçilərdən, dirijor, xanəndə, bəstəkar və ictimai fənlər sahəsində öndə olan tanınmış şəxslərdən ibarətdir.

Konservatoriyanın mətbuat katibi Aysel Fikrət isə bildirdi ki, burada təhsil alan tələbələr qabiliyyət imtahanından keçdikləri üçün, demək olar ki, hazırlıqlı gəlirlər, üstəlik, tanınmış sənətkarlar konservatoriyada onlara ustad dərsləri keçirlər. Tələbələr arasında ölkəmizi dünya miqyasında təmsil edə biləcək gənclər var. Hər bir tələbəyə fərdi yanaşma sərgilənir. Çalışırıq ki, onlar öz qabiliyyətlərini tam göstərə bilsinlər.

Təhsil müəssisəsinin İmtahan mərkəzinin rəhbəri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Leyla Quliyeva konservatoriyada təhsil alan tələbələrin bir çoxunun xüsusi istedada malik olduğunu vurğuladı. O, da bütün proseslərin aşkarlıq şəraitində keçdiyinə diqqət çəkərək qiymətləndirmənin tam obyektiv olduğunu diqqətə çatdırdı.

Dirijorluq kafedrasının müdiri, dosent Leyla Zalıyeva isə dedi ki, tələbələr dövlət imtahanına orkestr rəhbərlərinin köməyi ilə hazırlaşıblar. Öz əsərlərini, aranjemanlarını, orkestrovkalarını orkestr qruplara təqdim edirlər.

Tələbələrin yazılı imtahan sessiyası ilə də tanış olduq. Rektor Siyavuş Kərimi zallara baxış keçirir, tələbələrə mane olmadan kənardan biletə salınmış suallara nəzər salırdı. Elə təəssürat yaranırdı ki, orada bütün proseslərə birbaşa rektor özü nəzarət edir. Tələbələr də bu barədə razılıqla danışdılar.

Sınağa çəkilən gənc dirijorların məharəti, dəhlizə yayılan xoş musiqi sədaları təəssüratlarımızı daha da zənginləşdirdi.

***Rizvan FİKRƏTOĞLU,***
***Elşən AĞALAR (foto)***
***XQ***

**Baba Vəziroğlu – 70**

# Elə bil, dünəndi ömrün baharı...

**Onu universitet illərindən tanıyıram. Baba Vəziroğlu jurnalistika fakültəsində bir müddət oxuduqdan sonra universitetlə vidalaşdı, sonra sorağı Moskvadan gəldi. Maksim Qorki adına Dünya Ədəbiyyat İnstitutunda təhsil aldı. Duyğularını şeirə, nəğməyə çevirib çap etdirə-etdirə tanındı.**



Baba Vəziroğlu ilə uzun illər görüşməsək də, bu gün 70 yaşının tamamında, ömrün payız çağlarında həmsöhbət olduq. Payız fəsli daha barlı – bəhərli olduğu kimi, şairin yaşının bu vaxtında yaradıcılıq üfüqləri də daha genişdir.

Çay süfrəsi arxasında ötən gənclik illərini xatırladıq. Onun “Ömrün ayları” adlı şeirində deyildiyi kimi:

**Elə bil, dünəndi ömrün baharı,**
**İndi də payızın yelləri əsir.**
**Dünyanı təzəcə anlayanda sən**
**Görürsən, qış gəlib qapını kəsir.**

Baba Vəziroğlu ədəbi fəaliyyətə erkən yaşlarında başlayıb. İsmayıllının Mollaisaqlı kəndində yaşayırdı, üz tutucağı yeganə yaradıcılıq məkanı rayonda çıxan “Zəhmətkeş” qəzeti idi. Qəzetin nəzdində “Dağ çiçəkləri” adlı ədəbi dərnək vardı. Onun ilk qələm təcrübələri, ilk qaranquşlar kimi bu ədəbi dərnəkdən qanadlanıb qəzetin baş redaktoru unudulmaz Xalq şairimiz Musa Yaqubun qayğısı sayəsində işıq üzünə çıxırdı. Buna görə də Musa Yaqubu özünün ustadı sayır.

Sonra Bakı ədəbi mühiti tələbə Baba Vəziroğlunun yaradıcılığında böyük rol oynadı. “Ulduz” jurnalında dərc olunan "Bir yaz axşamı", "Mağazinçi Dadaş" kimi hekayələri onu geniş oxucu auditoriyasına apardı. Həmin vaxtdan dövri mətbuatda şeir və nəsr əsərləri ilə müntəzəm çıxış etdi. Sonra da klassik rus şairlərindən tərcümələr etməyə başladı.

O, Azərbaycan komsomolu Mərkəzi Komitəsində, Azərbaycan Yazıçılar İttifaqında bədii ədəbiyyatı təbliğ bürosunda təlimatçı və məsləhətçi kimi də çalışıb, təcrübə qazanıb. “Molla Nəsrəddin” jurnalının baş redaktoru olub, AYB İdarə Heyətinin üzvü seçilib. Uzun illər televiziyada maraqlı verilişlərdə aparıcılıq edib. “Mir” Dövlətlərarası Teleradio Şirkətində redaktor, Azərbaycan Kinematoqrafçılar İttifaqında baş redaktor kimi çalışıb. Sonra orada ədəbi proqramlar studiyasının müdiri, “Yurd” jurnalının məsul katibi, “İstedad” jurnalının baş redaktor müavini işləyib.

Baba Vəziroğlu “Həsən Seyidbəyli”, “Yeri boş qalan adam” (Rəşid Behbudov), “Sənsiz və ya ömrün son axşamı” (Həsən Turabov), “Haradan başlanır Vətən”, “Elegiya” (Zərifə Əliyeva), “Beş nəğməlik ömür” (Oqtay Kazımov) və s. sənədli filmlərin ssenari müəllifidir. İon Luka Karacalenin “İtirilmiş məktub” dram əsərini Azərbaycan dilinə uğurla tərcümə etdiyinə görə SSRİ Mədəniyyət Nazirliyi və Ümumrusiya Teatr Cəmiyyətinin diplomuna layiq görülüb. Azərbaycan Yazıçılar İttifaqında gənc nasirlər birliyinin rəhbəri olub.

Bolqarıstanda tərcüməçilərin beynəlxalq müşavirəsində iştirak edib, Almaniya Yazıçılar İttifaqının dəvəti ilə orada yaradıcılıq ezamiyyətində olub. Gənc yazıçıların Moskvada keçirilən VIII Ümumittifaq müşavirəsinə nümayəndə seçilib. “Humay” mükafatı laureatı, respublikanın Əməkdar incəsənət xadimidir. Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilib.

İndiyədək Baba Vəziroğlunun mindən artıq şeirinə mahnı bəstələnib. İllər boyu o nəğməli şeirləri dinləyicilərə və oxuculara sevdirən Baba Vəziroğlunun həssas şair səmimiyyətidir. Vətənpərvərlik, amal saflığı da o nəğmələrin mayasını və qayəsini təşkil edir. Onun “Töhfə” (bəstəkarı Firəngiz Babayeva) və “Sevərsən” (bəstəkarı Oqtay Rəcəbov) adlı şeirlərinə ilk nəğmələr bəstələnəndə hələ çox gənc idi. Mərhum Xalq artisti Şövkət Ələkbərovanın ifasında səslənən həmin mahnılar sonra geniş populyarlıq qazandı, dillər əzbəri oldu. Həm də şeirin müəllifi gənc şair Baba Vəziroğlunun özünə şöhrət gətirdi. Bu, onu daha böyük yaradıcılıq yollarına həvəsləndirdi.

– Düşünürdüm ki, yolların ən gözəli öz yolunla getməkdir, – deyə o bildirdi. – O yol cığırdan başlayır. Amma həmin cığırla irəlilədikcə görürsən ki, bir yola aparıb çıxarır. Mən ilk mahnımı gənc yaşlarımda yazmışam, onda hələ 1-ci kursda oxuyurdum. Həmin vaxtlarda bəstəkarlarımızdan Firəngiz Babayeva və Oqtay Rəcəbovla tanış idim. Mənim ilk uğurlarıma da elə bu ünsiyyət səbəb oldu. Mahnılarımı böyük sənətkarlar ifa edirdilər.

Baba Vəziroğlu dövrünün, az qala, bütün bəstəkarları ilə əməkdaşlıq edib, mahnı mətnləri yazıb. Onlardan Elza İbrahimova, Telman Hacıyev, Ramiz Mirişli, Eldar Mansurov, Faiq Sücəddinov, Mobil Babayev, Elçin İmanov və digərlərini qeyd etmək olar. Son 20 ildə isə əsasən bəstəkar Kamalla əməkdaşlıq edir. Onunla birgə Alim Qasımov üçün yazılan “İlahi”, “Xatirədir”, Nəsibə Abdullayevanın ifasında populyarlıq qazanmış “Səndən nigaranam” kimi mahnılar bütün dünyaya yayılıb. Özünün də qeyd etdiyi kimi, Rübabə Muradova, Akif İslamzadə, Mirzə Babayev, Flora Kərimova, İlhamə Quliyeva, Arif Babayev və bir çox digər böyük sənətkarlarımız da onun həmmüəllifi olduğu mahnıları ustalıqla oxuyublar.

**Baba Vəziroğlunun sənətlə bağlı özünəməxsus dəyərləndirmələri var. Ulu öndərin milli mədəniyyətə, ədəbiyyat və incəsənətə, istedadlara daim qayğı ilə yanaşması onun da ədəbi mühitdə möhkəmlənməsində müstəsna rol oynayıb. Bu barədə söz düşəndə yubilyar şair dedi:**

– Heydər Əliyev zaman etibarı ilə bizdən nə qədər uzaqlaşsa da, mənim bir zaman yazdığım kimi, “Zirvələr uzaqdan uca görünür, aydın görünür”. Ona görə biz bu dahi şəxsiyyətin xalqımızın, məmləkətimizin taleyində rolunu bir daha dərk edib, qədirbilənliklə qiymətləndiririk.

Azad Şuşada, Heydər Əliyevin doğum günü təmtəraqla qeyd olunanda mən də orada idim. Fəxr edirəm ki, hələ sağlığında Ulu öndərlə dəfələrlə Şuşada mədəniyyət tədbirlərində iştirak etmişəm. Onunla bərabər səfərlərdə olmuşam. İndi ürəyimdə qəribə bir kədər hissi də var. Deyirəm, kaş, Heydər Əliyev Şuşanın hazırkı növrağını görəydi. Digər tərəfdən də hər birimizin təsəllisi budur ki, onun ən böyük arzusunu, vəsiyyətini layiqli davamçısı müzəffər Ali Baş Komandanımız İlham Əliyev ləyaqətlə həyata keçirir. Bax, bu barədə danışırıq və yadıma uzun illər bundan əvvəl yazdığım misralar düşür: “Sən elə bir zirvəsən, küləklər neyləyəcək, Heydər xalqım deyəcək, xalq Heydər söyləyəcək”. Azərbaycanda vətənpərvərlik mövzusunda yazılan mahnıların böyük əksəriyyətinin müəllifi mənəm. Heydər Əliyev haqqında kantata və oratoriyalar yazmışam. Vətənpərvərlik mahnılarınımı əsasən Mübariz Tağıyev oxuyur.

Baba Vəziroğlu Ulu öndərin işıqlı yolunun davamçılarına da gözəl şeirlər həsr edib. “Cənab Ali Baş Komandan”, “İki qəlbin dastanı”, “Mehriban Bakı” möhtəşəm nəğmələr kimi hər gün efirlərdən səslənir. Bəstəkar Kamalla birlikdə Leyla Əliyevanın “Elegiya”, “Azərbaycan”, “Ölməzlik nəğməsi” kimi şeirlərinin tərcümə edilib mahnıya çevrilməsində zəhmətini əsirgəməyib. Bu mahnılar da böyük populyarlıq qazanıb.

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

# Mədəniyyət xəbərləri




## Afaq Məsudun yaradıcılığı ABŞ portalında

**ABŞ-ın geniş izləyici auditoriyalı “Inkitt.com” və “Medium.com” portalları Azərbaycanın Xalq yazıçısı Afaq Məsudun ingilis dilinə tərcümə olunmuş “Sərçələr” və “Alman kilsəsi” hekayələrinin yayımına başlayıb.**

Hekayələrin ingilis dilinə tərcümə müəllifi tanınmış Britaniya tərcüməçisi Anne Tompsondur.

Qeyd edək ki, geniş oxucu auditoriyası tərəfindən izlənilən “Inkitt.com” portalı mütəmadi olaraq səhifələrində Lev Tolstoy, Fyodor Dostoyevski, Mark Tven, Oskar Uayld, Ceyms Coys, Frans Kafka, Virciniya Vulf, Skott Fitscerald kimi dünya şöhrətli yazıçıların yaradıcılığına yer ayırır.

## Sumqayıtda “dəyirmi masa”

**Gənclik şəhərindəki Poeziya Evində Azərbaycan–Qazaxıstan ədəbi-mədəni əlaqələrinə həsr olunmuş “dəyirmi masa” müzakirələri keçirilib.**

Tanınmış qazax şairi, Dünya Gənc Türk Yazarlar Birliyi Məsləhət Şurasının və Qazaxıstan Yazıçılar Birliyinin üzvü Tanagöz Tolkınqızı məclisin qonağı olub. Azərbaycan Yazıçılar Birliyi poeziya seksiyasının müdiri İbrahim İlyaslı, AYB Sumqayıt bölməsinin rəhbəri Gülnarə Cəmaləddin, Dünya Gənc Türk Yazarları Birliyinin başqanı İntiqam Yaşar və başqaları qardaş xalqların ədəbiyyatının inteqrasiyası, nəşr mübadilələri barədə fikirlərini bölüşüblər. Tanagöz Tolkınqızı Azərbaycan–Qazaxıstan mədəni-ədəbi əlaqələrinin inkişaf tendensiyalarına, şair və yazıçılarımızın əsərlərinin tərcümə və çap məsələlərinə diqqəti cəlb edib.

***Ə.DOSTƏLİ***
***XQ***

BEYNƏLXALQ HƏYAT

# Yeni dünya düzəni: Qərb Türk birliyindən niyə əndişələnir?



**Son illər planetimizdə kəskin silahlı qarşıdurmalar, ağır müharibələr baş verir. Dünya birliyi gündən-günə artan bu nifaq və düşmənçiliyi heç cür durdura bilmir. Ona görə ki, super güclər siyasi və hərbi ambisiyalarından əl çəkə bilmirlər. İndi dünyada yeni, daha ədalətli oyun qaydalarına ehtiyac var.**

Dünya heç vaxt ədalətli olmayıb, amma tarixin hər bir yeni mərhələsi özü ilə zəruri dəyişikliklər, eyni zamanda, gözləntilər və ümidlər gətirir. Yeni düzənin ssenarisini yazmaq və sonra isə bütün siyasi və hərbi proseslərə təkbaşına dirijorluq etmək iddiasında olan 2 super güc mövcuddur. Bunlar, təbii ki, ABŞ və Çin dövlətləridir.

Vaşinqton "Kollektiv qərbi" öz nüfuz dairəsində saxlamaq, onu "Sarı əjdaha"-ya qarşı həlledici mücadilədə yanında görmək istəyir. Rusiya–Ukrayna müharibəsi bu baxımdan ABŞ üçün göydəndüşmə bir fürsət kimi dəyərləndirilə bilər. Hər halda, Moskvanın Şərqi Avropada ərazi iddialarından ehtiyat edən "köhnə qitə" xalqları "Sem dayı"nın ətəyindən bərk-bərk yapışıb onun liderliyini qəbul etmək zorundadır.

Bu məqamda qeyd etmək yerinə düşər ki, Birləşmiş Ştatların "Kollektiv qərb"lə izdivacı əbədi deyil. Burada, ilk növbədə fransız və ispandilli dövlətlərin fərqli maraqları ortaya çıxır. Avropanın ən böyük iqtisadiyyatı sayılan Almaniya da hər zaman okeanın o tayından səslənən "havaya oynamaq" niyyətində deyil.

Bu gün dünyada artıq demokratik və antidemokratik düşərgə yoxdur. Qərb demokratiyası və sivilizasiyası anlayışı da əvvəlki cazibədarlığını itirib. Çünki ümidləri doğrultmayıb. Bəşəriyyət indi sözə yox, əmələ inanır. Milli maraqları naminə proksi müharibələr aparan "sivil" dövlətlərin əməlləri başqa şeylər deyir.

Yeri gəlmişkən, planetimizdə yeni güc mərkəzləri əsasən milli identiklik müstəvisində formalaşır. Burada din amili müəyyən rol oynasa da, aparıcı meyar etnik və dil yaxınlığıdır. Bu prosesə bir neçə il əvvəl anqlosakslar AUKUS-u qurmaqla start verdilər. Yəni ingilisdilli beş dövlət – ABŞ, Böyük Britaniya, Kanada, Avstraliya və Yeni Zelandiya birləşib yeni hərbi-siyasi ittifaq qurdular. Məqsəd nəyin bahasına olursa-olsun, dünya liderliyini bundan sonra da əldə saxlamaqdır.

Dünyanın ikinci iqtisadi və hərbi gücünə çevrilən, özünü hələ qədim dövrlərdən "səmavi imperiya" adlandıran Çin pusquda dayanıb. Hələlik Pekin öz siyasi iddialarını ortaya qoymağa tələsmir. Lakin qarşı tərəfin, yəni ABŞ başda olmaqla "Kollektiv qərb"in ani büdrəməsi, "Sarı əjdaha"nı cəsarətləndirə bilər. Yeri gəlmişkən, Şərq təqviminə görə 2024-cü il Yaşıl əjdaha ilidir. Bunu sözgəlişi yazdım. Böyük siyasətdə mistik əlamətlərə inananlar azdır.

Çinlilərin anqlosaksların "kürəyini yerə vuracağı" ehtimalı o qədər də yüksək deyil. Ona görə ki, Çin mədəniyyəti nə qədər qədim olsa da, çağdaş dünya üçün "yumşaq güc" olmaq iqtidarında deyil. Bu, çox vacib amildir. Qlobal informasiya axınının baş verdiyi müasir dövrdə bəşəri ideyalar, humanist ideallar ən dağıdıcı silahlar qədər güclüdür.

O biri tərəfdən "Kollektiv qərb"in problemləri də az deyil. Əsas rəqib Çin olsa da, üçüncü dünya dövlətləri deyilən başqa bir iddialı rəqib artıq "Mən də varam!" deyərək səsini çıxarmağa başlayıb. Bunlar özlərini "Qlobal cənub" adlandırırlar və əsasən Qoşulmama Hərəkatının sıralarında olan çox sayda irili-xırdalı dövlətlərdir ki, nə birqütblü, nə də ikiqütblü dünyanı qəbul etmək istəyirlər. "Qlobal cənub" ən azı üçüncü qütb olmağa iddialıdır.

Belə bir taleyüklü məqamda Türkiyə dövləti türkdilli ölkələrlə birlikdə siyasətin ön səhnəsinə çıxıb dünyanın əsas güc mərkəzlərindən biri olmaq arzusundadır. Xoşbəxtlikdən böyük bir coğrafi məkanda Böyük Turan boy göstərməyə başlayıb. Əsas lokomotiv rolunda Türkiyə və 2020-ci ilin payızında işğalçı Ermənistan üzərində tarixi Zəfər qazanmış Azərbaycan dövləti çıxış edir.

Lakin Ankara–Bakı tendemini, bütövlükdə, Turanın qlobal güc mərkəzinə çevrilməsi Qərbdə və Şərqdə qısqanclıqla qarşılanır. Rəqiblər, xüsusilə Fransa Türk Dövlətləri Təşkilatının real gücə çevrilməsindən bərk əndişələnir. Makron Fransasının qəsbkar Ermənistanı beynəlxalq hüquqa meydan oxuyaraq açıq-aşkar himayə etməsi Parisin türk biriliyi ilə bağlı bu bəd niyyətlərindən qaynaqlanır.

Əlbəttə, Qərbin Turanı beşikdəcə boğmaq niyyəti əbəsdir. Ortada yenilməz türk ruhu, ilahi ədalət və tarixi reallıqlar var. Qardaş Türkiyə və digər türk dövlətləri buna heç vaxt imkan verməzlər. "XXI əsr türk əsri olacaq!" deyən böyük siyasətçi mərhum Turqut Ozalın arzuları reallaşır. Zəngəzur dəhlizi bu prosesi daha da sürətləndirəcək.

Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistanın artan iqtisadi və hərbi imkanları, yüksələn siyasi nüfuzu Turanın gücünü birə-beş artırıb. Bu, regionun digər xalqları üçün də uğurlu layihədir. Türk dövlətləri qonşu ölkələr, onların xalqları ilə sıx əməkdaşlıq etmək arzusundadır. Hüzur, rifah və tərəqqinin yolu budur!

***Məsaim ABDULLAYEV***
***XQ***

### Ekspert rəyi



**Rüfət RÜSTƏMOV,**
**BDU-nun türk filologiyası kafedrasının müdiri, professor**

**Bu gün dünyada, həqiqətən, türk və müsəlman dünyasına qarşı aşkar ədalətsizliklər baş verir. Əslində bu haqsızlığın kökü orta əsrlərə qədər gedib çıxır. Qərb, xristian dünyası vaxtilə Osmanlını yıxmaq üçün min bir oyundan çıxırdı, bu gün isə Turanın güclənməsindən ehtiyat edir.**

**İstər Qərbə, istərsə də Çinə güclü, qüdrətli Türkiyə lazım deyil. Onlar Türkiyə və türk dövlətlərini zəiflədərək özlərindən asılı vəziyyətə salmaq niyyətindədir. Böyük Turanın Şimalda və Cənubda da tarixən rəqibləri olub və bu gün də var.**

**Türk dünyası son onillər ərzində böyük inkişaf yolu keçib. Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə Türkiyə son 22 ildə ümumi daxili məhsul istehsalını 3 dəfə artırıb. Qardaş ölkənin hərbi sənayesi dünyada aparıcı mövqelərə çıxmaqdadır.**

**Dünyada etnik, milli zəmində dövlətlərarası, hərbi ittifaqların yaranması müasir zamanın tələbidir. Türk dövlətləri və xalqları nə qədər bir-birlərini dəstəkləsələr, bir o qədər düşmən qüvvələr qarşısında yenilməz olacaqlar. Xalqımızın gözəl atalar söz var: Güc birlikdədir.**

**Burada başqa bir vacib amil var. Türk xalqları bu gün elmin inkişafına, yeni texnologiyaların tətbiqinə böyük önəm verməlidir. Tarixdə o xalq irəli gedir ki, orada cəmiyyət elmlə, təhsillə dostluq edir. Dahi Nizami yazırdı ki, "Çox zirək beyinlər yatan oldular, axırda saxsı qab satan oldular!" Demək istəyirəm ki, gənclərimizi elmə, təhsilə sevgi ruhunda tərbiyə edərək böyütməliyik.**

**Mən Turanın gələcəyinə böyük ümidlərlə baxıram. Türklər tarixdə güclü imperiyalar qurmuş xalqdır. Dövlət qurmaq üçün dövlətçilik təfəkkürü və milli vətənpərvərlik ruhu zəruridir. Türk xalqları məhz belə bir güclü təfəkkürə sahib olduqlarını tarix boyu sübut ediblər.**

İDMAN

# Azərbaycan şahmatı yeni yüksəlişə qanadlanıb

## *"Yeniyetmələr" ötən ili böyük uğurla başa vurublar*

**Ötən ilin idman uğurları sırasında uşaq, yeniyetmə və gənc şahmatçıların əldə etdikləri nailiyyətlər xüsusilə qürurvericidir. Onlar müxtəlif yaş kateqoriyalarında qazandıqları böyük qələbələrlə Azərbaycan şahmat tarixinə yeni səhifə yazmağı bacarmışlar.**




Müsahibimiz şahmat üzrə yeniyetmə və gənclərdən ibarət yığmanın baş məşqçisi Fərid Abbasov 2023-cü ili təmsilçilərimizin böyük uğurlarla başa vurduqlarını bildirdi. O qeyd etdi ki, istər dünya və Avropa çempionatları, istərsə də, digər beynəlxalq yarışların hamısında şahmatçılarımız medal qazanıb, fərqləniblər:

– Ən önəmli yarışlar ötən ilin avqustunda başladı. Niderlandda 16 yaşadək şahmatçılar arasında Ümumdünya Şahmat Olimpiadasında fərdi yarışda qızıl medal qazandıq. 4 taxtanın 3-də Çin yığmasının təmsilçiləri qalib olsalar da, turnirin ən prestijli taxtasında Azərbaycan şahmatçısı Read Səmədov qalib olaraq dövlət himnimizi səsləndirdi. Onu da deyim ki, Read artıq 2500 reytinqi keçib. Ona böyük ümidlər var.

Sentyabr ayında Rumıniyanın Mamaya şəhərində şahmat üzrə yeniyetmə oğlan və qızlar arasında keçirilən Avropa çempionatında 4-ü qızıl olmaqla 7 medal qazanan komandamızın tarixi uğurunu xüsusi vurğulamaq istəyirəm. Həmin yarışda Məhəmməd Kazımzadə, Mingəçevirdən Mehriban Əhmədli (hər ikisi U-8), Əhməd Xaqan (U-12), Rüstəm Rüstəmov (U-14) bütün rəqibləri qabaqlayaraq öz yaş kateqoriyalarında qızıl medal əldə etdilər. Xəzər Babazadə 18 yaşlılarda 2-ci yerə çıxdı. Rüstəm Rüstəmov turnirin finalında son anlarda erməni şahmatçını üstələyərək Avropa çempionu oldu. 12 yaşlı qızların mübarizəsində Səadət Bəşirli çempionatı bürünc medalla başa vurdu. Suat İbrahimli, Əsnad Baxşızadə, Xədicə Babazadə də medallara çox yaxın idilər.

Baş məşqçi 8-10-12 yaşlıların Misirdə keçirilən dünya çempionatında güclü heyətlə çıxış etdiklərini vurğuladı. Həmin yarışda Xaqan Əhməd bürünc medal qazanıb, Paşam Əlizadə (12 yaş) 3-4-cü yerləri bölüşdürüb. O qeyd etdi ki, şahmat tarixində ən çox medal qazanan idmançılarımızdan biri olan Ayan Allahverdiyeva İtaliyada keçirilən dünya çempionatında 18 yaşadək qızlar arasında qalib olub:

–Bu, daha bir tarixi uğurdur. Ayan 3 qat Avropa çempionudur. O, çox gözəl məktəb keçib. Yerli mütəxəssislər onunla çox çalışıblar. 2022-ci ildə dünya çempionatında 18 yaşadək qızların yarışında gümüş medal qazanıb. Ötən il yenidən Avropa çempionu olmağa çox yaxın idi. Amma 2-ci yeri tutdu. Gələcəkdə 20 yaşlılar, eləcə də qadınlar arasında öz sözünü demək üçün güclü potensialı var.

***Leyla QURBANOVA***
***XQ***

Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyinin
**Geologiya və Geofizika İnstitutu**
ştatda vakant olan aşağıdakı vəzifələri tutmaq üçün
MÜSABİQƏ ELAN EDİR

"Palçıq vulkanizmi" şöbəsi üzrə: kiçik elmi işçi – 1 yer
"Dinamiki geologiya" şöbəsi üzrə: kiçik elmi işçi – 1 yer
"Hidrogeologiya və geoekologiya" şöbəsi üzrə: kiçik elmi işçi – 2 yer
"Filiz-maqmatik sistemləri və minerageniya" şöbəsi üzrə: kiçik elmi işçi – 1 yer
"Biota təkamülü və geoloji hadisələrin korrelyasiyası" şöbəsi üzrə: kiçik elmi işçi – 1 yer
"Seysmologiya və seysmik təhlükənin qiymətləndirilməsi" şöbəsi üzrə: kiçik elmi işçi – 2 yer
"Neftin geokimyası" laboratoriyası üzrə: kiçik elmi işçi – 2 yer
Müsabiqədə yuxarıda göstərilən elm sahələri üzrə böyük təcrübəsi olan mütəxəssislər iştirak edə bilərlər.
Sənədlər müsabiqənin tələblərinə uyğun olaraq elan dərc edilən gündən etibarən 1 ay müddətində aşağıdakı ünvana təqdim edilməlidir:
Bakı, AZ1143, H.Cavid prospekti 119.
Telefonlar: 537-23-34, 510-01-41 (119).
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Geologiya və Geofizika İnstitutu.

# "Traktorlu" etirazçılar "işıqfor" hökumətə qarşı

## Birləşmiş etirazlar dalğası Almaniyanı vətəndaş müharibəsinə çəkə bilərmi?

**"Die Welt" telekanalı xəbər verir ki, ölkəni iflic edə biləcək ümummilli tətillər AFR qanunlarına görə qadağandır. Ancaq bu yaxınlara qədər ayrı-ayrılıqda keçirilən etiraz nümayişləri birləşərsə məhz belə də olacaq. Hadisələr də elə buna doğru getməkdədir.**




Almaniyanı bürüyən fermer etirazlarını indi təkcə kəndlilər deyil, uzaq yola çıxan sürücülər, restoran sahəsinin işçiləri və dəmiryolçular da dəstəkləyirlər. Çünki onların hamısı AFR-in "işıqfor" hökumətinin iqtisadi planlarından ziyan çəkirlər. Ölkənin politoloqları xəbərdarlıq edirlər ki, əsas ümummilli tətillər dalğası reallığa çevrilərsə, ölkə vətəndaş müharibəsi ilə üz-üzə qala bilər.

"Die Welt"in aparıcısı Markus Tıksen bildirir ki, bu gündən sonra ölkədə çox şeylər baş verə bilər, axı narazı olan təkcə fermerlər deyil. Qatarların maşinistləri, uzaq yola çıxan avtomobil sürücüləri, restoran sahibləri də artıq əzələlərini göstərmək istəyirlər və etirazlara qoşulacaqlar. Belə olarsa, Almaniya iflic olmaq həddinə çatacaqmı? Ölkədə buna bənzər tətillərə qanunla icazə verilmir. Yoxsa daha pis hadisələrin başvermə riski var?

Alman həmkarımızın narahatlığını başa düşmək çətin deyil. Yüzlərlə traktor hələ dekabr ayında Brandenburq qapılarının qarşısına toplaşaraq Berlinin "17 iyun" küçəsini iflic vəziyyətinə salmışdılar. Əlbəttə, bu ölkənin bir həftə sonra qarşılaşdığı traktor etirazlarının, olsa-olsa, ilk işartıları idi. Yanvarın 8-də traktorlu etiraçılar Almaniyanın bir çox meqapolislərində hərəkəti iflic etdilər. Bundan sonra bir sıra sahələr də artıq etiraz dalğasına qoşulmağa hazırlaşdılar. Ayrı-ayrı etirazlar artıq ölkəni iflic edə biləcək kütləvi hərəkata çevrilməkdədir. Xristian -Sosialist İttifaqında (XSİ) baş verənlərə görə "işıqfor" hökumətini günahkar hesab edirlər.

XSİ-nin Bundestaqdakı fraksiyasının rəhbəri Aleksandr Dobrindt bildirir ki, "işıqfor" Almaniyanı qarşıqlıqlara gətirib çıxardı. Biz bu ölkənin onillərlə görmədiyi qütbləşməsi şəraitində yaşayırıq. "İşıqfor" uçurumun kənarındadır, o iqtisadi inkişafı məhv etdi, enerji böhranına səbəb oldu, sadəcə miqrasiya böhranını və bir çox başqa problemləri həll etmədi ki, bunlar da cəmiyyəti qorxuya salır və etirazlara qaldırır".

Aqrar sahənin insanları uzaq yola çıxanlardan dəstək alırlar. Federal hökumətin kəskin iqtisadi planlarına qarşı mübarizəyə qalxan isə təkcə onlar deyil. Əlavə gəlir vergisini 19 faizə qaldırandan sonra restoratorların da əhvalı kəskin korlanıb. Həftənin ortasında isə dəmir yolunun dayanacağı, qatarların maşinistlərinin uzunmüddətli əmək mübahisələrinə başlayacağı gözlənilir.

Almaniya Fermerləri Assosiasiyasının prezidenti Yoahim Rukvid bəyan edib ki, əgər hökumət iqtisadi planlarının üstündə durarsa, yanvar ayı çox isti keçəcək. Yanvarın 15-də assosiasiya Berlində növbəti böyük nümayişlərin təşkilini planlaşdırır. Bunun üçün ölkənin bütün fermerləri səfərbər edilib.

Alman politoloq Verner Patsel bildirir ki, əgər siyasətçilər əhalinin böyük bir hissəsinin nəyin doğru, nəyin doğru olmadığı ilə bağlı fikirlərinə qulaq asmasalar, o zaman etirazlar daha da artacaq. Ayrı-ayrı etirazlar isə sonradan birləşəcəksə, o zaman faktiki olaraq qanunla qadağan edilən ümummilli etiraz dalğası baş qaldıracaq. Belə olan halda Almaniya, demək olar ki, vətəndaş müharibəsi öncəsi mümkün olan ən gərgin vəziyyətlə qarşılaşacaq.

Çox da uzaq olmayan keçmişdə dünyanın aparıcı iqtisadiyyatları sırasında ilk üçlüyə daxil olan Almaniyanın bu gün belə bir vəziyyətə düşməsi təkcə bu ölkənin deyil, bütövlükdə, Avropada işlərin heç də yaxşı olmadığından xəbər verir.

***Hazırladı:***
***İlqar***
***XQ***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti
balansındakı gəmilər və tabeliyindəki idarələr üçün müxtəlif növ süzgəclərin satın alınması məqsədilə
MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il yanvarın 16-sı saat 17.00-dəkdir.
Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).
Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Əlaqə telefonu – (012) 404-37-00, daxili – 1047.
Ünvan – Bakı, M.Useynov küçəsi 2.

"Boradigah çay-2" ASC səhmdarlarının nəzərinə!

28 fevral 2024-cü il saat 12.00-da "Boradigah çay-2'' ASC səhmdarlarının ümumi yığıncağı Masallı rayonunun Boradigah qəsəbəsində "Boradigah çay-2'' ASC-nin yerləşdiyi unvanda keçiriləcəkdir.
Yığıncağın gündəliyi:
1. Cəmiyyətin ləğv olunması.
2. Cəmiyyətin ləğv olunması ilə əlaqədar ləğvetmə komissiyasının (təsviyyəçinin) təyin edilməsi və ona müvafiq səlahiyyətlərin verilməsi.
3. "Boradigah çay-2'' ASC-nin səhmlərinin (qiymətli kağızların) dövriyyədən çıxarılması və ləğv edilməsi.
4. Digər məsələlər.
Telefon-050-537-04-08.
*"Boradigah çay-2'' ASC-nin idarə heyəti*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 003 (30407) 10 yanvar 2024-cü il, çərşənbə

# Köhnə hovuzun yeni həyatı

**Bakıda yenilənən və əsaslı təmir olunan üzgüçülük hovuzunun açılış mərasimi keçirilib.**



Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar onun xatirəsinə inşa olunan idman obyektinin açılışında gənclər və idman naziri Fərid Qayıbov və Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru Fuad Hacıyev iştirak ediblər.

Tədbirdə idman obyektində yaradılmış şəraitlə bağlı məlumat verilib. Sonra isə ölkədaxili və beynəlxalq yarışlarda nailiyyətlər qazanmış Azərbaycan üzgüçüləri hovuzda xüsusi idman nömrələri ilə çıxış ediblər.

# Fiqurlu konkisürənimiz Avropa çempionatında

**Bu gün 10-da Litvanın Kaunas şəhərində fiqurlu konkisürmə üzrə Avropa çempionatı start götürür.**



Bu nüfuzlu yarışda Azərbaycanı Vladimir Litvintsev təmsil edir. İdmançımız yanvarın 10-da qısa, 12-də isə sərbəst proqramda çıxış edəcək.

Avropa çempionatı yanvarın 14-də başa çatacaq.

Qeyd edək ki, Vladimir Litvintsev "Pekin-2022" Qış Olimpiya Oyunlarında iştirak edib. O, Azərbaycan millisinin bayraqdarı olub.

# Azərbaycan futzalında 16 komanda iştirak edəcək

**Futzal üzrə Azərbaycan Kubokunda iştirak edəcək komandaların sayı açıqlanıb.**

AZƏRBAYCAN KUBOKU

Bu barədə XQ-yə Azərbaycan Futzal Federasiyasından məlumat verilib. Belə ki, yanvarın 17-də Azərbaycan kubokunun 2023–2024-cü il mövsümünün püşkü ("kor püşk") atılacaq. Püşkatma mərasimi Bakı İdman Sarayında, saat 12:00-da başlayacaq.

Qeyd edilib ki, 1/8 final mərhələsində 16 komanda - "Araz-Naxçıvan", "Neftçi" İK, "Baku Fire", "Record club", "Yasamal Bakı", U-19, "Bakı", "Baku Fire-2",PFL, "Xan-Lənkəran", "STAR kargo", "Dalğa", "Timsport", "Trabzon Azərbaycan", "Dəstə Ordubad", "Metropoliten" iştirak edəcək. 1/8 final mərhələsinin oyunları fevralın 10-da və 11-də keçiriləcək. Hər mərhələ bir görüşdən ibarət olacaq.

*Leyla SABİRQIZI*
*XQ*

# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

*2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*




**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

**Hörmətli abunəçilər!**
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

# "Votsap"da birgə videoizləmə

**"Votsap" yeni funksiya ilə istifadəçiləri sevindirməyə davam edir. Bu dəfə yenilik videozənglərlə bağlıdır.**



Belə ki, artıq "Android" cihazlarının istifadəçiləri videozənglər zamanı ekranı paylaşarkən həmsöhbətləri ilə birlikdə videolara baxa və musiqi dinləyə biləcəklər.

Ekranı paylaşdığımız zaman cihazımızda səsləndirdiyimiz audionun səsinin əlaqə qurduğumuz şəxsin cihazında da eşidilməsi mümkün olacaq.

Yeni funksiya, həmçinin istifadəçilərə videonu işə salmağa, sinxronlaşdırmağa və virtual baxış sessiyası yaratmağa imkan verir.

Qeyd edək ki, videozəng zamanı səsi paylaşmaq seçimi artıq "Android"in bəzi "beta" proqramları üçün əlçatandır.

*F. SALMAN*
*XQ*

# "İnsan dənizi" Təbrizə çatdı

**Yazıçı-ədəbiyyatşünas Vaqif Sultanlının "İnsan dənizi" romanı bugünlərdə Güney Azərbaycanda nəşr olunub. Təbrizin nüfuzlu "ANAS" nəşriyyatında yayımlanan kitabı əski əlifbaya Milad Teymuri (Teymur Turanlı) çevirib.**




"İnsan dənizi" romanı müəllifin Güney Azərbaycan oxucularına təqdim olunan ilk kitabı deyil. Bundan əvvəl yazıçının eyniadlı romanı tanınmış türkoloq Böyük Mollayinin fars dilinə tərcüməsində Tehranda (2014) və Zəncanda (2015) kütləvi tirajla yayımlanıb. Həmçinin müəllifin "Səhra savaşı" romanı, povest və hekayələrdən ibarət "Heçlik vadisi" kitabı Tehranda və Təbrizdə əski əlifba ilə nəşr olunub. Vaqif Sultanlının İrəc İsmayılla birgə hazırladığı "Güney Azərbaycan nəsri: başlanğıcdan günümüzədək" antologiyası da İranda işıq üzü görüb.

Hadisə və əhvalatların ötən əsrin səksəninci illərində cərəyan etdiyi "İnsan dənizi" romanında ölüm cəzasından qaçıb yad şəhərə sığınaraq gizli şəkildə ömür sürən qəhrəmanın taleyi fonunda cəmiyyətin mənəviyyatına yoluxmuş özgələşmə problemi bədii həllini tapıb.

*XQ*

# Cənubi Koreyada itlər "bəraət aldı"

**Cənubi Koreya parlamenti itlərin qida məqsədi ilə yetişdirilməsi və kəsilməsini qadağan edib. Qanun layihəsi səs çoxluğu ilə qəbul edilib. Artıq yemək üçün it kəsən şəxsə qarşı maksimum 3 il həbs cəzası və 23 min dollar cərimə nəzərdə tutulub.**



Qanun layihəsi it ətindən hazırlanmış və ya emal edilmiş qida məhsullarının paylanmasını və satışını da qadağan edir. Təsərrüfat sahiblərinə, it əti restoranları və it ticarəti ilə məşğul olan sahibkarlara bizneslərini bağlamaq və ya dəyişdirmək üçün üç illik güzəşt müddəti verilir.

Məlumat üçün bildirək ki, ölkədə hazırda 1100-ə yaxın it ferması fəaliyyət göstərir. Bu fermalarda qida məqsədləri üçün yarım milyona yaxın it yetişdirilir.

Qanun layihəsi imzalanması üçün prezident Yun Suk Ola göndərilib.

*P.ƏFƏNDİ*
*XQ*

Hava

# Külək də əsəcək, yağış da yağacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən yanvarın 10-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir.**



Gün ərzində havanın arabir yağıntılı olacağı, gündüz bəzi yerlərdə sulu qara keçəcəyi ehtimalı var. Axşam tədricən kəsiləcək. Güclü şimal-qərb küləyi əsəcək, gündüz zəifləyəcək. Gecə və gündüz 3-7° isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunundan 765 mm civə sütununa yüksələcək, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə havanın arabir yağıntılı olacağı, sulu qar, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək, gecə və səhər ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 0-5°, gündüz 5-9° isti, dağlarda gecə və gündüz 0-5° şaxta olacaq.

*Q. QASIMOV*
*XQ*

Maraq dünyamız

# Eynşteynin dilini nə açıb?

***Albert Eynşteyn vurma cədvəllərini heç vaxt öyrənməyib. Məktəb müəllimləri hesab edirdilər ki, onun akademik sahədə gələcəyi yoxdur. Bununla belə, Eynşteyn fizika sahəsində araşdırma və tədqiqatlarını davam etdirərək tarixin ən nüfuzlu alimlərindən biri oldu. Bu, onu göstərir ki, zəka və istedad həmişə ənənəvi təhsil göstəricilərində əks olunmur və uğura aparan yolu tapmaq vacibdir.***



Onu da qeyd edək ki, Eynşteyn uşaqlığında danışmaqla bağlı problem də yaşayıb. Dili çox gec açılan Eynşteyn 9 yaşına qədər çətinliklə danışıb. Valideynləri onun xəstə olduğunu düşünərək narahat olublar. Ancaq bir dəfə axşam yeməyi zamanı səssizliyi balaca Eynşteyn pozub: "Bu yemək çox istidir".

Ondan indiyə qədər niyə danışmadığını soruşduqda isə belə cavab verib: "Çünki indiyə kimi hər şey qaydasında idi". Maraqlıdır ki, Eynşteyn üzgüçülükdən başqa digər idman növlərini sevməyib. Ümumiyyətlə o, enerji sərfiyyatına səbəb olan fiziki fəaliyyətə qarşı olub. Və özünün dediyi kimi, zehni işdən başqa heç nəyə enerji sərf etmək həvəsində olmayıb.

# Linkoln – barmenlikdən prezidentliyə



***Məşhur ABŞ Prezidenti Avraam Linkoln hündür və qamətli bir insan olub. Onun boyu təxminən 193 santimetr idi. Ancaq az adam bilir ki, Linkoln, həm də qeyri-adi gücü ilə tanınırdı. Belə ki, bir hərəkətlə 136 kiloqrama qədər olan çantanı başının üzərinə qaldıra bilirdi. Linkoln yeganə dövlət başçısıdır ki, barmen işləmək üçün lisenziyası olub. Çalışdığı barın adı isə "Berry and Lincoln" olub.***

Rəy sorğularına əsasən Linkoln ABŞ tarixinin ən yaxşı prezidentlərindən biri hesab olunur, halbuki hakimiyyəti dövründə çoxsaylı tənqidlərə məruz qalmışdı.

Onun qatili məşhur aktyor Con Uilks Butt idi və Linkoln özü də onu bəyənənlərdən biri olub. Aktyor 14 aprel 1865-ci il tarixində Ford teatrının səhnəsində qoyulan "Mənim amerikalı qohumum" tamaşası zamanı prezident lojasına daxil olaraq onun başına tapancadan atəş açıb.

Buttu 12 gündən sonra Vircinya ştatında anbarda gizlənərkən tapıblar. Qatilin son sözləri belə olub: "Anama deyin ki, mən vətənim üçün mübarizə apararaq həlak oldum".

*Ə.PÜNHAN*
*XQ*

Sağlamlıq

# Meyvələrdən bu dəfə 4-ü...

**Yüksək qan təzyiqi və ya hipertoniya infarktdan tutmuş bir çox ciddi sağlamlıq problemlərinin xəbərdaredici əlamətidir. Mütəxəssislər yüksək təzyiqi aşağı salmaq üçün 4 meyvədən daha tez-tez istifadə etməyi məsləhət görürlər:**



**Banan.** – Bu meyvə ürəyə faydalı olan kaliumla zəngindir. Natriumun orqanizmə təsirini azalda və qan damarlarının divarlarında gərginliyi aradan qaldıra bilir. Makronutrient bədəndən artıq mayenin çıxarılmasına kömək edir.

**Avokado.** – Banan kimi, avokadoda da böyük miqdarda kalium var. Bundan əlavə, meyvədə ürək-damar sağlamlığının yaxşılaşdıran pəhriz lifləri mövcuddur.

**Giləmeyvə.** – Moruq, qaragilə və böyürtkən hipertoniya üçün faydalıdır. Giləmeyvələrdə antosiyaninlər də daxil olmaqla antioksidanlar var. Tədqiqatlar bunun qan təzyiqini aşağı salmağa kömək edə biləcəyini göstərir.

**Kivi.** – Meyvə C vitamini mənbəyidir. Elmi məqalələr hipertoniya üçün yaşıl meyvənin faydalarını sübut edib. Son araşdırmalar göstərir ki, gündəlik kivi yemək sistolik qan təzyiqini aşağı sala bilər.

*Z.HÜSEYNLİ*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 3104
SİFARİŞ 47
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır
00:00